www.musavat.com

# YENİ MÜSAVAT

**Xəbər**

## Azərbaycanlı dünya çempionu yol qəzasında öldü

yazısı səh.12-də

**Gündəm**

### Polad Bülbüloğlu Rusiya hökumətindən təminat istədi



"Azərbaycan məhsullarının Rusiya bazarlarına çatdırılması asanlaşdırılmalıdır "

yazısı səh.9-da

### Mətbuat Şurası Rauf Arifoğlunun məhkəməyə verilməsini müzakirə edəcək

yazısı səh.8-də

### "Qasid" bağlandı - redaksiyaların borcunu kim verəcək?

yazısı səh.3-də

### Eldəniz Quliyev qardaşı oğlunun ittihamlarına cavab verdi

yazısı səh.2-də

### Yeni başqanın dönəmində Müsavat hakimiyyətlə əməkdaşlıq edəcək?

yazısı səh.6-da

### Türkiyə-ABŞ münasibətlərindəki gərginlik pik həddə

yazısı səh.9-da

### İşdən çıxarılan icra başçısına xuliqanlıq maddəsi ilə cinayət işi açıldı

yazısı səh.2-də

### "Səni axtarıram"a baxarkən dünyasını dəyişənin hekayəsi aranı qatdı

yazısı səh.11-də

### Rəsmi Bakının "sülhə də hazırıq, müharibəyə də" mesajı

yazısı səh.13-də

### Hacıqabul sakini özünü nazirliyin qarşısında yandıracağını deyir

yazısı səh.15-də

### Bilik Fondunun əsas hədəfi açıqlandı

yazısı səh.10-da

### Fərdi ev tikmək istəyənlərə şad xəbər: şərtlər dəyişdi

yazısı səh.2-də

## "Ehsan şəbəkəsi" hökumət iradəsinə qarşı

# ŞEYXİN QARDAŞINDAN ŞOK AÇIQLAMALAR

QMİ sədrinin "xeyir-şər" davasına Cavanşir Paşazadə də qoşuldu və rəsmi qurumlara meydan oxudu; "37-ci ildir, repressiya dövründəyik" deyə, sual edən deputat mesaj göndərdi: "Restoranlardan qalxan tüstüyə, kabab iyinə niyə heç kim heç nə demir?"



Cavanşir Paşazadə



Allahşükür Paşazadə

yazısı səh.5-də

## Avropa Parlamentində Azərbaycanla bağlı qətnamə qəbul olundu

Beynəlxalq təşkilat siyasi məhbusların həbsini pislədi, onların dərhal və qeyd-şərtsiz azad olunmasını tələb etdi; XİN məsələyə dərhal və sərt cavab verdi

yazısı səh.4-də



*Sərdar Cəlaloğlu :*

**"Siyavuş Novruzov, sən kimsən toyu, ehsanı qadağan edirsən?"**

yazısı səh.6-da



*Tahir Kərimli:*

**"Əlacsızlıqdan partiya sədriyəm, ayrı nə işlə məşğul olum, neyləyim?"**

yazısı səh.7-də



*İsfəndiyar Axundov:*

**"Vertolyotum da var - sonra?!"**

yazısı səh.11-də

**19 sentyabr 2014**



# "İsmayıllı işi" üzrə hökm sentyabrın 24-də oxunacaq

**Cümə axşamı Şəki Apellyasiya Məhkəməsində 23-24 yanvar 2014-cü il İsmayıllı iğtişaşları haqqında iş üzrə proses davam edib. İclasda hakim təhqiqatın yekunlaşdığını elan edib və tərəflərə yekun çıxış üçün söz verib.**

Dövlət ittihamçısı məhkəmədən birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlamağı xahiş edib.

Öz növbəsində təqsirləndirilən şəxslərin vəkilləri və təqsirləndirilən şəxslər özləri məhkəmdən bəraət hökmü verilməsini istəyiblər.

İlqar Məmmədov qısa çıxışında bildirib ki, o, təkcə Azərbaycan vətəndaşı deyil, həm də avropalıdır və Avropa İnsan Hüquqları Məhkəməsi onun işi üzrə son sözü deyəcək.

Təqsirləndirilən Şükran Mehbalıyev qeyd edib ki, həbsindən bir neçə ay sonra ona qarşı 220.1-ci (kütləvi iğtişaşların təşkili və ya onlarda iştirak) maddə ilə ittiham irəli sürüldükdə müstəntiq ona deyib ki, bu, iki müxalifətçiyə (İlqar Məmmədov və Tofiq Yaqublu) görə edilir.

"Biz təqsirsiz olduğumuzu sübut etmək üçün nə etməli olduğumuzu bilirik. Hətta faşist Almaniyasında belə təqsirləndirilən şəxslərin öz təqsirsizliyini sübut etməyə müvəffəq olduğu hallar olub", deyə Yaqublu qeyd edib.

Hakim hökmün elan edilməsini sentyabrın 24-nə təyin edib.

# Eldəniz Quliyev qardaşı oğluna cavab verdi

## "Aqil uşaqlıq edib, gərək belə sözlər deməyəydi"

**"Məncə, Aqil sadəcə "siyasətə qarışmıram, siyasətdən kənar adamam" deyib bu məsələni qapatmalı idi. Qapımı döymür-filan deməklə, mənə elə gəlir, bir az uşaqlıq edib". Bunu musavat.com-a Ziyalılar Birliyinin sədri, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyev qardaşı oğlu Aqil M.Quliyevin onun barəsində dediyi ittihamlara cavab verərkən deyib.**

Əmisi haqda bu cür sərt sözlər deməkdə A. M.Quliyevin əsasının olub-olmadığını soruşduqda isə bu barədə danışmaq istəmədiyini deyən E.Quliyev qardaşı oğlunun belə fikir səsləndirməsinə ciddi əsasının olmadığını bildirdi: "İstədadlı gənc kimi həmişə ona uğurlar arzulamışam. Təhsil almasına, həyatda digər məsələlərdə nə mümkündürsə kömək etməyə çalışmışam. Sadəcə, biz başqa-başqa düşərgələrin adamlarıyıq. Lakin bu, qohumluğumuza kölgə salmır və salmamalıdır".

**Məhkəmə prosesi ilə bağlı son durumu xəbər aldıqda isə E.Quliyev bunları bildirdi:**

"Bildiyiniz kimi, mənim facebookda yayımladığım statusumda bəzi ifadələr məhkəmə linqvistik ekspertizasına təqdim olunub. Həmin ərəfədə məhkəmə cavablar çıxana qədər təxirə salınmışdı. Lakin bu prosesdən 2 gün keçmişdi ki, qarşı tərəfin vəsatəti ilə yeni məhkəmə keçirildi və mənim ölkədən çıxmamağım haqqında qətimkan tədbiri seçildi. Bu, qarşı tərəfdən atılan qeyri-humanist addım idi. Çünki onlar da bilirdi ki, mən xəstəliyimlə bağlı İrana getməliyəm. Hakimlə də danışmışdım. Bilirdim Azərbaycan məhkəmələrində ədalət yoxdur, amma bu qədərini gözləmirdim".

Xəstəliyinin nə olması ilə bağlı verdiyimiz sualı cavablandıran E.Quliyev keçirdiyi stresslərdən və bir neçə il öncə polisin dəyənəklə başına vurması nəticəsində boynunda damar sıxılmasının əmələ gəldiyini bildirdi.

Xatırladaq ki, Aqil M.Quliyev "Yeni Müsavat"a açıqlamasında daxili işlər naziri Ramil Usubov tərəfindən məhkəməyə verilmiş əmisi, Ziyalılar Birliyinin sədri, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyev haqda kəskin ifadələr işlətmişdi. Aqil M.Quliyev əməkdaşımızın "əminizi müdafiə edəcəksinizmi" sualına cavabında bildirmişdi ki, əmisi ilə 10 ildən artıqdır ki, heç bir münasibəti yoxdur. O, E.Quliyevi onu itirib-axtarmamaqda da suçlayıb: "Onun mənə canı yanan olsa idi qapımı döyərdi".

❑ **Fəridə ABDIYEVA**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Eks icra başçısına xuliqanlıq maddəsi ilə cinayət işi açıldı

**Sentyabrın 10-da prezident İlham Əliyevin sərəncamı ilə vəzifəsindən azad olunmuş Gəncə şəhər Nizami Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Məharət Mustafayev barədə Göygöl Rayon Prokurorluğunda araşdırma aparılır.**



Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov virtualaz.org saytına açıqlamasında deyib ki, eks başçının barəsində Göygöl Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.2 (vəzifə səlahiyyətlərini aşma) və 221.1-ci (xuliqanlıq) maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.

Xatırladaq ki, M.Mustafayev hələ RİH başçısı vəzifəsində çalışarkən Göygöl rayon bələdiyyəsinin sədri ilə dalaşıb (bu barədə mətbuatda da kifayət qədər yazılıb). Münaqişə zəminində bələdiyyə sədrinə bədən xəsarətləri yetirmiş M.Mustafayev barəsində polis şöbəsinə və prokurorluğa şikayət olunub.

Daha sonra məsələ böyüyüb, olayla bağlı baş prokuror Zakir Qaralova məlumat verilib. Hadisə daha yuxarı instansiyalara məruzə olunduqdan dərhal sonra M.Mustafayev tutduğu vəzifədən azad olunub.

M.Mustafayevin adı avtobus sürücüsünün burnunu qırmaqda, polis əməkdaşını döyməkdə də hallanırdı.

# Ev tikmək istəyənlərə şad xəbər: şərtlər dəyişdi

**Azərbaycanda kiçik torpaq sahəsində ev tikmək istəyənlər şad xəbər alıblar. Bir qədər əvvəl Şəhərsalma və Tikinti Məcəlləsinə edilən dəyişiklikdən sonra Nazirlər Kabineti də tikililər arasındakı ara məsafəsi tələbi dəyişdirib. Fins.az xəbər verir ki, indi evlər arasında daha az məsafə saxlamaq lazımdır. Nəticədə kiçik torpaq sahələrində ev tikmək mümkün olacaq.**

Qeyd edək ki, 2013-cü ilin əvvəlindən qüvvəyə minən Şəhərsalma və Tikinti Məcəlləsindəki yeniliklərdən biri evin tikintisini sadələşdirmək əvəzinə daha da çətinləşdirmişdi. Məcəllənin 65-ci maddəsinə əsasən fərdi ev tikmək istəyən şəxs onu torpaq sahəsinin kənarında yox, ortasında inşa etməli və evin hər tərəfində hündürlüyünün 0,6 hissəsi qədər ara məsafəsi saxlamalı idi. Bu tələb kiçik torpaq sahəsi olanlar üçün əməli-başlı problem yaratmışdı.

Milli Məclisin qərarı ilə Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilib. Dəyişikliklərə əsasən, fərdi ev tikintisi zamanı ara məsafəsi 2 dəfə azaldılıb və evin hündürlüyünün 0,6 hissəsi qədər yox, 0,3 hissəsi qədər olmalıdır.

Bu dəyişiklik fərdi evlərin tikintisi ilə bağlı vəziyyəti tamamilə dəyişir. Belə ki, əvvəlki vəziyyətdə sahəsi 100 kvadratmetr olan torpaqda yalnız 27 kvadratmetr sahəsi olan birmərtəbəli ev tikmək olardısa *(evin hər tərəfindən 2,4 metr ara məsafəsi saxlamaq şərtilə)*, dəyişikliklərdən sonra isə həmin torpaq sahəsində 58 kvadratmetrlik ev inşa etmək olar *(hər tərəfdən 1,2 metr ara məsafəsi saxlamaq şərtilə)*.

Ara məsafəsi tələbinin dəyişməsi Azərbaycanda, xüsusilə də Bakı və onun ətrafında fərdi ev tikintisini sadələşdirəcək. Nisbətən kiçik torpaq sahəsi olan vətəndaşlar bu dəyişikliklər sahəsində ev tikə biləcəklər.




# Kəlbəcərli girovların Ermənistandan gələn fotoları...

**Kəlbəcərdə ermənilər tərəfindən girov götürülən Azərbaycan vətəndaşları Dilqəm Əhmədovla Şahbaz Quliyevin yeni və ən sonuncu fotoları yayılıb. (Azvision) Fotolar əsirlikdə çəkilib və onların ailələrinə göndərilib.**

Fotolar "Qızıl Xaç"ın xətti ilə girovların ailələrinə çatdırılıb.

Yada salaq ki, onlar iyul ayında erməni silahlı qüvvələri tərəfindən «diversant» adı ilə girov götürülüblər.

# Elman Abdullayev Azərbaycanın Efiopiyada səfiri təyin edildi

**Prezident İlham Əliyev Elman Abdullayevin Azərbaycan Respublikasının Efiopiya Federativ Demokratik Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Prezidentin digər sərəncamı ilə E. Abdullayevə ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilib.

Qeyd edək ki, E. Abdullayev XİN-in mətbuat xidmətinə rəhbərlik edib.

# Həbsdəki hüquq müdafiəçilərinin Saxarov mükafatına namizədliyi irəli sürüldü

**Avropa Sabitlik Təşəbbüsü üç azərbaycanlı hüquq müdafiəçisini Avropa Parlamentinin Saxarov adına mükafatına namizəd irəli sürüb.**

Leyla Yunus, Rəsul Cəfərov və İntiqam Əliyevin bu mükafata namizədliyi insan hüquqları, demokratiya və əsas azadlıqların müdafiəsi işində böyük xidmətlərinə görə irəli sürülüb.

Avropa Sabitlik Təşəbbüsünün press-relizində hər bir namizədin konkret fəaliyyət sahəsi və xidmətləri sadalanır. Hər üç hüquq müdafiəçisinin ölkədə özbaşınalığa, korrupsiyaya, insan hüquqlarının pozulmasına qarşı mübarizə cəhdlərinə görə Azərbaycan hakimiyyəti tərəfindən repressiyaya məruz qaldığı vurğulanır.

"Onları Saxarov adına mükafata namizəd irəli sürməklə Avropa Parlamenti Azərbaycan hakimiyyətinə aydın mesaj göndərib", deyə press-relizdə qeyd edilir.

1988-ci ildə Avropa Parlamenti tərəfindən təsis edilmiş Saxarov adına mükafat hər il insan hüquqları, demokratiyanın inkişafı və qanunun aliliyi, azlıqların hüquqlarının müdafiəsi sahəsində nailiyyətlərə görə təqdim edilir.

Qalib haqqında qərar ilin sonunda qəbul ediləcək.

CAN ERZİNCAN

TÜRKSAT

AzadliqRadiosuTV (ARTV)
hər cümə: 21- 21:45
«Fərqli xəbərlər»

**Peyk:** TürkSat 42°,
**Kanalın adı:** CanErzincan
**Tezlik:** 12.563,
**Pol:** V, **Sürət:** 25.000, **FEC:** 5/6

Bu İnternet TV deyil, əsl televiziyadır!

http://AzadliqRadiosu.az
em@il efir@AzadliqRadiosu.az
facebook /AzadliqRadiosu
YouTube /AzadliqRadiosu
twitter /RadioAzadliq

Qaynar xətt: 012/436-77-41



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**“Qasid” Açıq Səhmdar Cəmiyyəti pərakəndə satış şöbəsinin fəaliyyətini dayandırıb. Firmanın direktoru Mirkazım Kazımov sentyabrın 17-də “Media forum” saytına deyib ki, indən belə qəzet-jurnalı yalnız abunə sistemi üzrə yayacaqlar.**

# “Qasid” bağlandı - redaksiyaların borcunu kim verəcək?



**Azər Ayxan:** ““Qasid”in dayanması haqda xəbər qəzetlər üçün “qara kağız” deməkdir”



**Bəxtiyar Sadıqov:** “Bizim borclar batmalı deyil, bata da bilməz”



**Sücəddin Şərifov:** “Dövlət bu firmaya sahib çıxsın, qəzetlərin borcunu ödəsin”

Qəzet redaksiyaları üçün bu xəbər ağır olub. Redaktorlar baş vermiş durumu qiymətləndirərkən belə deyiblər. **“Yeni Müsavat” qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxan** hesab edir ki, “Qasid”in öz fəaliyyətini dayandırması haqda məlumat qəzetlər üçün “qara kağız” deməkdir. Onun sözlərinə görə, II Dünya müharibəsində əsgər ailələrinə göndərilən “qara kağız” adlandırılan o məşum məktublar nə demək idisə, “Qasid” kimi böyük bir mətbuat yayımı firmasının öz fəaliyyətini dayandırması barədə məlumat da “Yeni Müsavat” ailəsi və digər redaksiyalar üçün o deməkdir: “”Qasid" nə qədər pis işləsə də, qəzetlərə borclu qalsa da, hər halda, bir yayım firması olaraq faydalı idi, nəinki onun işini dayandırması".

**A.Ayxan daha sonra deyib:** “Pis-yaxşı, dava-dalaşla da olsa onlardan satdıqları qəzetlərin pullarını qismən ala bilirdik. Düzdür, bu firma son illər redaksiyalara ciddi problem yaşadıb, qəzetlərə xeyli borcu yığılıb qalıb. Lakin hazırda biz qəzetçilər "betərin betəri" durumu ilə üzləşmişik. Hakimiyyət son illər bilincli olaraq qəzetlərə yayımla bağlı ciddi problemlər yaradıb, qadağalar tətbiq edib. Əl yayımı demək olar ki, sıradan çıxarılıb, metrodakı satışımız 1 ilə yaxındır tamamən yığışdırılıb, ən nümunəvi mətbuat yayımı firması olan “Qaya”nın köşkləri kütləvi şəkildə ixtisar edilib. Belə bir vəziyyətdə “Qasid”in də bazardan çəkilməsi qəzetlər üçün ölüm fərmanına yaxın bir şey deməkdir. Artıq qəzetləri edam kürsüsünə çıxarılmış məhkuma bənzətmək olar".

**“Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov isə bildirdi ki, rəhbərlik etdiyi qəzet uzun müddət “Qasid”lə əməkdaşlıq edib. Onun sözlərinə görə, sözügedən firma “Azərbaycan” qəzetinin şəhərdə yayımı ilə məşğul olub:** “Daha sonra Bakıda abadlaşma, genişlənmə işləri getdi və bu da ”Qasid"in işinə təsir etdi. Köşklərin bir qismi götürüldü, bir qismi şəhərin mərkəzindən köçürüldü. Sonra problem yarandı. Son 3 ildə bizim ciddi problemlərimiz ortaya çıxdı. Bizim “Qasid”ə satış üçün verdiyimiz qəzetin qayıdış faizi yüksəldi. Müəyyən mübahisələrimiz, müzakirələrimiz oldu. Son bir-iki ildə isə daha çox mübahisələrimiz, narahatçılığımız satış üçün verdiyimiz qəzetlərin pulunu ala bilməməyimiz səbəbindən ortaya çıxıb. “Qasid”in rəhbəri Mirkazım Kazımov dostum, deputat həmkarımdır. Hər zaman çalışırdıq ki, qəzet satışında yaranan problemlə bağlı dostcasına danışaq. Dostluğumuza xələl gətirməsək də, qəzet və yayım şirkəti arasındakı problemlər azalmaq əvəzinə böyüdü".

**B.Sadıqov dedi ki, hazırda firmanın qəzetə 45 min manat borcu var. Baş redaktorun sözlərinə görə, bu pula çox ciddi ehtiyacları var:** “Biz təsərrüfat hesablı qəzetik. Çox adam düşünür ki, ”Azərbaycan" qəzeti dövlət büdcəsinə daxildir, amma belə deyil. Bu cür fəaliyyət göstərəndə, yeni mal istehsal edib, onun satışını reallaşdıra bilməyəndə ziyanımız çoxalır, istehsalın növbəti mərhələsində problem yaranır. Biz arzu edik ki, problem həll olsun. Amma indi deyirlər ki, pərakəndə satışı dayandırırlar".

**“Bizim borclar batmalı deyil, bata da bilməz” - deyən baş redaktorun sözlərinə görə, arada rəsmi müqavilə var. Müsahibimiz firmaya mal verdiklərini, əllərində üzləşdirmə aktı olduğunu vurğuladı:** “Nə qədər mal vermişik, nə qədər almışıq. Əlimizdə o borcu sübut edən, məhkəmədən keçən sənədlərimiz var. ”Qasid" əgər fəaliyyətini dayandırırsa, kimsə bu şirkətə sahib çıxacaqsa, o borclara da sahib çıxmalıdır. Ən azı 1 il ərzində o borclar qaytarılmalıdır. Belə olmasa, məhkəməyə müraciət edib, əmlaka yönəltmək hüquqmuzdan istifadə edəcəyik. Bu günə qədər dostluq-həmkarlıq məsələsi vardı. Amma bundan belə kimsə bu şirkəti özəlləşdirib götürsə, borcun qısa müddətdə qaytarılması üçün bu problem həll olunmalıdır".

**“Azadlıq” qəzetinin baş redaktorunun müavini Sücəddin Şərifov bildirdi ki, onlar bu firmadan əllərini çoxdan üzmüşdülər. Müsahibimiz son bir neçə ayda onlara verdikləri tirajı minimuma endirdiklərini vurğuladı:** “Günü sabahdan tirajı dayandıracağıq. Onların qalan köşkləri ən ucqardadır və həmin köşklərin də bir neçə gün ömrü qalıb. Borcumuz 70 min civarındadır. Ondan çox olar ki, az olmaz. Onun geri alınması uğrunda iş gedəcək təbii ki".

**Müsahibimiz problemin həll yolunu da asan hesab edir. Onun fikrincə, firmanın səhmləri Əmlak Məsələləri Dövlət Komitəsinə verilməlidir:** “Bu prosesi sürətləndirməklə qəzetlərə yaranmış borcu ödəmək olar. Dövlət sahib çıxsın onlara. Məhkəmə variantı da var. Amma bu, aylarla, bəlkə də illərlə vaxt aparacaq. Ən optimal variant odur ki, firmanın borcu olduğu redaksiyalar bir yerdə dövlətin ona sahib çıxmasına çalışsınlar. Hər halda, bu firmanın binası, texnikası, maşınları var. Bunların qarşılığında borcları böyük məbləğ deyil. Hər redaksiyaya 20-25 abunə ilə kollektiv saxlamaq, borc həll etmək mümkün deyil".

❑ **Sevinc TELMANQIZI**

# Milli Şura müxalifətin tədbirinə niyə gəlmədi?

## Faktla bağlı təzadlı açıqlamalar verilir, Cəmil Həsənli: “Məsələni niyə dərinləşdirirsiz?”

**Ölkə müxalifətinin iki gün əvvəl keçirdiyi geniş toplantıya bəzi dəvətlilər qatılmayıb. Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin “Azərbaycanda demokratiyanın vəziyyəti” mövzusunda keçirdiyi geniş konfransa hakim partiya olan YAP daxil olmaqla, bütün siyasi qüvvələrin, həmçinin həmkarlar təşkilatlarının dəvət olunduğu bildirilir. Ancaq YAP, AXCP, VHP və hətta Milli Şura həmin konfransa qatılmayıb.**

**VHP sədri Sabir Rüstəmxanlı** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, konfransdan xəbərsizdir: “Xəbərim olmayıb. Bizə deyilməyib. Desəydilər, tədbirə qatılardıq”.

**Tədbirin təşkilatçılarından olan KXCP-nin sədr müavini Xəzər Teyyublu isə bildirib ki, VHP də daxil olmaqla, hər kəsə dəvətnamə göndərilib:** “Hətta hakim partiyaya da dəvətnamə göndərilib, həmkarlar təşkilatlarına da. Burada bir fərq qoyulmayıb. Siyasi fəaliyyətdə olan bütün qurumlara dəvət göndərilib. Kimin gəlməməsi necə, hansı səbəbdən olubsa, bu, onların işidir. Biz azından, Milli Şuraya da dəvət göndərmişdik”.



Cəmil Həsənli

**Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev isə** qeyd edib ki, qurumun rəhbəri Cəmil Həsənlinin məsələ ilə bağlı ayrıca açıqlaması var və bu səbəbdən o, heç bir əlavə etmək istəmir: “Hesab edirəm ki, Cəmil bəy məsələyə cavab verib, mənim şərh verməyim düzgün olmazdı”.

**Qeyd edək ki, Milli Şura sədri, professor Cəmil Həsənli aznews.az-a məsələ ilə bağlı bunları deyib:** “Bu məsələni niyə dərinləşdirirsiz? Belə məsələləri çox da qurdalamaq lazım deyil. Milli Şura partiya deyil ki...”.

**Vətəndaş Həmrəyliyi Partiyasının Siyasi Şurasının üzvü Samir Əsədli isə bildirib ki, anlaşılmazlıq baş verib:** “Nəsə bir anlaşılmazlıq olub. Partiyanın tədbirə rəsmən dəvət almasından məlumatsızam. İştirak etməsək də, vətəndaş olaraq orada qaldırılan məsələləri insan hüquqları və demokratiya yolunda müsbət dəyərləndiririk”.

Qeyd edək ki, YAP rəsmilərindən verilən açıqlamaya görə, onlara bu barədə xəbər dünən axşam saatlarında daxil olduğundan, planlamaya daxil edilməyib.

❑ **RÖYA**

# İdman meydanlarında siyasət



**Mahal İSMAYILOĞLU**
mahal57@mail.ru

**Kütləvi idman yarışlarının ilk cücərtiləri XIX əsrin sonlarında boy qaldırdı. İlk Olimpiya oyunları keçirildi. Tezliklə futbol, yüngül, ağır atletika yarışları, futbol oyunları insanların sevimli əyləncəsinə döndü. Ziddiyyətlərlə dolu olan, iki dünya müharibəsi sınağından çıxan dünyada bütün çətinliklərə baxmayaraq, idman sevimli əyləncə oldu.**

Kimin üçünsə qazanc, kiminçünsə şan-şöhrət istinadına döndü. Hətta bütün Avropanın başının üstünü faşizm təhlükəsi alanda da Olimpiya oyunları reklam olunmaq, məkrli niyyətləri gizlətmək üçün vasitə idi. Məhz 1936-cı ildə Berlində keçirilən Olimpiya yarışlarından sonra dünya ölkələri nə qədər yanıldıqlarını, xəbis niyyətli diktatora bir fürsət verdiklərini anladılar.

İdman, onun yaratdığı ab-hava XX əsrin əsas atributu idi. Sülh, əməkdaşlıq, əmin-amanlıq şüarı altında keçirilsə də, siyasət idman meydanlarına yol tapdı. Artıq biri-biri ilə ədavətdə olan ölkələr idmandakı üstünlüyü siyasi əmsala çevirmək istəyirdilər. Ötən əsrin ikinci yarısında, dünya müharibəsindən sonra bu, daha kütləvi şəkil aldı. Hələ də yaddaşlardan silinməyib: iki ideoloji cəbhədə üz-üzə gələn ölkələrin arasındakı xokkey yarışları, şahmat oyunları topsuz-tüfəngsiz döyüşü xatırladırdı. Qələbə dövlət başçıları üçün bir fürsətə dönürdü.

Sovet totalitar rejimi də məhz müharibədən sonra daha geniş miqyaslı yarışmaların daimi iştirakçısı oldu. ABŞ-ın xokkey komandasına uduzduğuna görə idmançıların Stalin rejiminin amansız təqibləri ilə üz-üzə qalmaları tarixin yaddaşından silinməyib. Nəyin naminə olursa-olsun qələbə qazanmaq istəyi bütün dövlət qurumlarını bürüyürdü.

İdman tezliklə böyük qazanc mənbəyinə döndü. İndi dünyada elə futbol, basketbol, xokkey komandaları var ki, onların gəlirləri, oyunçuların aldığı para, bir komandadan başqa komandaya transferinə xərclənən pullar dünyanın neçə-neçə kasıb ölkəsinin büdcəsindən qat-qat çoxdur...

İdman olduqca bahalı əyləncədir. Olimpiya oyunlarının, futbol üzrə dünya, qitə çempionatların təşkil olunması milyardlarla dollar xərcə başa gəlir. Özü də bu məbləğ getdikcə artır. Bir o qədər də kasıb insanların müqaviməti ilə qarşılaşır. Futbol Braziliyada ən çox sevilən idman yarışması olsa da, on minlərlə braziliyalı buna etiraz edirdi. O pulların insanların sosial ehtiyaclarına xərclənməsi tələbi səslənirdi.

İdman siyasi ziddiyyətlərin həll edildiyi yarış meydançasına çevrilib. 34 il əvvəl SSRİ Əfqanıstanı işğal etmək üçün bu ölkəyə qoşun yeridəndə ideoloji cəbhənin o biri tərəfindəki ölkələr buna etiraz etdilər. XX yay Olimpiya oyunlarına qatılmadılar. İndi həmin vəziyyət yenidən təkrarlanır. 2014-cü ilin Qış Olimpiya oyunlarına səxavətlə 60 milyard dollar xərcləyən Rusiya yenə siyasi ziddiyyətlərin kəsişmə nöqtəsinə dönüb. Kimə sirdir ki, bu qədər xərc çəkən ölkə bunun qarşılığında reklam olunmaq istəyirdi. Amma yarışmalar başa çatar-çatmaz Rusiya Ukraynanın ərazisini - Krımı işğal etdi. Bunun ardınca bu ölkənin cənub-şərq əyalətlərindəki separatizmi də məhz Rusiya dəstəklədi. Bu isə siyasi qarşıdurmanın yenidən kəskinləşməsinə təkan verdi. Cəmisi dörd il sonra futbol üzrə dünya çempionatı da bu ölkədə keçirilməlidir. Bu niyyətlə ciddi hazırlıqlar görülür. Dünya yenə idman labirintinə düşüb. Bütün inkişaf etmiş ölkələr Rusiyaya qarşı sərt qadağalar tətbiq edirlər. Rusiyada isə onunla barışmaz mövqedə dayanan ölkələrə qarşı şovinist təbliğat isterik həddə qərarlaşıb. Bax belə məqamda yenidən Rusiyada dünya çempionatının keçirilməsinə qarşı ortaq mövqe formalaşıb. Anlaşılandır, bu qədər antiqərb təbliğatı aparıldığı ölkəyə idmançıların gəlməyi, onların təhlükəsizliyi xeyli suallar doğurur. Biri-birini “tanımayan” ölkələrin bu ölkənin idman meydanlarında yarışması bütün hallarda mümkünsüz görünür. Hələ Ukraynadakı müharibənin də sonu görünmür, Rusiya da öz iddialarından geri çəkilmək istəmir...

Bir məqamı diqqətdən qaçırmayın: cəmisi 9 ay sonra Azərbaycan da reytinqi olmayan bir yarışmaya - I Avropa Olimpiya oyunlarına ev sahibliyi edəcək. Avtoritar rejim səxavətlə buna milyardlarla pul xərcləyir. Orta aylıq əmək haqqının 440 manat həddində olduğu bir ölkə üçün ağır yükdür. Sərt repressiyalardan çəkinən kütlə səsini də çıxartmır. İdman isə rejim üçün növbəti özünüreklam fürsəti yaradır.

YENİ MÜSAVAT
N 234 (5943) 19 sentyabr 2014

# Avropa Parlamentində Azərbaycanla bağlı qətnamə qəbul olundu

## Beynəlxalq təşkilat siyasi məhbusların həbsini pislədi, onların dərhal və qeyd-şərtsiz azad olunmasını tələb etdi; XİN məsələyə dərhal və sərt cavab verdi

**Avropa Parlamentində Azərbaycanda insan haqları və demokratiyanın vəziyyəti ilə bağlı qətnamə layihəsi müzakirə edilərək səsvermədən keçib. Bu barədə "Azadliq.info"nun yaydığı məlumata görə, müzakirələr zamanı avropalı parlamentarilər Azərbaycanda vəziyyəti tənqid ediblər.**

Azərbaycanla bağlı qətnamə layihəsini Avropa Parlamentinin almaniyalı deputatı Aleksandr Graf Lambsdorf ALDE qrupu adından təqdim edib. Qurumun saytında yerləşdirilən sənədin layihəsində Azərbaycandakı repressiyalar, o cümlədən hüquq müdafiəçilərinin həbsi, müstəqil mediaya basqılar, QHT-lərin susdurulması və s. məsələlərlə yanaşı, Azərbaycan məmurlarına sanksiyaların tətbiqinə dair təklifin də öz əksini tapdığı bəlli idi. Sentyabrın 18-də keçirilən müzakirələrin yekununda qətnamənin layihədə olduğu kimi, yoxsa hansısa düzəlişlərlə qəbul edildiyi hələlik bəlli deyil. Müzakirələrin yekunu barədə Avropa Parlamentinin saytında yerləşdirilən məlumatda deyilir: **"Avropa Parlamentinin üzvləri Azərbaycan hakimiyyətini insan hüquqları sahəsində ciddi islahatlar aparmağa, vətəndaş cəmiyyəti təşkilatlarına, müxalifət partiyalarına, müstəqil jurnalistlərə hücumları dayandırmağa, sərbəst toplaşma ilə bağlı qadağanı aradan qaldırmağa çağırır. Avropa Parlamentinin deputatları Leyla və Arif Yunusların, Rəsul Cəfərovun, İntiqam Əliyevin, Həsən Hüseynlinin həbsini pisləyir, onların dərhal və qeyd-şərtsiz azad olunmasını tələb edir. Avropa Birliyi Azərbaycanla əməkdaşlığı dəstəkləyir, eyni zamanda insan hüquq və azadlıqlarının qorunmasını bu münasibətlər üçün şərt hesab edir".**

Virtualaz.org saytı isə xəbər verir ki, sənəddə Azərbaycanda vətəndaş cəmiyyəti nümayəndələrinə qarşı təqiblər pislənir, Azərbaycan hökuməti isə insan haqları sahəsində islahatlar aparmağa çağırılır. Avropa Parlamentinin deputatları Azərbaycan hakimiyyətini insan haqları sahəsində həllini çoxdan gözləyən problemləri ləngimədən aradan qaldırmağa, bu sahədə müvafiq islahatlar aparmağa, vətəndaş cəmiyyəti fəallarının, müxalif siyasətçilərin və müstəqil jurnalistlərin sıxışdırılmasına son qoymağa səsləyiblər. Qətnamədə Bakıda sərbəst toplaşmağa qoyulan qadağanın aradan qaldırılmasının vacibliyi də vurğulanır. Bununla belə, Avropa Parlamentinin qəbul etdiyi qətnamədə Azərbaycan müxalifətinin ümidlərini doğrultmayan digər vacib məqam da var. Belə ki, sənəddə azərbaycanlı məmurlara sanksiya tətbiq edilməsinə dair heç bir çağırış yoxdur.

Qeyd edək ki, qətnamə layihəsində Azərbaycanda son bir neçə ildə insan hüquqları sahəsində vəziyyətin aramsız olaraq pisləşdiyi, ölkədə Avropa Birliyi ilə əməkdaşlıq üzrə Fəaliyyət Planının qəbul olunmasına baxmayaraq, qeyri-hökumət təşkilatlarına, müstəqil mətbuat orqanlarına qarşı təzyiqlər, hədələrin artdığı, müxalif qüvvələr, hüquq müdafiəçiləri, gənclər, sosial şəbəkə fəalları və jurnalistlər arasında qorxu mühitinin yaradıldığı, nəticədə özünüsenzura mühitinin formalaşdığı əksini tapırdı.

Yəqin ki, Azərbaycan hökuməti AP-nin qətnaməsini cavabsız qoymayacaq. Bundan öncə də qurum Azərbaycanla bağlı sərt dildə qətnamələr qəbul edib və Bakıdan adekvat cavab alıb. Elə müzakirələrin gedişində qətnamə layihəsi ilə bağlı Avronest PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Elxan Süleymanovun adından Avropa Parlamentinin prezidenti Martin Şults, Avronest PA-nın həmsədrləri və Avropa Parlamentinin üzvlərinə müraciət edilmişdi. Müraciətdə Azərbaycan hakimiyyətinə qarşı sanksiyaların qəbul oluna biləcəyindən narahatlıq əksini tapmışdı. Düzdür, qətnamə layihəsinin ruhundan sanksiyalarla bağlı qərarın veriləcəyi gözlənilirdi. Lakin bu, baş vermədi. Qətnamə layihəsindən görünürdü ki, avropalı parlamentarilər Azərbaycandakı repressiyalarla bağlı rəsmi Bakıya qarşı konkret addımların atılmasını istəyir. Qətnamə layihəsinin xüsusi "təcili" qrifi ilə işarələnməsi də diqqətdən yayınmırdı. E.Süleymanovun müraciətində isə qətnamə layihəsinin müəllifləri "Azərbaycana qarşı qərəzli kampaniyanın iştirakçıları" kimi təqdim olunur, Avropa Parlamentinin rəhbərliyi və üzvlərindən sənədin qəbuluna imkan verməmək istənilirdi. Güman olunur ki, Avropa Parlamenti Azərbaycan hakimiyyətinə bir az da vaxt verməyi qərara alıb. Xüsusilə də Rusiyanın postsovet məkanını ələ keçirməyə yönəldiyi indiki ərəfədə Azərbaycanla bağlı da sərt sanksiya qərarlarının verilməsi Bakını Avropadan uzaqlaşdırmaq demək olardı. Üstəlik, qış ərəfəsində Avropa alternativ enerji mənbəyi hesab etdiyi Azərbaycanı küsdürmək istəməzdi. Ancaq istənilən halda qətnamə Bakıya qarşı təzyiq hesab olunur.

**Bir müddət öncə qəzetimizə açıqlamasında Avropadan Azərbaycana qarşı təpkilərin artacağı barədə fikirlərini açıqlayan Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Mirvari Qəhrəmanlı bildirdi ki, mahiyyətindən asılı olmayaraq Azərbaycan əleyhinə hər hansı qətnamənin qəbulunu ağrı ilə qarşılayır:** "Çünki bəzilərindən fərqli olaraq mən dövlətimi, millətimi sevən adamam. 2014-cü ildə dövlətimizə, millətimizə qarşı elə bil kimlərsə qərəzli siyasət apardı. O zaman biz çox narahatlıqla çağırışlar etdik ki, bu addımlardan çəkinin, Azərbaycanı sivil dünya ilə üz-üzə qoymayın. Müstəqil vətəndaş cəmiyyəti olmayan ölkədə inkişaf da olmaz. Amma çağırışlara məhəl qoyulmadı və birdən-birə vətəndaş cəmiyyətinə qarşı basqılar başladı. Məncə, ilk növbədə bu basqılar kimin siyasətidir, tapılıb cəzalandırılmalıdır. Hansı qrupdur ki, Azərbaycanın imicinə zərbə vurur, əvvəlcə o müəyyənləşməlidir. Mən dəqiq bilirəm ki, həbs olunan həmkarlarımdan heç biri Azərbaycanın ziyanına qərarın qəbul olunmasını arzulamır, onlar Azərbaycanı çox sevirlər. Ölkədə siyasi məhbus olmasını istəyənlər məhz bu iqtidarın içərisindədir. Onlar Azərbaycanı dünya ilə üz-üzə qoyur. Azərbaycan hökuməti özü bələlərini axtarıb cəzalandırmalıdır". **M.Qəhrəmanlı təəssüflə qeyd etdi ki, Azərbaycana qarşı sanksiya gözləyir:** "Beynəlxalq maliyyə institutlarına artıq bununla bağlı müraciətlər edilir. Bilmək lazımdır ki, Azərbaycan dünyadan təcrid olunmayıb, tək yaşaya bilməz. Ancaq sanksiyalar qətnaməyə nə cür münasibət bəslənəcəyindən çox asılıdır. Yenə Azərbaycanı istəməyən qüvvələr bu qətnaməyə qarşı sərt reaksiya versələr, ardınca sanksiya qaçılmaz olacaq. Ən azı ilkin mərhələdə bu prosesdə iştirak edən məmurlar cəzalana, onların xarici ölkələrdə qoyduğu milyonların taleyi təhlükə altına düşə bilər. Amma mən yenə də istəmirəm ki, ölkəmə sanksiya tətbiq olunsun. Onu da istəmirəm ki, Azərbaycanda vətəndaş cəmiyyəti boğulsun".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə bu mövqedədir ki, Avropa Parlamentinin Azərbaycanla bağlı sərt qətnaməsi rəsmi Bakını zərrə qədər də narahat etmir:** "Birinci dəfə deyil ki, avropalı deputatlar Azərbaycanda insan haqları və demokratiyanın vəziyyətinin ağır olduğunu söyləyir və buna görə hakimiyyəti tənqid edirlər. Reallıqlardan çıxış etməliyik. Reallıq isə bundan ibarətdir ki, Azərbaycan hakimiyyətinin Avropa Parlamenti ilə bağlılığı yoxdur, bu qurumun qətnamələri rəsmi Bakının siyasətinə təsir etmir. Yox, əgər Azərbaycan da Gürcüstan, Moldova və Ukrayna kimi Brüssellə assosiativ saziş imzalasaydı, onda demək olardı ki, Avropa Parlamentinin qətnaməsinin Bakı üçün hansısa təsir gücü var və hakimiyyət bu kimi sənədlərdən nəticə çıxaracaq".

**E.Şahinoğluna görə, digər tərəfdən rəsmi Bakı daxili məsələlərdə, ümumiyyətlə, xaricdən gələn təzyiqə dözümsüz yanaşır və kənar təzyiq altında qərar verməyi xoşlamır:** "Bəzən isə belə qətnamələr əks-effekt verir. Yəni əslində Avropa Parlamentinin hazırda həbsdə olan insanların azadlığı üçün hakimiyyətə qarşı qəbul etdiyi qətnamənin həmin məhbuslara xeyirdən çox zərəri ola bilər".

Bu arada Azərbaycanın digər beynəlxalq təşkilatla da problemləri ortaya çıxıb. BMT-nin İşgəncələrin qarşısının alınması üzrə alt komitəsinin (İQAT) Azərbaycana gəlmiş nümayəndə heyəti səfəri yarımçıq dayandırmaq və ölkəni tərk etmək qərarını verib. Bunu "Media forum" saytına BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycan üzrə ofisindən bildiriblər.

Ofisdən qeyd ediblər ki, BMT-nin İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyasının fakültativ protokoluna (OPCAT) Azərbaycan da qoşulub və nümayəndə heyəti də Azərbaycana bu protokol əsasında öz mandatını həyata keçirməyə gəlib. Ancaq heyət Azərbaycanda maneələrlə qarşılaşıb, onu öz mandatını həyata keçirməyə qoymayıblar və səfəri dayandırıb ölkəni tərk etmək qərarı da buna görə verilib.

**BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycan üzrə ofisi vurğulayır ki, Azərbaycanın rəsmi qurumları azadlıqdan məhrumetmə yerlərinə məhdudiyyətsiz girişlə əlaqədar zəmanət versə də, nümayəndə heyətinin azadlıqdan məhrumetmə yerlərinin bir neçəsinə daxil olmasının, digərlərində isə heyətin öz vəzifələrini tam yerinə yetirməsinin qarşısı alınıb:** "Fakültativ protokol üzrə Azərbaycanın götürdüyü öhdəliklərin ciddi pozulması nəticəsində və nümayəndə heyətinin 8-17 sentyabr tarixləri arasında planlaşdırılan səfərinin bütövlüyünün çətinliklərlə üzləşməsi səbəbindən nümayəndə heyəti missiyanı vaxtından əvvəl dayandırmaq qənaətinə gəlib.

Nümayəndə heyəti sentyabrın 14-də fəaliyyətini dayandırıb, lakin bəzi üzvlər Bakıda qalaraq topladığı məlumatlar əsasında Azərbaycan rəsmiləri ilə müvafiq danışıqları davam etdiriblər. Sentyabrın 16-da nümayəndə heyətinin rəhbəri Aişa Şujun Muhammad Azərbaycanın xarici işlər nazirinin müavini ilə görüşüb".

Təzyiqlər isə bununla bitmir. Britaniyada bəzi təşkilatlar bp-nin mərkəzi ofisi qarşısında aksiyalar keçirərək Azərbaycanda insan hüquqlarının pozulması səbəbindən bu ölkə ilə əməkdaşlığı dayandırmağı tələb ediblər. Hələ ki bp-nin və rəsmi Bakının bu məsələlərə reaksiyası məlum deyil.



**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev Avropa Parlamentinin bu qətnaməsi ilə əlaqədar açıqlama yayıb. APA-nın xəbərinə görə, açıqlamada bildirilir ki, Azərbaycan XİN hesab edir ki, Avropa Parlamentinin Azərbaycanda insan hüquqlarına dair qəbul etdiyi qərəzli qətnamə tamamilə əsassız və qeyri-obyektivdir:**

"Azərbaycanda qanunun aliliyi, insan hüquqlarının qorunması, ifadə və sərbəst toplaşmaq azadlığı və məhkəmə sisteminin müstəqilliyi tam şəkildə təmin olunub. Siyasi baxışlarına və fəaliyyətinə görə heç kim təqib və mühakimə edilmir. Qanunun aliliyinin təmin olunduğu istənilən demokratik cəmiyyətdə olduğu kimi, Azərbaycanda da heç kəs özünü qanundan üstün hesab edə bilməz. Qərəzli münasibətin göstəricisi olan bu qətnamə yalnız Azərbaycana siyasi təzyiq göstərmək məqsədi daşıyır".

Bəyanatda sentyabrın 20-də Bakıda keçirilməsi nəzərdə tutulan "Cənub Qaz Dəhlizinin genişləndirilməsi" və "Trans-Anadolu" layihəsinin təməlqoyma mərasimi ərəfəsində belə bir qətnamənin süni şəkildə meydana çıxarılması Avropa İttifaqı və Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsinə və Avropa İttifaqının özünün enerji təhlükəsizliyinin gücləndirilməsinə əvəzsiz töhfə verəcək bu layihənin uğuruna insan hüquqları adı altında xələl gətirmək cəhdi kimi qiymətləndirilir.

❑ **Cavid TURAN**

# “Ehsan şəbəkəsi” hökumət iradəsinə qarşı

# Şeyxin qardaşından şok açıqlamalar

## QMİ sədrinin “xeyir-şər” davasına Cavanşir Paşazadə də qoşuldu və rəsmi qurumlara meydan oxudu; “37-ci ildir, repressiya dövründəyik” deyə, sual edən deputat mesaj göndərdi: “Restoranlardan qalxan tüstüyə, kabab iyinə niyə heç kim heç nə demir?”

**Avqustun sonlarından başlayaraq, hökumətin ölkədə yas məclislərinin keçirilməsi qaydalarına dəyişiklik etməsinə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin ciddi müqavimət göstərməsi barədə ötən saylarımızda xəbər vermişdik. Məlumatda bildirilirdi ki, dövlət orqanlarının şeyxin əsasən biznes maraqlarının olduğu yas məsələlərinə müdaxiləsi onu qəzəbləndirib. Bu səbəbdən də şeyxülislam nəinki bu qərarı açıq şəkildə dəstəkləməyib, əksinə, QMİ-nin binasında yerləşən ehsan zallarında yeməkli ehsan məclislərini davam etdirməklə, açıq şəkildə narazılığını ortaya qoyub.**

**Şeyxin qardaşı, Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Cavanşir Paşazadədə** isə ötən gün bu narazılığı daha sərt formada ifadə edib, hətta “ölkədə 37-ci il havaları” ifadəsini işlətməkdən belə çəkinməyib. C.Paşazadə “Qafqazinfo”ya açıqlamasında bu cür qadağaların Azərbaycan xalqının ənənələrinə zidd olduğunu bildirib: “Buna qaşınmayan yerdən qan çıxarmaq deyirlər. Azərbaycan xalqını başqa xalqlarla eyni tutmaq olmaz. Biz təkcə rəhmətə gedən yaxınlarımıza deyil, imamlarımız, şəhidlərimiz üçün də ehsanlar veririk. 90-cı illərdə, müharibə dövrlərində Azərbaycanda o qədər çadırlar quruldu. Kimlər üçün verilirdi o ehsanlar? Allah göstərməsin, amma hər kəsin başına gəlir. Mən atam, anam üçün ehsan vermək istəyirəmsə, kimin ixtiyarı var ki, mənə qadağa qoysun? Təbii ki, israfçılıq etmək olmaz. ”Təzəpir" məscidinin girişində də yazılır ki, salavat da, dua da, eləcə də çay, çörək də ehsan sayılır. Bütün bunlar deyilə bilər, lakin əmredici formada ola bilməz".

**Deputat bəzi rayonlarda icra nümayəndəliyinin yas mərasimlərinə müdaxilə etməsinə etirazını bildirib:** “Kim isə kiminsə gəlib qazanını götürür. Bu nə deməkdir? 37-ci ildir, repressiya dövründəyik? Səkkizinci kilometrdə yol boyu restoranlardan qalxan tüstü, kabab iyindən oradan keçmək olmur. Niyə onlara heç kim heç nə demir? ”Təzəpir"də ehsan verilməsinə gəlincə, özləri bilər. Yaslarda da, toylarda da islahatlar aparmaq lazımdır. Lakin heç kim mənə tapşırıq verə bilməz. Bunu ortaya atan adam dövlətçi ola bilməz".

C.Paşazadənin açıqlamasına diqqət yetirdikdə onun əslində bu qadağaları həyata keçirən dövlət qurumlarına, Dini Komitəyə birbaşa hədələr olduğu aydın görünür. Deputat “qaşınmayan yerdən qan çıxarmaq” deməklə, görünür, şeyx ətrafındakı “böyük bir narazılar ordusunun” olduğuna işarə etmək istəyib. Çünki cəmiyyətin böyük əksəriyyəti yas mərasimlərində düzən yaradılmasını dəstəkləyir və hələ ki hardasa “qan tökülməyib”.

Şeyxin qardaşının “37-ci ildir, repressiya dövründəyik” kimi hökuməti qıcıqlandırıcı sualları ortaya atması da hirsli başla deyilmiş sözə oxşamır. Deputat yaxşı bilir ki, bu cür ifadələrin harada və necə işlədilməsindən asılı olmayaraq, hökuməti qıcıqlandırır. Belə çıxır ki, hökumət bu qadağaları ümumiyyətlə, lap qanun səviyyəsində rəsmiləşdirsə, şeyx və ətrafı üçün “ölkədə 37-ci il” olacaq. Şeyxin qardaşının məntiqi budur.

Onun “Səkkizinci kilometrdə yol boyu restoranlardan qalxan tüstü, kabab iyindən oradan keçmək olmur” deməsi də hökumətdəki müəyyən dairələrə açıq mesajdır. Şeyxin qardaşının nə demək istədiyi aydındır: “Bizim biznesi bağlayırlarsa, niyə digər məmurların restoranlardan kabab iyi gəlir?” Nəhayət, deputat müsahibəsini bu qərarın arxasında duran hökumətə daha çox şeyxin adından verilən “heç kim mənə tapşırıq verə bilməz” sözləri ilə möhürləməsinə diqqət yetirək.


Allahşükür Paşazadə


Cavanşir Paşazadə

Şeyx və rəhbərlik etdiyi qurum “din dövlətdən ayrıdır” deyirsə, bu heç də “dövlət mənim işimə qarışa bilməz” anlamına gəlmir. Bunu şeyx həzrətləri də, məhz dövlətin ona verdiyi deputat vəsiqəsini gəzdirən C.Paşazadədə yaxşı bilir...

Geniş biznesə sahib olan C.Paşazadənin bu cür sərt danışması təkcə qardaşına dəstək deyil, həm də ehsan süfrəsində qazanılan milyonları qorumaq niyyətidir. Ölkə başçısının sərəncamı ilə bir müddət öncə “Təzəpir”də təmir-bərpa işlərini şeyx deputat qardaşına həvalə etmişdi. İddialara görə, təmirdən çıxan “Təzəpir” məscidində yaradılmış 9 mərasim salonundan gələn vəsaitlər də şeyx və onun deputat qardaşının kapitalına qatılır. Məhz bu səbəbdən də sözügedən qadağa “Təzəpir”də keçirilən yas süfrələrində hələ də tətbiq edilmir. Ehsan olaraq plov, aşqara, salatlar, dovğa, ayran, pendir, göy-göyərti, meyvələr, meyvə suları, müxtəlif şirniyyat, çərəzlər və sair verilir *(bu haqda əməkdaşımızın reportajında ətraflı yazılıb-red.).*

Həmçinin QMİ-nin digər məscidlərində də mərasim zallarında əvvəlki kimi hərtərəfli menyu təqdim edilir. Bu zallarda bişən ehsanların bütün ərzağı, eləcə də çay süfrəsi üçün təamlar yalnız Paşazadələrin və onlara yaxın adamların nəzarətindədir. Bu qadağaların tətbiqi bu “ehsan şəbəkəsinə” ayda milyon manatlarla ziyan deməkdir.

Yas mərasimlərinin təşkili zamanı çadır və digər xidmətlərdən əldə edilən qazancı da buraya əlavə etsək, şeyx və ətrafının hökumətə niyə belə dirəniş göstərməsinin səbəbi aydın olur.

Şeyxin və ətrafının bu cür sərt mövqeyinin daha bir səbəbi Milli Məclisin sentyabrın 30-da dəfn işinin təşkili ilə bağlı qanun layihəsi müzakirəyə çıxaracağı ilə bağlıdır. Dəfn işinin təşkilinin hökumətin vəsaiti hesabına həyata keçirilməsi qanuniləşərsə, bu da illərdir özləri istədiyi kimi ölüyuma, kəfənləmə, eləcə də cənazənin aparılmasını təşkil edən QMİ-nin məscidlərinin mənafeyinə toxunacaq. Hökumət bu işi nəzarətə alaraq qanuniləşdirsə, aydındır ki, dəfn xərcləri üçün də müəyyən hədd qoyulmalıdır. Hökumət hər il büdcədən bu işin təşkili üçün vəsait ayıracağından çalışmalıdır ki, bu xərclər nisbətən aşağı olsun. Üstəlik, qanunla həmin işlərin görülməsindən vergi tutulması da asanlaşacaq, nəzarət gücləndiriləcək. Bu da hara yönəltsən, yenə də QMİ-nin gəlirlərinə ciddi təsir edəcək.

Şeyx “onun işlərinə qarışılmasını” sevmir və illərdir ki, xüsusilə Dini Komitə ilə bu cür məsələlərdə toqquşur. Məlumata görə, şeyx budəfəki “küləyin” də qarşısını kəsmək üçün bütün resurslarını işə salıb və hələ ki müqavimət göstərir. Amma hökumət də bu məsələdə israrlı görünür və geri çəkilmək fikrində deyil.

**“Xeyir və şər mərasimləri” davasında sonda kimin qalib gələcəyini demək isə çətindir...**

❑ **Xəbər xidməti**

# Yas mərasimlərinə qoyulan qadağalar yalnız rayonlar üçündür?

## “Təzəpir” məscidində təmtəraqlı yas məclisləri davam edir; “Əgər biz razı olmasaq, restoranda yas keçirəcəklər”




**Sentyabrın 1-dən etibarən bütün ölkədə yas mərasimlərində dəbdəbəli ehsan süfrələrinin açılmasına yol verilmir, bu məsələyə ciddi nəzarət edilir. Bir çox hallarda polis, icra nümayəndəlikləri, bələdiyyələr də məsələyə müdaxilə edir. Vətəndaşlara hətta zor tətbiq edilməsi, ehsan süfrələrinin zorla yığışdırılması halları da baş verir.**

Qafqaz Müsəlmanları İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və hökuməti təmsil edən bir neçə məmur isə belə bir qadağanın olmadığını deyirlər. Onlar bildirir ki, bu məsələdə heç bir qadağadan söhbət gedə bilməz, bununla bağlı yalnız tövsiyə xarakterli xəbərdarlıq ola bilər.

Hazırda Bakıda və regionlarda yas mərasimlərində ehsan verilməsi birmənalı şəkildə qadağan edilib. Yerli icra hakimiyyətləri bu qadağaları fərqli şəkildə tətbiq edirlər.

Bəziləri yas yerinə gələrək orada olan yeməkləri aparırlar, bəziləri isə öncədən yemək hazırlanmasının qarşısını alırlar. Bəzi yerlərdə halvaya icazə verilir, bəzilərində isə yox. Ümumilikdə bu “tövsiyə”nin tətbiqi yaman baş ağrıdır. Çünki hər rayonun icra hakimiyyəti özü istədiyi kimi qərar verir. Bu da haqlı narazılıqlara səbəb olur.

Bu qadağalar əsasən yas çadırlarında sərt şəkildə tətbiq edilir. Məhəllələrdə, yollarda, küçələrdə qurulan çadırlarda ehsan verilməsinin qarşısı müxtəlif metodlarla alınır. Mərasim zalları isə hələlik bu qadağalardan öz payını almayıb. Bunlardan biri də "Təzəpir" məscididir.

Adıçəkilən məscidin mərasim zalında olduq. İçəri girərkən artıq müxtəlif yeməklərin qoxusu hiss olunurdu. İkinci mərtəbəyə qalxdığımızda mərasim zalındakı masaların üzərindəki nemətləri gördük. Çünki heç bir dəyişiklik yox idi. Ya bu tövsiyə xəbəri bura gəlib çatmamışdı, ya da tövsiyə bunlara aid deyildi.

Masaların üzərində halva, üzüm, müxtəlif növ meyvələr, müxtəlif növ ləpələr, şirniyyatlar, sular var idi. Yeməkxanada plov bişirilirdi. Şəkil çəkdiyimiz zaman çalışanlardan bir neçəsi bizə yaxınlaşaraq foto çəkməyimizə mane oldular. Və bizi zaldan çıxararaq qapını bağladılar. Bir müddət sonra mərasim zalının administratoru bizə yaxınlaşdı.

**"Təzəpir" məscidinin administratoru Mahir Məmmədov musavat.com-a açıqlamasında bildirdi ki, bu tövsiyədən xəbərdarlar:** “Adət və ənənə var. Yas sahibi halva verməlidir. Bu, illərdir belədir. Qanundan bizim də xəbərimiz var. Amma bu, tövsiyə xarakteri daşıyır. Biz bunu indi yox, 2009-cu ildən tövsiyə edirik. Hər zaman yas sahibinə deyirik ki, israfçılıq etməsin. Amma zorla buna mane ola bilmərik. Yas sahibləri deyirlər ki, uzaqdan qonaqları gələcək, onları öz evlərində qarşılamaq üçün şəraitləri yoxdur. Onlara yemək verilməlidir. Əgər biz razı olmasaq restoranda yas keçirəcəklər. Bu daha çox israf olacaq”.

***- Bu, tövsiyə xarakteri daşısa da, bir çox yerlərdə, əsasən də rayonlarda tövsiyə etmirlər. Əksinə, zorla yeməkləri götürüb aparırlar. Öncədən mane olurlar. Bəs sizə bu haqda bir söz deyən olubmu?***

- Xeyr. Bizə bir söz deyən olmayıb. Kiminsə yas mərasiminə qarışmağa ixtiyarı yoxdur. Bunu ancaq yas sahibi edə bilər. Hər şey yas sahibindən asılıdır. Kimsə onu nəyəsə məcbur edə bilməz.



Çox maraqlıdır. Rayon icra hakimiyyətləri və yerli polis bütün yas mərasimlərinə ciddi nəzarət edir. İcra hakimiyyətlərinin nümayəndələri yas mərasimləri olan evlərə əvvəlcədən baş çəkərək qoyulan qadağa ilə bağlı xəbərdarlıq edirlər. Daha sonra polis əməkdaşları mərasimlərə gələrək qadağalara əməl edilib-edilmədiyinə nəzarət edir. İcra nümayəndələri mərasimlərin sadə şəkildə keçirilməsi ilə bağlı tapşırıqların dövlət tərəfindən qoyulduğunu bildirərək hər kəsin bu qadağalara qeyd-şərtsiz əməl etməli olduğunu bildirir. Bəzən də zor tətbiq edirlər. Amma bu, Bakı üçün keçərli deyil. Görünən budur ki, bu “tövsiyə” rayonlar və kəndlər üçün nəzərdə tutulub.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 234 (5943) 19 sentyabr 2014

# Yeni başqanın dönəmində Müsavat hakimiyyətlə əməkdaşlıq edəcək?

**"Müsavat Partiyası İsa Qəmbərin ətrafında və liderliyində yaranıb. Ona ciddi alternativ yoxdur ki, cəmiyyət qəbul eləsin. O gedəndən sonra Müsavat Partiyasını diriltmək çətin olacaq".**

Bu sözləri publika.az-a müsahibəsində Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, deputat **Qüdrət Həsənquliyev** bildirib.

Q.Həsənquliyev deyib ki, ümumiyyətlə, ölkədə siyasi mədəniyyət arzuladığımız səviyyədə deyil:

"Bu baxımdan Müsavatdakı proseslər ağrılı keçəcək. Kim seçiləcəksə, o da iqtidarla yaxından əməkdaşlıq edəcək. Artıq İsa Qəmbərin AXCP ilə girdiyi radikallıq yarışına da son qoyulacaq. Kimin başqan seçilməsindən asılı olmayaraq iqtidarla Müsavat əməkdaşlıq edəcək. Düşünürəm ki, real namizədlər iqtidara bağlı adamlardır və bu baxımdan iqtidar bir neçə kartla oynayır. Kim başqan seçilsə, iqtidarla sıx əməkdaşlıq şəraitində öz mövcudluğunu qoruyub saxlayacaq".

Q.Həsənquliyevin dediklərinə Müsavat başqanlığına namizədlərin münasibətini öyrəndik.

**Arif Hacılı bildirdi ki, Müsavat Partiyası ümummilli məsələlərdə Azərbaycanın siyasi qüvvələri arasında fərq qoymur və bu baxımdan Müsavat Partiyası öz siyasətini həm də Azərbaycan hakimiyyətinə aid olan hissəsində də bundan sonra da davam etdirmək niyyətindədir:** "Biz bir daha qeyd edirəm ki, Azərbaycan cəmiyyətinin, Azərbaycanda demokratiyanın inkişafı, Qarabağ məsələsi, insan haqları ilə bağlı və digər ümummilli məsələlərdə bütün siyasi qüvvələrlə daim əməkdaşlığa hazır olmuşuq. Bundan sonra da hazır olacağıq. Hakimiyyətə bağlılıq iddiasına gəlincə, Müsavat Partiyası Azərbaycanın ana müxalifət partiyasıdır. Müsavat Partiyasının öz müxalifət mövqeyini dəyişdirməsi üçün heç bir əsas yoxdur. Müsavatın ideoloji, siyasi xəttini Müsavat Partiyasının seçkili orqanları müəyyən edir, Müsavat Partiyası oturuşmuş bir partiyadır, hər hansı bir siyasi kampaniya dövrü üçün yaranmış partiya deyil. O baxımdan Müsavat Partiyasının siyasətində yalnız başqan dəyişikliyi ilə hansısa həlledici dəyişikliklərin olacağını iddia etmək yanlışdır. Çünki Müsavat Partiyası onun rəhbər strukturlarının qəbul etdiyi qərarlar əsasında idarə olunur. Müsavat Partiyasının idarə olunması onun başqanının təkbaşına iradəsindən asılı deyil".

**Qubad İbadoğlu isə dedi ki, Qüdrət Həsənquliyevin həmin fikirləri Müsavat Partiyasının qurultayının üzərinə kölgə salmaq məqsədilə işlədilmiş fikirlərdir:** "İnşallah, başqan seçiləndən sonra göstərəcəyik Müsavat Partiyası ilə digər partiyaların fərqini və eyni zamanda Müsavat Partiyasının kursunun fərqini".

**Tural Abbaslı isə Q.Həsənquliyevə daha sərt cavab verdi:** "Qüdrət Həsənquliyev hər şeyi öz arşını ilə ölçür. Yəqin öz partiyasının mövcudluğunu qorumaq üçün hakimiyyətlə əməkdaşlıqdadır. Ona görə də ona ilə gəlir ki, hansısa partiya mövcudluğunu qorumaq üçün mütləq iqtidarla işbirliyində olmalıdır. Müsavat Partiyası bərpa olunandan indiyə qədər iqtidarla, hansısa iqtidar təmsilçisi ilə nə gizli əməkdaşlığa,



**Arif Hacılı:** "Müsavat Partiyasının idarə olunması onun başqanının təkbaşına iradəsindən asılı deyil"



**Qubad İbadoğlu:** "Başqan seçiləndən sonra göstərəcəyik Müsavatla digər partiyaların fərqini"



**Tural Abbaslı:** "Müsavat Partiyasında hakimiyyətlə bağlı olan insan başqanlığa namizəd belə ola bilməz"



**Səxavət Əlisoy:** "Hesab etmirəm ki, Müsavat Partiyası nə vaxtsa cib müxalifətinə çevriləcəkdir"

nə də sövdələşmələrə gedib. Bundan sonra da Müsavat xalqın, dövlətin maraqlarının əleyhinə heç kimlə əməkdaşlığa, sövdələşmələrə getməyəcək. Hakimiyyətin ümummilli məsələlərlə bağlı dialoq dəvəti olarsa açıq dialoqa gedilə bilər. Namizədlərin hakimiyyətlə bağlılığı haqda ittihama gəldikdə, Qüdrət bəy bu ittihamı da öz şəxsi təcrübəsinə əsaslanıb səsləndirib. Müsavat Partiyasında hakimiyyətlə bağlı olan insan başqanlığa namizəd belə ola bilməz. Mən başqanlığa namizədlərin hamısının təmizliyinə, əsl müxalifətçiliyinə tam inanıram. Bizim heç birimizin iqtidarla bağlılığımız yoxdur, ola da bilməz. Bəzi yanlış fikirlər yayılır ki, başqan yeni şəxs olanda hər şey kardinal dəyişə bilər. Müsavat Partiyasını başqan təkbaşına idarə etmir, partiyanı rəhbər strukturlar idarə edir, başqanın səlahiyyəti hüdudsuz deyil, partiya kollegial idarə olunur. Qüdrət bəyə tövsiyəm odur ki, getsin özünün dərnəyinin qayğısına qalsın və hakimiyyətlə hansı formada istəyir əməkdaşlığını davam etdirsin".

**Səxavət Əlisoy bildirdi ki, Azərbaycanda fəaliyyət göstərən partiyaların hər biri ümummilli məsələlərdə hakimiyyətlə əməkdaşlıq etməlidir:** "Məsələn, Qarabağ məsələsində, milli təhlükəsizlik məsələlərində hər bir partiya iqtidarla əməkdaşlıq etməlidir. Buna başqa məna verməyə əsas görmürəm. Başqa məsələlərdə iqtidarla əməkdaşlığı isə onun cib müxalifəti yaxşı bilir. Mən hesab etmirəm ki, Müsavat Partiyası nə vaxtsa cib müxalifətinə çevriləcəkdir. Çünki bu, Müsavatın məhvi demək olar. Namizədlərin iqtidarla bağlı olması barədə deyilən fikrə gəlincə, bu bir ittihamdır və ona görə də bu ittihamı irəli sürən gərək sübut göstərsin. Öz adımdan deyə bilərəm ki, mənim iqtidarla heç bir bağlılığım yoxdur. Mənim iqtidarla bağlı olmağımı sübut eləyən bircə dənə fakt qoysalar mən siyasətdən gedərəm".

❑ **Etibar SEYİDAĞA**

# Sərdar Cəlaloğlu "Vasif Talıbov" modelinə üsyan etdi

## ADP sədri: "Siyavuş Novruzov, sən kimsən toyu, ehsanı qadağan edirsən?"

**YAP-çı deputat Siyavuş Novruzov yas məclislərində ehsan qaydalarına edilən tövsiyələrlə bağlı maraqlı bir çıxış edib. Deputat deyib ki, bu, əslində Naxçıvan modelidir: "Bu modeldə bir dənə də olsun rəsmi qanunla heç nə qadağan olunmayıb. Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov əziz adamının yasında deyib ki, süfrəyə ancaq bu ərzaqlar verilməlidir və bu müddətdə olmalıdır. Üç-dörd il əvvəl Vasif müəllim bunu özündən tətbiq edib. Bundan sonra demək olar ki, Naxçıvanın bütün kəndlərində bu, könüllü olaraq tətbiq edildi. Bu həm də Vasif Talıbov modeli idi".**

S.Novruzov qeyd edib ki, V.Talıbov modelini indi bütün Azərbaycanda tətbiq etmək istəyirlər. Söhbət yas mərasimlərində ehsan süfrəsinə yalnız çay, qənd, xurma və limon qoyulmasından gedir.

İsrafçılığa qarşı bu tövsiyələr isə cəmiyyətdə ikitirəlik yaradıb.

O cümlədən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) fikir ayrı-seçkiliyi müşahidə olunur. Ancaq sadə vətəndaşlar "Talıbov modeli"nin tətbiqini təqdir edirlər. Bəs siyasətçilər Naxçıvan rəhbərinin bu addımına respublika üzrə şamil olunmasına nə deyirlər?

**Naxçıvandan olan siyasətçi, ADP sədri Sərdar Cəlaloğlu "Talıbov modeli"nə üsyan etdi. ADP lideri adət-ənənələrə inzibati yollarla müdaxiləni yolverilməz adlandırdı. S.Cəlaloğlu qəzetimizə açıqlamasında qeyd etdi ki, kimsə xalqın adətləri ilə bağlı qərar verə bilməz:** "Makiavelli yazıb ki, bir xalqı məhv etmək istəyirsənsə onun adətlərini dəyişdir. Min illiklərdir ki, bu adət-ənənələr sınaqdan keçirilib. Sovet vaxtı yas, toy adətləri qadağan edilirdi. Hətta bir raykom katibini sünnət toyunda iştirak etdiyi üçün müzakirəyə çıxarıb, işdən qovmuşdular. Azərbaycanın adət-ənənələrini müdafiə edən Şıxəli Qurbanov idi ki, onu da öldürdülər. İndi hakimiyyətin toy və yas mərasimləri ilə bağlı siyasətinə də korrupsiya və totalitar nəzarət kontekstindən baxmaq lazımdır".

**Onun sözlərinə görə, inzibati müdaxilələr vətəndaşlara qarşı deyil, toy və yas mafiyalarına yönəlik olmalıdır:** "Mən də övladıma toy etmişəm. Şadlıq evində menyu sifariş etməyə icazə verilmir. Süfrəyə gətirilən içkilərin, yeməklərin istifadəsindən asılı olmayaraq pulu məndən çıxır. Mən viski, konyak istəmədim, dedilər olmalıdır.

Heç kəs də o konyakı içmədi, xərci mənim cibimdən çıxdı. Elə toy var bəy və gəlini girov saxlayıb, pul tələb edirlər. Toylarda standart menyu niyə olmalıdır? Mən İngiltərədə, Norveçdə toyda olmuşam, almanların toyunu görmüşəm.

Onlar da yeyib-içirlər. Bunu qadağan etmək olmaz. Sadəcə, qonağın sifarişi əsasında süfrəyə yemək gətirilir. Hakimiyyət bunu qadağan etməlidir. Yoxsa sən kimsən ki, ehsanı qadağan edirsən? Peyğəmbərin hədislərində də ehsanla bağlı göstəricilər var. Yoxsa Siyavuş Novruzov, sən kimsən toyu, ehsanı qadağan edirsən?"

**S.Cəlaloğlu qeyd etdi ki, bu məsələdə söhbət xalqın adət-ənənələrinin məhdudlaşdırılması, total nəzarətə gətirülməsindən gedir:** "Sabah deyəcəklər ki, ilk gecəni də nəzarətə alacağıq. Rusiyada təhkimçilik dövründə belə olub. Özləri dəbdəbəli doğum günləri təşkil edirlər, Ledi Qaqanı, nə bilim milyonlarla qiyməti olan müğənniləri gətirirlər. Ancaq kimsə toyunda camış kəsdirib vermək istəyir, qoymursan.



Sərdar Cəlaloğlu

> **"İnzibati müdaxilələr vətəndaşlara qarşı deyil, toy və yas mafiyalarına yönəlik olmalıdır"**

Əgər israfçılığa qarşı mübarizə tədbirləridirsə, onda restoran müdirinə, yası təşkil edən çadır mafiyasına desin ki, standart menyu olmamalıdır. Vətəndaşın nə günahı var? Kim axmaqdır ki, yemədiyi çörəyin pulunu xərcləsin? Bütün bunlar oyunbazlıqdı, xalqımızın adət-ənənələrini məhv etmək istəyidir.

Elə yas var, ölü yiyəsinin heç qənd qoymağa gücü çatmır. Onu kimsə məcbur etmir ki? Kimin nəyə gücü çatır onu verir".

**ADP sədri deyir ki, yas mərasimlərini təşkil edən mafiya öz qiymətini vətəndaşa diktə edir:** ""Təzəpir"də ehsan verəndə, deyirlər ki, menyu budur. Ona qarşı inzibati yolla mübarizə apar, restoranlara göstəriş ver, vətəndaşın sifarişi əsasında menyu olsun. Xalqın kimliyi ilə oynamaq olmaz. Dini ayinlər dinlə tənzimlənir, Siyavuş Novruzovla yox. Deyəcəklər ki, xına da qoymasınlar. Ondan danışsınlar ki, vətəndaş yazıq toy etməyə pul tapmır. Müsəlmançılığa görə ehsan vacibdir. Burda körpü salmaq, bulaq tikmək, fatihə oxumaq da ehsandır. Mütləq ehsan verilməlidir. Sadəcə, imkanlara, dövr və şəraitə uyğun ehsan verilir. Heç kəsi ehsan verməyə məcbur etmirlər".

❑ **E.SALAMOĞLU**

# "Mən bütün sahələrdə uduzmuş bir adamam"

## Tahir Kərimli: "Düşünürdüm ki, 25 ilə Azərbaycanda "Göyçək Fatma" timsalında gözəl ölkə quracağıq"

**İstiqlalçı deputat, Vəhdət Partiyasının sədri Tahir Kərimli uzun fasilədən sonra müxalifətin keçirdiyi tədbirə qatıldı, tribunadan çıxış etdi, tənqid söylədi, əvəzində özü də tənqidə məruz qaldı. Bir neçə ildir iqtidarın siyasi kursuna sadiq olacağını bəyan edən partiya sədrinin keçmiş silahdaşları ilə bir araya gəlib ölkədə demokratiyanın vəziyyəti haqda fikir mübadiləsi aparması maraqlı situasiya idi. Elə Vəhdət sədri ilə söhbətimizi zəruri edən də bu oldu.**

***- Tahir bəy, uzun illər müxalifəti təmsil etsəniz də sonradan siyasi kursunuzun dəyişdiyini bəyan etmisiniz. Müxalifətin demokratiyanın vəziyyətinə dair tədbirinə gedərkən qərarınızı ölçüb-biçmişdiniz?***

- Əvvəla, həmin müxalifətlə biz hakimiyyətdə də olmuşuq, müxalifət kimi uzun illər birgə yol gəlmişik. Tədbirin aparıcısı Mirmahmud bəy idi, mənə zəng elədi, ona böyük hörmətim var. Həmçinin orda iştirak edənlərə. Eyni zamanda ora iqtidaryönlü-müxalifətyönlü bütün partiyalar dəvət olunmuşdu. Mən hesab edirəm ki, mümkün qədər tədbirlərdə iştirak etmək lazımdır. Hamı dərk etməlidir ki, bu, bir tədbirdir. Müxalifətin böyük bir qisminin, aktiv zümrənin tədbiri idi. Bu, tək müxalifət cəbhəsində deyil, Azərbaycanda bir hadisədir. Bu hadisədə də öz sözünü demək, başqalarını dinləmək faydalı olar. Partiyada da müzakirə etdik, getmək qərarını verdik, çıxış da etdim. Mətbuatda yazılanlardan fərqli olaraq, məncə, müzakirələr səmimi getdi. Qəzetdə oxuyuram ki, guya nəsə dava-dalaş olub. Hər kəs öz sözünü dedi. Sonda da Mirmahmud bəy, İsa bəy iştirakıma görə mənə təşəkkür etdilər. Hər halda, düzgün eləmişəm, getmişəm. Ayrılanda da səmimi ayrıldıq.

***- Müxalifətlə bağlı tənqidləriniz birmənalı qarşılanmadı. Siz doğrudanmı mövcud vəziyyətə görə günahların hamısının müxalifətdə olduğunu, iqtidarın suçsuz olduğunu zənn edirsiniz?***

- Yadımızdan çıxartmayaq ki, biz hakimiyyətdə olanda da indiki hakimiyyətin nümayəndələri müxalifətdə idi və onlar da eyni sözləri, məsələn, demokratiyanın olmadığını deyirdilər. Yəni təkcə nöqsanların deyilməsi heç də demokratiyanın tətbiqi deyil. Problemlərin deyilməsinə etirazım yoxdur, bu, doğrudur. Ancaq bu etirazların, problemlərin müraciət ünvanını o qədər düzgün hesab etmirəm. Ona görə mən orda tövsiyə etdim ki, gedib səfirlərə şikayət edəndə iqtidardan daha aqressiv reaksiya gəlir. Elə bu problemlərin həlli də iqtidarın əlindədir. Qarabağ məsələsindən tutmuş insan haqlarına qədər. Azərbaycanda icra hakimiyyətinin, parlamentin, məhkəmə hakimiyyətinin rəhbərliyi var. Mən də tövsiyə etdim ki, qərarlardan biri bu barədə olsun, rəhbərlik səviyyəsində nümayəndə heyəti ayrılsın və birbaşa iqtidarla təmasa gedilsin, çünki bu məsələlər yalnız belə həll oluna bilər.

***- Fikirlərinizdə müəyyən mənada məntiq var. Amma siz özünüz uzun illərdir iqtidarın siyasi kursunu müdafiə etsəniz də, hakimiyyət tərəfindən isti münasibətlə qarşılanmayıbsınız. Odur ki, müxalifətin hansısa müraciəti vəziyyətin dəyişməsinə təkan verə bilərmi?***

- Əvvəla, mən çıxışa başlayanda ola bilər ki, mənfi fikirlər var idi. Amma sonda zalın alqışlamağı, İsa bəyin reaksiyası göstərdi ki, mənim çıxışımda sizin sözünüzün qüvvəti, bir məntiq var. Yəni müxalifət əvvəlki, hakimiyyətə gələcək gücdə deyil, təşkilati cəhətdən xeyli zəifləyib. İqtidar isə öz iqtidarlığını çox möhkəmləndirib. Belə olan halda problemlərin həlli ondadır. Mən bunu da müsbət qarşılayıram ki, İsa bəy də yekun çıxışında dialoqa hazır olduğunu bəyan etdi. Birinci dialoq təklifi də Sərdar Cəlaloğlu tərəfindən irəli sürülmüşdü. Mən isə hesab edirəm ki, bu, klassik dialoq formasında olmamalıdır. Hansısa nümayəndə heyəti getməli, yaxud 3-5 dəfə müraciət etməlidir. Mənə elə gəlir ki, hakimiyyətin müəyyən zümrəsi bu görüşləri müsbət qarşılayacaq. Xaricə müraciətlər edəndə iqtidarda daha mənfi münasibət yaranır.

Yaxud müxalifətdə çoxlu mütəxəssislər var. Bu mütəxəssisləri təqdim etmək lazımdır. Tutaq ki, baş nazirin qəbuluna gedib danışmaq olar ki, bu insanlar on illərdir niyə passiv qalmalıdır, niyə ölkənin inkişafında iştirak etməməlidir? O insanları hansısa işə qoymaqla müxalifət öz mövqeyini də möhkəmləndirə bilər.

***- Yəni siz əminsinizmi ki, hakimiyyət hansısa müxalifətçiyə inanıb ondan kadr kimi istifadə edə bilər?***

- Əgər iqtidar düşünsə ki, müxalifət aqressiv və antikonstitusion mövqedən deyil, demokratik üsullarla hakimiyyətlə danışığa gedir, bu təkliflərlə razılaşar.

### "Siyasətdə əqidə kifayət etmirmiş"

***- Siz özünüz hakimiyyətə dialoqla bağlı müraciətlərinizdə istəyinizə nail olmusunuzmu? Yaxud Sərdar Cəlaloğlu, Çingiz Dəmiroğlunun hakimiyyətə mesajları, çağırışları olub. Lakin heç bir nəticə olmayıb. Konkret sizə hansı iş təklif olunub?***

- Mən axı iş istəməmişəm ki, təklif olunsun. Bir də ki, mən müxalifətlə iqtidarın dialoqunu təklif edirəm, ayrı-ayrı partiyaların deyil. Artıq müxalifətlərin birlikləri yaranır, o birliklər müraciət etməlidir. İndiki halda müxalifət birliyi bir mərkəz yaradıb, bu mərkəzlə iqtidarın müəyyən qolları arasında danışıq aparmaq olar. Hər halda, qarşı tərəf müxalifətdən hörmət görəndə ona adekvat reaksiya verməlidir. Əgər başqa cür olsa, təbii ki, cəmiyyətin qınağı olacaq. Ona görə də müxalifət güc mərkəzi kimi mövqeyini ortaya qoymalıdır. Bir partiya nə qədər güclü olsa da, danışıqlara gedəndə qınanılacaq. Necə ki, mən onların üzünə qınadım ki, 1995, 2000, 2005-ci illərdə separat danışıqlara gedib hərəniz 5 deputatla parlamentdə təmsil olunub hakimiyyətə legitimlik qazandırdınız. O vaxt mən bu məsələləri aqressiv qarşılayırdım.

### "Əlacsızlıqdan partiya sədriyəm, ayrı nə işlə məşğul olum, neyləyim?"

***- Sizin özünüzü də hakimiyyətə münasibətə görə kifayət qədər qınayanlar var, etiraf da edibsiniz...***

- Bəli, məni də qınayırlar. Amma müxalifət birlikdə bu addımı atsa...Açıq deyək, müxalifətin hakimiyyətə gəlməyə gücü yoxdur. Belə olan təqdirdə dialoqa, danışıqlara gedilməlidir.

***- Səmimi desəniz, özünüz üçün ayırd edibsinizmi ki, siz hansı düşərgədə təmsil olunursunuz?***

- Mən bu söhbətlərdən çox pis oluram. Tədbirdə də dedilər ki, iqtidarın adından danışırsan. İqtidar mənə deyər ki, biz səni ora göndərmişdik ki, bizim adımızdan danışırsan? Mən iqtidarın adından danışmıram, öz adımdan danışıram. İsa bəyin də sualına cavab verdim. Vəhdət Partiyası öz yerindədir. Əvvəlkindən fərqli olaraq düzə düz, yalana yalan deyir. Müxalifətin də zəif, nöqsanlı tərəflərini deyir, iqtidarın da.

***- Yəni mərkəzçi partiyasınız?***

- Bəli. Mən öz şəxsi təcrübəmdən, partiya təcrübəmdən belə görürəm ki, bu cür alınmır, müxalifət inkişaf edə bilmir. İndiki müxalifət 90-cı illərdə hakimiyyəti uduzmuş və son 20 ildə qalib gəlməyən müxalifətdir, bunu etiraf etmək lazımdır.

***- Tahir bəy, siyasətdən getmək barədə düşünmürsünüz?***

- (Dərindən ah çəkir) Açıq deyim, əlacım olsaydı, çoxdan gedərdim. Əvvəla, siyasətə gəlməyimə də çox peşman olmuşam. Ona görə yox ki, imkanlarımı, vəzifəmi itirmişəm, ailəmizdən şəhid vermişik, bunlar müstəqilliyimiz, Qarabağımız uğrunda olan itkilərdir. Mənim peşmançılığım başqa şeylə bağlıdır. Mən heç vaxt ağlıma gətirə bilməzdim ki, siyasət bu qədər əqidələrin, ideologiyaların qalib gələ bilmədiyi, ancaq praqmatizmin qalib gəldiyi sahədir. Açığı, mən bu qədər bilmirdim. Keçmişdə əqidə gözümü çox tutub. Biz nə qədər əqidə ilə baxmışıq və uduzmuşuq. Deməli, siyasətdə əqidə kifayət etmirmiş. Mən isə düşünürdüm ki, 25 ilə Azərbaycanda "Göyçək Fatma" timsalında gözəl ölkə quracağıq. Ona görə də min canımın birini də özümə saxlamayıb Azərbaycana qurban verməyə hazır idim. Ancaq alınmadı, alınmır da...

### "Ailə, övlad, yaxın hamı məni günahlandırır ki, sən bizi yaman günə qoydun, bizə bir gün ağlamadın"

***- Bu qədər pessimizmdən sonra partiyanı gənc nəslə həvalə etməyi düşünmürsünüz ki?***

- Vallah bu haqda da çox düşünürəm. Ancaq partiya məni də buraxmaq istəmir. Özüm də başqa yol, ayrı çarə tapmıram. Yaxşı, onda nə işlə məşğul olum. Bilmirəm. Bəlkə də əlacsızlıqdan partiya sədriyəm. Mən ayrı nə işlə məşğul olum, neyləyim? Açığını deyirəm, indi yenə bəziləri düşəcək üstümə. Mən bütün sahələrdə uduzmuş bir adamam. Ailə, övlad, yaxın hamı məni günahlandırır ki, sən bizi yaman günə qoydun, bizə bir gün ağlamadın. Elə vəziyyətə düşmüşəm ki... O vaxt AXC-nin yolunu tutduğuma görə öz zonamızda məni qınadılar ki, özününkünü, öz şirvanlını qoyub naxçıvanlını müdafiə etdin, belə düşmən oldum. Sonra AXC hakimiyyətində təmsil olundum, bu dəfə dedilər düşmüsən Əbülfəz bəyin üstünə, bunlar düşmən oldu. Ardınca müxalifətdən ayrıldım, indi müxalifət düşmən oldu mənə. Açığını deyim ki, hədsiz pessimistəm, baxmayaraq ki, bu, dini cəhətdən düzgün deyil.

***- İsa Qəmbərin başqanlıqdan getməklə bağlı qərarını necə qarşılayırsınız?***

- Çox müsbət, düzgün qarşılayıram. Onsuz da İsa bəyin qalmağı Müsavata o dərəcədə divident gətirməzdi. Çünki ən azı nizamnaməni dəyişmək zərurəti ortaya çıxacaqdı ki, bu da ittihamlara səbəb olacaqdı. Onsuz da İsa bəyin şəxsi nüfuzu ilə partiya qərarlarına təsir etmək imkanları var. İsa bəyin getməsi müsbət haldır və yeni ab-hava gəlməlidir.

***- Yeni başqanın kim olmasını istərdiniz?***

- Bu, Müsavatın daxili işidir. Namizədlərdən Səxavət Əlisoy mübariz, Tural Abbaslı gənc, temperamentlidir, ancaq mübarizə Arif Hacılı ilə Qubad İbadoğlu arasında olmalıdır. Burada da bir çətinlik var. Arif Hacılı təşkilatçılıq baxımından daha güclüdür, Müsavatın çağdaş tarixində böyük əmək sərf edib, ancaq o, uduzmuş hakimiyyətin və qalib gələ bilməyən müxalifətin siyasi kursunun davamçısıdır. Partiya daxilində də çoxları yeni nəfəs, yeni obraz istəyir. Bu da Qubad İbadoğlunun mövqelərini möhkəmləndirir. Məncə, mübarizə bunların arasında gedəcək.

***- Sizin hakimiyyətlə sonuncu dəfə təmaslarınız nə vaxt olub?***

- Ancaq dövlət bayramlarında olur. Cənab prezident tərəfindən 28 May bayramına dəvət olunuram, sağ olsun, qiymət qoyur. Qalan hallarda təmasım olmur. Çox nadir hallarda... Bu yaxınlarda Sosial Müdafiə Fondu bizi hədələyib ki, cərimə edəcəyik, siz işçilərinizlə əmək müqavilələri bağlamalısınız. Biz də deyirik ki, axı bizdə maaş yoxdur. Bununla əlaqədar hakimiyyət nümayəndələri ilə təmaslarımız olub ki, biz nə edək, maaş almadığımız halda bizi cərimə edirlər?

***- Yenə əvvəlki ofisdə yerləşirsiniz?***

- Bəli, icarəyə götürdüyümüz ünvandır. Onların da texniki avadanlıqlarından istifadə edirik. Çünki mənim şəxsi eynəyimdən, kreslomdan tutmuş seyfimə, sənədlərimizə kimi nə var idisə, 4 ildir artıqdır bizdə deyil, aparıb qaytarmayıblar. Hələ bu barədə qəzetə məlumat verəndən sonra məni ittiham etdilər ki, Tahir acizlik edir. Lakin dəfələrlə dövlət orqanlarına müraciət etmişəm, nəticə yoxdur...

❑ **Elşad PAŞASOY**





# Cəlladın bərbərxana açması

Zamin HACI
zaminhaci@gmail.com

*"Nə əcayib sürü, yahu, bunlar,*
*Öndə rəhbərlik edər meymunlar.*
*Rəqsi təlim ediyor axsaqlar,*
*Əzəmət düşkünüdür alçaqlar"*

***(Hüseyn Cavid)***

**Azərbaycan zindanlarında məhbuslara işgəncə verilir, bu heç kimə sirr deyil. Döymək, elektrik işığı və səslə bezdirmək, ac qoymaq və sair zorakılıq üsulları bizim cəzaçəkmə müəssisələrində geniş yayılmışdır. Təzəlikcə Leyla Yunusun Kürdəxanı türməsində döyülməsi, təhqir etdirilməsi növbəti faktdır, onun vəkilləri də təsdiqləyiblər.**

Birləşmiş Millətlər Təşkilatının (BMT) işgəncələrə qarşı komitəsi var, onlar uyğun konvensiyanı imzalamış dövlətlərdə bütün türmələrə maneəsiz girmək hüququna malikdir. Azərbaycan da bu konvensiyanı yalandan imzalayıb, ancaq BMT ekspertlərinə, müşahidəçilərinə türmələrdə monitorinq aparmağa icazə vermirlər. Ən son bu tip biabırçılıq bu ay - 14 sentyabrda baş verdi. BMT işgəncələr əleyhinə komitəsinin müşahidəçiləri Azərbaycan səfərlərini yarımçıq qoyub getməyə məcbur oldular. Çünki yapistlər onların türmələrdə vəziyyəti araşdırmasına mane oldular. Qoy zindanbaşı Mədət Quliyev və onun təzə mətbuat katibi, NKVD əməkdaşlarına oxşayan Yaşar İsakov buna izahat versinlər. Hər gün yalandan-palandan "bizdə türmələrdə super şərait yaradılıb" mızıldanmaqla deyil ki? Ayıbınız yox idisə, müşahidəçiləri türmələrə buraxaydınız.

Bunu həm də Kəlbəcərdə əsir düşən soydaşlarımız Dilqəm bəyin və Şahbaz bəyin Qırmızı Xaç vasitəsi ilə gətirilən yeni fotolarına görə yazıram. Həmin fotolardan əsir qardaşlarımızın 3 ay ərzində çox sınıxdıqları, zülm çəkdikləri aydın görünür, adamın ürəyi ağrıyır, ancaq neyləyə bilərsən ki? Səni dünyanın harasında olursan-ol, hansı dərdə düşürsən düş - fikirləşən bir dövlətin yoxdur. Ancaq qeyri-insani rəftarla Kürdəxanıda, Güzdəkdə üzləşən dustaqların niyə fotoları yoxdur? Qoy Qırmızı Xaç onların da fotosunu ailəsinə gətirsin. Yoxsa absurd mənzərədir: sən məhkəmədə yapizm əsirlərinin şəklini çəkə bilmirsən, beynəlxalq humanitar qurum isə erməni əsirliyindəki qardaşının şəklini gətirir.

Dərd bununla bitmir. Ən böyük faciələrdən birisi dünyanın başqa bir işgəncə əleyhinə qurumuna... yapistin başçılıq etməsidir. Hardasa 4 ilə yaxındır Avropa Şurasının anti-işgəncə komitəsinə deputatxana əməkdaşımız Lətif Hüseynov başçıdır. Təzəlikcə, 3-4 gün qabaq Lətif əkə Ukraynadan qayıdıb, bizim gülməşəkər agentliklərə açıqlama veriri ki, Donetsk vilayətində dustaqların, əsirlərin-filanın işgəncə ilə üzləşib-üzləşmədiyini araşdırdıq, nəticələri Ukrayna hökumətinə bildirdik və sair.

Belə yerdə "özünə umac ova bilmir, başqasına əriştə kəsir" məsəli yada düşür. Təsəvvür edin, dünya yaranandan bəlkə bu cür həyasızlıq olmamışdı ki, öz ölkəsində insanlara işgəncə verən bir sistem başqa ölkələrdə işgəncəyə qarşı guya monitorinq, mübarizə aparsın. Ona görə də xiyar əyri bitir. Ona görə də dünyada Avropa dəyərləri, insan hüquqları, konvensiyalar aşınır, dağılır, zibilə dönür. Putin kimi faşistlərə qol-qanad verən bu cür hallardır. Ya da bəlkə bu cür hallar Putin kimilərin artmasından qanadlanır. "Toyuq, yoxsa yumurta əvvəl yaranıb" misalındakı kimi, biz tam əminliklə deyə də bilmərik, misal üçün, Azərbaycan rejimi Avropa Şurasına üzv olandan sonra pozulub, ya Avropa Şurası bizim ora üzvlüyümüzdən sonra korlanıb. Hər iki halı isbat etməyə çoxlu dəlillər saymaq olar.

Bütün hallarda, hər bir insanın vicdanı olmalıdır, onun qarşısında hesabat verməlidir. İnsanı başqa heyvanlardan fərqləndirən həm də vicdanıdır. Belə vicdanlı insanlardan biri İsmayıllı polis idarəsində işləyirmiş. Fərəc Əzizov adlı bu gözəl insanı rejim günahsız məhbuslara qarşı ifadə verməyə məcbur edirmiş. Ancaq Əzizov işdən çıxarılmağa razı olub, nəinki camaata qarşı "üzəduran" olmağa. Bu adamın adı tariximizə qızıl hərflərlə yazılmalıdır. Azərbaycan polisi bu adamdır, balaca uşaqlar polis olmaq istəyəndə "bax, Fərəc Əzizovu tanı, belə polis var idi" deyib əhvalatını danışmalıyıq.

# Mətbuat Şurası Rauf Arifoğlunun məhkəməyə verilməsini müzakirə edəcək

## **Ümid Rəhimoğlu:** "Ölkənin ən ciddi media orqanlarından birinin baş redaktorunun həbs təhlükəsi yaxşı hal deyil"

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verməsi Mətbuat Şurasında müzakirə olunacaq. Qurum baş verənləri, ittihamı və qəzet ətrafında gedən son prosesləri də müzakirə etmək niyyətindədir.**

Bu barədə musavat.com-a açıqlamasında qurumun İdarə Heyətinin üzvü Umud Rəhimoğlu bildirib.

Qeyd edək ki, nəqliyyat nazirinin məşhur "Ayı işi"ndə adı hallanan oğlu Anar Məmmədov "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verib. İddia ərizəsində A.Məmmədov R.Arifoğlunun Cinayət Məcəlləsinin 147.1, 147.2 və 148-ci maddələri ilə ittiham olunmasını tələb edir. Şikayət ərizəsinə 8 sentyabr 2014-cü il tarixində, saat 11.45-ə Xətai Rayon Məhkəməsinin hazırlıq iclasında baxılacağı nəzərdə tutulsa da, baş yazara bu barədə sənədlər sentyabrın 11-də, məhkəmədən 4 gün sonra çatdırılıb.



Ümid Rəhimoğlu

Qəzet rəhbərliyi prosesdən xəbər tutmadığından, məhkəmədə iştirak etməyib. Həmçinin qarşı tərəf də 8 sentyabrda məhkəmə prosesinə gəlməyib. Qəzet rəhbərliyi baş verənləri baş redaktoru susdurmaq cəhdi kimi dəyərləndirir. Həmçinin qəzet rəhbərliyi müdafiə taktikası qurmağı planlaşdırır. Qəzetimizin hüquqşünası Vaqif Hüseyn isə bildirib ki, iddia ərizəsində göstərilən maddələr Rauf Arifoğlu üçün həbs təhlükəsi yaradır.

**Mətbuat Şurası yaxın günlərdə məsələ ilə bağlı toplanmağı planlaşdırır. Umud Rəhimoğlunun sözlərinə görə, nazir oğlu ilə "Yeni Müsavat" arasında baş verənlər uzun bir mübarizəni xatırladır:** "Bu, çoxdan baş verən və davam edən bir prosesdir. Bunlar bir məmurun mətbuata qarşı mübarizəsinin əsasını təşkil edir. Mətbuat Şurası bundan əvvəl də bir neçə dəfə bu tipli məsələlərlə bağlı çalışıb, cəhdlər edib. Çalışdıq ki, məsələ barışıq yolu ilə öz həllini tapsın. Görünür, bu məsələlər, cəhdlər tam effektiv nəticə verməyib. Problem yenidən haradasa müzakirə olunub həllini tapmalıdır, çözülməlidir. Bu məsələ dəfələrlə məhkəmə müstəvisində araşdırılır. Bütün hallarda yaranmış problemi müzakirə edib hər iki tərəfin ortaq məxrəcə gəlməsinə çalışmalıyıq. Ölkənin ən ciddi, oxunaqlı media orqanlarından birinin baş redaktorunun həbs təhlükəsi heç də yaxşı hal deyil. Mətbuat Şurası məsələni müzakirə edib qərar qəbul edəcək. Bir vətəndaş olaraq, İdarə Heyətinin üzvü olaraq situasiyadan məmnun deyiləm. Məsələ hələ Mətbuat Şurasında müzakirə olunmayıb, buna görə qurumun konkret qərarı, bəyanatı yoxdur. Ancaq qurum bu məsələyə baxacaq və müvafiq qərar verəcək".

❑ **Röya RƏFİYEVA**

# Hannìballar mətbuata qarşı

**Azərbaycanda jurnalistlərin həbsi ilə kimisə təəccübləndirə bilmək artıq mümkün deyil. Hüquq müdafiəçiləri, gənc fəallar və mətbuat işçilərinin təqiblərə məruz qalması adi hala çevrilib. Bu isə ölkənin imicinə ağır zərbələr endirir.**

**Əvvəllər Azərbaycanda jurnalistlər ancaq siyasi hakimiyyətin birbaşa sifarişi ilə təqib edilirdilər. İndi isə mətbuata münasibət o dərəcədə eybəcər hal alıb ki, orta təbəqə məmurları, oliqarxlar, hakimiyyətə yaxın istənilən kimsə mətbuatı susdura, sevmədiyi jurnalisti həbsə göndərə bilər.**

Azər RƏŞİDOĞLU



Deyəsən, bu dəfə növbə "Yeni Müsavat" qəzetinin baş redaktoruna çatıb. Belə ki, nəqliyyat naziri Ziya Məmmədovun adı ən müxtəlif qalmaqallarda keçən oğlu Anar Məmmədov Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verib. İddia ərizəsində A.Məmmədov R.Arifoğlunun Cinayət Məcəlləsinin 147.1, 147.2 və 148-ci maddələri ilə ittiham olunmasını tələb edir.

Siyasətdə ilk addımlarını atan, gənc iş adamı olan A.Məmmədov mətbuata qarşı savaş açaraq, bunun fonunda siyasətə gəlmək istəyir. Elə bu amil böyük siyasətdə ilk büdrəmə hesab oluna bilər. Siyasətə gəlməyə hazırlaşan A.Məmmədov böyük yanlışlığa yol verir. Çünki heç bir ciddi siyasətçi mətbuatla düşmən olmaq istəməz. Bu onun maraqlarına uyğun deyil. Siyasətə gəlmək istəyən istənilən sima ilk növbədə mətbuatı özünə dost etməyi qarşısına məqsəd qoyar, ölkənin aparıcı qəzeti ilə düşmən olmağı arzulamaz.

Mətbuatı əzmək, sındırmaq, jurnalistləri həbsə atdırmaq dünyanın heç bir yerində siyasətçilərə başucalığı gətirməyib. Jurnalistlərlə savaşa girişən siyasətçilər əvvəl-axır acınacaqlı məğlubiyyətə uğrayıblar.

Ən acınacaqlısı isə odur ki, cəmiyyət baş verənləri sakitliklə müşahidə edir. Həbslər, mətbuat və QHT-lərin sıradan çıxarılması ölkədə sanki heç kəsi maraqlandırmır.

Nə "Zerkalo" qəzetinin sıradan çıxarılması, nə "Azadlıq" və "Yeni Müsavat"ın üzləşdiyi problemlərə cəmiyyət yetərincə reaksiya vermir.

Bu gün ölkənin ən aparıcı mətbu orqanlarından birinin rəhbəri olan Rauf Arifoğlunu bir məmur övladı həbs elətdirmək istəyir. Cəmiyyət, proseslərin önündə olan siyasi partiya, təşkilat və media orqanları buna seyrçi qalırlar. Bu, cəmiyyətin tam sındırıldığını deməyə əsas verir. İllər öncə bunu etmək mümkün deyildi. İndi vəziyyət fərqlidir. Bir nazir övladı ölkənin imicini fikirləşmədən, baş redaktora savaş açır.

Vaxtilə "Azadlıq", BBC, "Amerikanın səsi" radiostansiyaları FM dalğasından yayımlanırdı, ANS daha dişli materiallar hazırlaya bilirdi. Bu gün bu da yoxdur. Telekanallar müxalifəti unutdurmağa cəhd göstərir.

Ölkənin iki aparıcı qəzetindən birinin baş redaktoru ölkədən didərgin salınıb, digərinin rəhbəri isə həbs olunmaq təhlükəsindədir.

Məmurlar, onların harın övladları mətbuatı məhv etmək arzusundadırlar. Məmurların aqressiyasını da anlamaq mümkündür. Bu gün Azərbaycanda mətbuat siyasi partiyaların funksiyanı öz üzərinə götürmək zorundadır. Düzdür, heç bir demokratik ölkədə gündəmi qəzetlər müəyyən etmir. Mətbuat baş verənlərin şəklini çəkməklə məşğul olmalıdır. Azərbaycanda isə gündəmi də mətbuat formalaşdırır. Odur ki, məmurlar tənqidi tamamilə yox etmək qərarına gəliblər.

Mühacir həyatı yaşamağa məhkum olan Qənimət Zahid, faktiki olaraq jurnalistikadan uzaqlaşan Elçin Şıxlı və hər an A.Məmmədovun həbs etdirmək istədiyi Rauf Arifoğlu mətbuatın sıra nəfərləri deyillər. Odur ki, cəmiyyət baş verənlərə sərt reaksiya göstərməlidir.

Əgər bir nazirin övladı ölkənin aparıcı qəzetinin baş redaktorunu həbslə hədələyirsə, bu, demokratiyanın bərbad vəziyyətdə olmasının bariz nümunəsidir. Bunun qarşısı alınmasa daha böyük fəsadlar törənə bilər. Hələ də bu əcaib siyasəti durdurmağa şans var...

Azərbaycanda qəzetlərin mövcudluğu həm də nazirlərə, digər yüksək rütbəli məmurlara lazımdı. Bəzən olur ki, bu gün kabinetindən hansısa qəzeti, jurnalisti susdurmaq üçün məhkəmələrə tapşırıq verən nazir, sabah məhkəmə qarşısına çıxarılır və hakimlərə ifadə verir. Bu zaman onların tək müttəfiqi müstəqil qəzetlər, azad jurnalistlər olur. Yaxın keçmişimizdə bunun xeyli nümunələri var...

❑ **Azər RƏŞİDOĞLU**

# Polad Bülbüloğlu Rusiya hökumətindən təminat istədi

## "Azərbaycan məhsullarının Rusiya bazarlarına çatdırılması asanlaşdırılmalıdır"

**Moskvada ABŞ və Avropa ölkələrinin iqtisadi sanksiyaları ilə əlaqədar Azərbaycan-Rusiya ticarət münasibətlərinin inkişaf perspektivlərinə dair mətbuat konfransı keçirilib.**




APA-nın verdiyi məlumata görə, konfransda çıxış edən Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının daşınmasının nizama salınmasının vacibliyini vurğulayıb: "Azərbaycan kənd təsərrüfat məhsulları ilə özünü tam təmin edir, həm də ixracla məşğul olur. Bu gün Azərbaycanla Rusiya arasında logistika çox yüksək səviyyədədir. Lakin məhsulların daşınmasında bəzən inzibatı problemlər baş verir. Bu problemlərdən biri də Rusiyanın İstehlak Bazarına Nəzarət Xidmətinin *("Rospotrebnadzor")* yaratdığı problemlərdir. Kənd təsərrüfatı məhsulları tez xarab olan məhsullardır. Təbii ki, məhsulun keyfiyyəti yoxlanılmalıdır. Lakin məhsulun Rusiya bazarlarına çatdırılması asanlaşdırılmalıdır. Bunun üçün dövlətin mexanizmləri mövcuddur. Hökumətlərarası komissiyanın iclasında da bunlar müzakirə olundu. Rusiyaya nə qədər kənd təsərrüfatı məhsulu lazımdı? Azərbaycandakı fermer təminat almalıdır ki, yetişdirdiyi məhsulu Rusiya ondan alacaq. Rusiya hökuməti təminat verməlidir ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanların əziyyəti boşa getməsin. Bütün bu məsələlərin həlli yolları və mexanizmləri hökumətlərarası komissiyanın iclasında müzakirə mövzusu oldu".

P. Bülbüloğlu Azərbaycandan Rusiyaya təkcə meyvə-tərəvəzin deyil, quş əti və yumurtanın da ixrac olunmasının müzakirə olunduğunu söyləyib.

**Rusiya Dövlət Dumasının maliyyə bazarı üzrə iş komitəsinin sədr müavini Dmitri Savelyev çıxışında bildirib ki, Azərbaycanın Rusiya bazarında yer alması üçün böyük şans yaranıb:** "Azərbaycan unikal ölkədir. Bu gün ölkədə yüksək inkişaf var. Bu inkişafı heç bir postsovet ölkəsində görmək mümkün deyil. Azərbaycan məhsulları Orta Asiya və Çin məhsullarından daha keyfiyyətlidir. Rusiya bazarında bu məhsulları böyük məmnuniyyətlə və böyük həcmdə görmək istərdik".

**Deputat Rusiya bazarına Azərbaycan banklarını da dəvət edib:** "Çünki Azərbaycan manatını əsassız yerə "qızıl manat" adlandırmırlar. Azərbaycanın milli valyutası çox sabitdir. Hətta perspektivdə ölkələrimiz arasındakı ticarət dövriyyəsindəki hesablaşmalarda manat və rubldan istifadə etmək mümkündür".

**İctimai Palatanın üzvü, politoloq Sergey Markov isə çıxışında Rusiyanın Azərbaycanla neft və energetika, hərbi-texniki sahədə uğurla əməkdaşlıq etdiyini bildirib:** "Qərbin Rusiyaya qarşı sanksiyaları düşmənçilik siyasətinin təzahürüdür. Azərbaycan kənd təsərrüfatı məhsulları ilə də zəngin ölkədir və onun Rusiyanı bu məhsullarla təmin etməyə imkanı var. Bu amil Azərbaycan iqtisadiyyatına da müsbət təsir edəcək".

**NATO-nun iki mühüm üzvü və strateji tərəfdaş ölkəsi olan ABŞ-la Türkiyə arasında münasibətlər yaxşı dövrünü yaşamır. Əksər təhlilçilərin qənaətincə, Ankara-Vaşinqton münasibətləri doğrudan da zədələnmiş kimidir. Artıq bunu tərəflərin özləri də gizlətmir.**

# Türkiyə-ABŞ münasibətlərindəki gərginlik pik həddə

## İki strateji müttəfiqin arasının dəyməsi ən çox Qərbin rəqiblərinin xeyrinə işləyəcək, Rusiyanın neoimperiya planları isə oksigen alacaq...




Bəzi müşahidəçilərə görə, ABŞ-ın İŞİD-ə qarşı təşkil etmək istədiyi koalisiyaya Türkiyənin qoşulmaqdan imtina etməsi vəziyyəti daha da tündləşdirib və hətta açıq ittiham dili ilə inciklikləri ortaya qoyulmasına rəvac verib. Məsələn, ilk olaraq ABŞ tərəfindən başlanan və Ağ Evə yaxın medianın qoşulduğu anti-Türkiyə kampaniyasının qarşılıqlı söz duelinə çevrildiyi bəlli olub *(avropa.info)*. Ankaranın koalisiyaya qoşulmaması qərarından sonra toplanan ABŞ Senatının Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində Türkiyənin mövqeyinə sərt və təhqiramiz şəkildə qarşılıq verilib. Konqresmenlər Türkiyənin aşkar şəkildə Suriyada "Nüsrət Cəbhəsi", "Ahrarus Şam", Fələstində "Həmas"a, Misirdə isə "Müsəlman qardaşları"na dəstək verdiyini bildiriblər.

Ardınca "New York Times" qəzeti ingilis və alman mətbuatının ardından Türkiyənin İŞİD-ə dəstək verdiyini iddia edib. "New York Times" hətta sensasion iddia ilə çıxış edərək Ankaranın Hacıbayram məhəlləsində İŞİD-in ofisi olduğunu və təşkilatlanmanın məhz bu ofisdən idarə edildiyi də yazıb. Xəbərdə prezident Tayyib Ərdoğan və baş nazir Əhməd Davudoğlunun Ankaradakı Hacı Bayram Vəli məscidindən çıxarkən çəkilmiş fotoları yer alıb. Amma bu fotonun İŞİD məsələsinə nə aidiyyəti olduğu açıqlanmayıb. Türkiyəli ekspertlər isə fotonu ABŞ mətbuatındakı islamafobiyanın təzahürü adlandırıblar.

Öz növbəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan məsələyə sərt reaksiya verib. O, Türkiyənin uzun illər boyu terrora məruz qaldığını və bəzi Qərb dövlətlərinin terrorçulara dəstək verdiyini deyib. Türkiyə lideri dolayısı ilə ABŞ və Qərb dövlətlərinin PKK-nı müdafiə elədiyini söyləyib.

Göründüyü kimi, münasibətlərə soyuqluq gətirən təkcə İŞİD deyil. Əslində problemin kökü daha dərinə - demokratiya məsələsindən tutmuş, son ərəb-Fələstin qarşıdurmasında Ərdoğanın sərgilədiyi sərt mövqeyə, yəhudi lobbisinin gizli-aşkar şəkildə ona qarşı qlobal miqyasda ləkələmə kampaniyası aparmasına, bütövlükdə son illərdə Ankaranın daha müstəqil xarici siyasət yeritməsinə bəzi dairələrin verdiyi allergik yanaşmayadək gedib çıxır.

Təbii ki, İŞİD-çilərin 49 türk diplomatını girov saxlaması da Ankaranın qərarına təsir edir. Bu xüsusda Türkiyə hökumətinin milli çıxarlardan qaynaqlanan və ilk baxışda yetərincə arqumentli, 6 sualdan ibarət əhatəli açıqlaması olub. Di gəl, hiss olunur ki, yəhudi lobbisinin təsiri altında olan aparıcı Qərb dövlətləri, onların mətbuatı Ərdoğana antipatiyanın girovluğunda qalaraq, Türkiyənin özünə qarşı bir qaralama kampaniyası aparmaq, regionun bu olduqca mühüm ölkəsini özlərindən itələmək, daha da küsdürmək istəyirlər.

Bu da sözsüz ki, öncə Amerika və Avropanın regional maraqlarına zərbə vuracaq. Çünki NATO-nun yeganə və vazkeçilməz müsəlman ölkəsi kimi Türkiyə regionda İŞİD-dən sonra da Qərbə çox lazım olacaq - iqtidarda Ərdoğan oldu-olmadı.

Xatırladaq ki, hazırda Yaxın Şərqdə İŞİD-lə savaşan PKK və digər kürd qruplaşmalarına Almaniya başda olmaqla, bir çox Qərb dövlətləri dəstək verdiklərini rəsmən etiraf ediblər. Müşahidəçilərin fikrincə, Ərdoğan Qərb dövlətlərinin terrora dəstək verdiyini iddia edərkən məhz bu amili nəzərdə tutub. Rəsmi Ankara sonrakı dövrlərdə PKK-nın həmin silahlarının Türkiyəyə qarşı çevriləcəyindən narahatdır - belə bir kontur dəlil də var.

Türkiyə prezidentinin açıqlamasının ardından isə ABŞ-ın dövlət katibi Con Kerri Ankaranı hədəfə götürən sensasion iddialarla çıxış edib. Kerri Türkiyənin İŞİD-in neft satışına vasitəçilik etdiyini deyib. Sitat: **"İŞİD neft biznesini Suriya ilə həmsərhəd ölkələrlə qurub. Bu ölkələr isə Türkiyə və Livandır".**

Türkiyədəki təhlilçilər isə ABŞ-ın İŞİD bəhanəsi ilə Yaxın Şərqi yenidən işğal etmək istədiyi və rəsmi Ankaranın bu planlara qarşı olduğunu bildirirlər. Həmçinin Türkiyənin İŞİD-ə qarşı döyüşən Bərzani, PKK, İraq hakimiyyəti gücləri ilə bir yerdə olmaq istəmədiyi də qeyd edilir.

Türkiyə ilə münasibətlərin gərginləşməsi sövq-təbii Azərbaycan-Qərb münasibətlərinə təsirsiz ötüşməyəcək və Qərbin geosiyasi, iqtisadi itkilərini daha da artıracaq. Ankaranın üzünü azacıq Rusiyaya, Çinə tərəf döndərməsi Qərbə ucuz başa gəlməz. Bəs qazanan kim olacaq?

Şübhəsiz ki, Qərbin - ABŞ və Avropa Birliyinin, NATO-nun əzəli rəqibləri olan və hazırda sanksiyalar altında olan Rusiya, Çin. Odur ki, indi dost itirib, düşmən-rəqiblərin sayını artırmaq zamanı deyil.

❑ **Siyasət şöbəsi**

# ĞORRRRRR



**Xalid KAZIMLI**

**Belə çıxır ki, biz hey yazacağıq, narahat olan insanlar söyə-söyə, gileylənə-gileylənə yaşayacaqlar, əlaqədar dövlət orqanlarının əməkdaşları yalandan "tərəfimizdən tədbirlər görülür" deyə işlərinə başdansovdu yanaşacaqlar, avtomobil xuliqanları isə bildikləri kimi həyat tərzi keçirməkdə, vətəndaşlara narahatlıq yaratmaqda davam edəcəklər.**

Bu o paytaxtdır ki, beş-altı il öncə geniş meydanlarında, parklarında hansısa kütləvi aksiya keçirmək istəyən insanların qarşısı alınır, "vətəndaşların istirahət hüququ pozulur" deyə icazə vermirdilər. Hətta dövlət-hökumət telekanalları parklara tökülüşür, şəhər sakinlərindən uzun-uzadı müsahibələr alırdılar, sakinlər deyirdilər ki, müxalifət mitinq, piket keçirəndə istirahət hüquqları pozulur.

O cür istirahət qədri bilən və bunu televiziya vasitəsi ilə ictimailəşdirən insan qruplarının arasında Hüseyn Cavid bağının və şəhərin "Beşmərtəbə" adlanan hissəsinin həndəvərində yaşayan insanlar da vardı.

Bu gün avtoxuliqanların gecə səhərə qədər *(əsasən də saat 3-dən 6-ya qədər)* maşın oynatdığı məkanlar arasında ən çox adı çəkilən məhz Hüseyn Cavid bağı və "Beşmərtəbə" dairələridir. Xuliqanlar bu yerlərdə insanlara narahatlıq yaradırlar. Amma bir neçə ictimai-siyasi fəaldan başqa səsi çıxan yoxdur. Nə oldu, istirahət hüquqları vardı axı... Niyə dillənmirlər?

Bu məkanların sakinlərinin susqunluğunun səbəbi odur ki, onlar kiminlə rəqs etdiklərini yaxşı bilirlər və şikayət edərək əlavə başağrısı çəkmək, hətta həyatlarına problem yaratmaq istəmirlər.

Hamı bilir ki, avtoxuliqanlıq edənlər böyüklərin, vəzifəli, imkanlı şəxslərin övladları, qohumlarıdır və onların belə bir imtiyazları var: istədikləri vaxt istədikləri cür maşın sürə, əylənə bilərlər.

Bunlar o şəxslərdir ki, onlara mane olmaq istəyən yol polislərini küçənin ortasında şapalaqlaya, poqonlarını söкə, sökdürə bilərlər.

Gündüz 5,5 gücdə motoru olan maşınlarıyla **ĞORRRR, VIVVĞIRIVVV** səsi çıxararaq yolda gedən digər maşınların, səkidə olan piyadaların zəhrini-bağrını yaran bu gənclər üçün heç bir qoruq-qaytaq yoxdur.

Bir neçə gündür mediada bir tələbənin dərsə 650 minlik avtomobildə gəldiyi barədə xəbər dolaşır. Adamın özünün də, atasının da kimliyi bəllidir və onların adını burada çəkməyə lüzum yoxdur. Ancaq onların xeyli müdafiəçilərinin olduğunu qeyd etməmək olmaz.

"Müdafiəçi"lər bu hadisəyə haqq qazandırırlar, yazırlar ki, paxıllıq etməyin, varlı adamların bahalı maşın sürməsi normaldır, bundan yazmaq, bu barədə danışmaq isə pis şeydir. "Sizin olsa siz də elə edərsiniz" yazırlar.

İndi siz təsəvvür edin ki, insanların düşüncə tərzi nə qədər dəyişib, nə dərəcədə deformasiyaya uğrayıb. Bu ölkədə hər cür oğurluğa, quldurluğa, yaramazlığa, pozğunluğa haqq qazandıran yüz minlərlə adam var. Onlara görə, məmurun rüşvət alması, nazirin milyarder olması, büdcənin talanması, insanların aldadılıb soyulması, harınların qudurğanlıq etməsi, qudurmuşların hətta adam öldürməsi - hər şey normaldır və bunlardan yazmaq paxıllıq, gözügötürməzlikdir.

Belədirsə, onda qoy harın gənclər gecə saatlarında "Boinq" və ya səsboğucu qazanı deşilmiş tank səsi verən maşınlarıyla millətin yuxusunu haram etsinlər, insanların həyatına təhlükə yaratsınlar.

Görünür, dövlət rəhbərliyi bu məsələyə yenidən əl qoymalıdır. İlin əvvəlində dövlət başçısı müvafiq mövzuda danışıb barmaq silkələyəndən sonra harınlar bir qədər özlərinə yığışmışdılar. Bahalı maşınlarda cavanlıq, lotuluq edən gənclərin ataları vəzifələrindən qovulmaqdan qorxurdular və öz övladlarına müvəqqəti olaraq dinc olmağı tapşırmışdılar.

Budur, artıq cin şüşədən təzədən çıxıb. Deməк, yeni müşavirəyə, yeni-yeni təhdidlərə, təpinmələrə ehtiyac var. Başqa cür olmayacaq.

Anormal ölkə odur ki, yol hərəkətinin təhlükəsizliyini və nəqliyyat sferasındakı bu sayaq xırda məsələləri birbaşa dövlət başçısı hansısa mühüm müşavirədə çıxış edərək həll etsin.

Nə qədər ki, ölkə bu cür idarə olunur, gecə saat 3-də ĞORRR səsi də eşidəcəyik, "Abasqulu bəyin nazıyla çox oynayırsan aaa, Kərbəlayi" siqnalı da.

YENİ MÜSAVAT
N 234 (5943) 19 sentyabr 2014



# Əsrin iki qəhrəmanı

**Hüseynbala SƏLİMOV**

**Adam çalışır, amma inana da bilmir ki, ilk böyük neft müqaviləsinin imzalanmasından 20 il keçib. O dövr ərəfəsində iki qəhrəman vardı - biri Qarabağ idi, biri də neft. Bütün mübahisələrin və söhbətlərin də iki əsas predmeti olurdu - biri Qarabağ idi, o biri də neft...**

Bu iki qəhrəman sanki simbioz təşkil edirdi. Bir tərəfdən deyirdilər ki, Qarabağ ona görə problemə çevrilib ki, ölkə neft ölkəsidir, bəli, Azərbaycanda neft var. Digər tərəfdən də iddia edirdilər ki, Qarabağ problemini də elə Azərbaycanın nefti həll edəcək...

Bəli, çox təzadlı mənzərə idi. Eyni bir amil-neft həm milli uğursuzluğun baisi, Qarabağ probleminin əsas səbəbi kimi, həm də onun həlli, bu çətinlikdən qurtuluş yolu kimi təsəvvür edilirdi.

Hətta belə bir politoloji ştamp da yaranmışdı: "Böyük dövlətlərin və şirkətlərin Azərbaycanda maraqlarının formalaşdırılması"... Güman edilirdi ki, məhz həmin bu "maraq"lar son nəticədə Qarabağ probleminin həllinə təkan verəcək...

Etiraf edək ki, belə fikirlərə "Əsrin müqaviləsi"nin zahiri formatı da sövq edirdi - müqavilədə 12 şirkət və 8 dövlət iştirak edirdi. Hamı zənn edirdi ki, belə bir "geosiyasi palitra"nın yaradılması məhz həmin "marağ"ı təmin etmək üçün düşünülüb...

Neftdən danışanda gərək bir detalı da unutmayasan. O vaxt insanlar hər şeyi nəzərə alırdılar - geosiyasi amilləri, potensial neft ehtiyatlarını, neft-sənaye təcrübəsini... Bütün bunların əsasında da ifrat optimist proqnozlar ərsəyə gəlirdi - kimi Azərbaycanın yeni Küveyt olacağını deyir, kimi də neftdən gələn gəlirlərin qızıl ekvivalaentini hesablamağa çalışırdı...

Yalnız ən realistlər başa düşürdü ki, nefti çıxarmaq üçün ilk növbədə böyük sərmayə, onu nəql etmək üçün isə böyük neft kəmərləri inşa etmək lazımdır...

Bəli, bir gün ilk böyük neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı... Hətta onu imzalamaq üçün bir az tələsdilər də. Ona görə yox ki, hamı Qarabağın ən tez vaxtda azad olması, Azərbaycanda "böyük dövlətlərin maraqları"nın təmin edilməsi və yaxud ki, sosial rifahın dərhal yüksəlməsi üçün tələsirdi...

Yox, artıq əvvəlki vaxtlar deyildi və insanlar bir az realistləşmişdilər, daha əvvəlki kimi fantastik xəyallara qapılmırdılar ...

Neft müqaviləsi 1994-cü ilin sentyabrın 20-də birinci növbədə ona görə imzalandı ki, büdcədə artıq vəsait qalmamışdı, ölkə bəlkə də defolt ərəfəsində idi. Ona görə də neft bonuslarına çox böyük ehtiyac vardı - artıq nə "maraq"lar yada düşürdü, nə də başqa şey...

İndi, 20 ildən sonra, hər şey göz önündədir. Qarabağ da öz yerindədir, onu harasa aparmayıblar, amma onu "qaytarmayıblar" da, Azərbaycanın ora hələ də girişi yoxdur...

Təbii ki, neft Qarabağ problemində müəyyən məsələlərə təkan verdi. Ola bilsin ki, neft olmasaydı, Azərbaycanın maliyyə müstəqilliyi olmasaydı o, indi olduğu kimi Qarabağ məsələsində qəti mövqe tuta bilməyəcəkdi, daha böyük güzəştlərə sövq ediləcək və bununla razılaşmaq məcburiyyətində qalacaqdı...

Ən azı bu gün Azərbaycanın ortabab müdafiə və təhlükəsizlik sisteminin mövcud olması da müəyyən mənada neft amili ilə sıx bağlıdır, başqa bir halda ölkə digər resurslar hesabına indiki hərbi büdcəni təmin edə bilməzdi...

"Maraq"lar məsələsinə gəldikdə isə, onlar daha qəlizdi. Niyə görə "Əsrin müqaviləsi"ni məhz indiki hakimiyyətə həyata keçirmək müyəssər oldu? Ona görə ki, onlar ilk növbədə məhz həmin maraqları təmin etmək yolunu tutdular - Rusiya şirkəti kontraktda pay aldı və digər şirkətlərin də payları artırıldı, güzəşt kimi də neftin bir hissəsini Rusiya ərazisi ilə nəql etməyə qərar verildi...

O ki qaldı sosial rifah məsələlərinə, bu illər ərzində təbii ki, ölkə, necə deyərlər, özünə gəlib. Hətta onun ümumi görünüşündən hiss olunur ki, artıq 90-cı illərin əvvəli deyil, amma nəinki Küveyt, heç Norveç də alınmadı...

Üstəlik, ölkədə sanki hər şey neft qoxuyur. Məmurların dövlətin ölçülərinə və onun dünyadakı roluna uyğun olmayan təkəbbürü, vəsaitlərə etinasız münasibət, onların qeyri-effektiv xərclənməsi, siyasi və iqtisadi islahatların dayanması - bütün bunlar deyir ki, bu ölkədə nefr var. Gəl, kimsə nəzərə almır ki, "əsrin möcüzəsi" də əbədi davam etməyəcək, hər şeyin sonu olduğu kimi onun da sonu var.

Hələ onu demirik ki, yetər ki, daha bir soyuq müharibə başlasın və neft su qiymətinə satılsın. O vaxt bütün bu "analoqu olmayan iqtisadi inkişaf" adlı "karton konstruksiya" bir gündə çökə bilər...



# Bilik Fondunun əsas hədəfi açıqlandı

## Oqtay Səmədov: "Layihələrimizi ictimaiyyət böyük maraqla qarşılayıb..."

**Sentyabrın 18-də Azərbaycan Bilik Fondunun ilk mətbuat konfransı keçirildi. Konfransda demək olar, bütün KİV-lərdən nümayəndələr iştirak edirdi. Konfransı açan Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov fondun hansı məqsədlə yaradıldığından, gələcək layihələri və planlarından danışdı: "Azərbaycan Respublikası yanında Bilik Fondu ölkə başçısının 7 may 2014-cü il tarixli fərmanı ilə yaradılıb.**

Fondun yaranma məqsədi elmi-texniki, sosial-iqtisadi, humanitar biliklərin artırılması, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi, dini dəyərlərin təbliği, ekoloji təfəkkürün formalaşdırılması, Azərbaycan dövlətinin daxili və xarici siyasətinin, ölkədə aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılmasıdır. Vətəndaşlarımızın müasir standartlara uyğun biliklərə və dünyagörüşünə yiyələnməsi, şəxsiyyət kimi inkişafının təmin olunması üçün tədbirlərin həyata keçirilməsi, onların bacarıqlarının, peşəkarlıq səviyyələrinin və dünya görüşlərinin inkişafına dəstək verilməsi fondun vəzifələrinə daxildir".

**"Fəaliyyətimizdə sağlam həyat tərzi, ətraf mühitin mühafizəsi, Azərbaycan tarixi və mədəniyyəti təbliğ edilir. Ölkəmizin dinamik inkişafı və dünya birliyinə inteqrasiyası ilə əlaqədar təhlillər aparılır, beynəlxalq, regional və ölkədaxili proseslər öyrənilərək ictimaiyyətə çatdırılır" - deyən Oqtay Səmədov onu da xüsusi vurğuladı ki, fondun "İlboyu bilik" proqramı çərçivəsində həyata keçirilən layihələri ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb, əsasən bölgə əhalisinin, o cümlədən məktəblilərin maariflənməsində müstəsna rol oynayıb:** "Bu sırada "Qardaşlaşmış məktəblər" layihəsini xüsusi vurğulamalıyıq. Bu layihə ölkəmizin müxtəlif bölgələrində olan 20 məktəbi qardaşlaşdırıb, onların arasında qardaşlaşma sazişi imzalanıb. Bu sazişi qardaşlaşan məktəblərin hər birində 10 nəfər şagird olmaqla imzalayıb. Hər rayonda 2 gün davam edən tədbirlər şagirdlərin biliklərinin, dünya görüşlərinin artırılması, ölkələrini daha yaxından tanımaları üçün böyük fayda verib".



Çıxışçının sözlərinə görə, sentyabrın 15-də fondun ekspert-alimləri, xarici ölkə səfirləri 70-ə qədər məktəbdə "Azərbaycan bu gün və sabah" mövzusunda mühazirə deyiblər. Qurumun monitorinq qrupunun ilkin araşdırmasından məlum olub ki, mühazirələr həm məktəb kollektivi, həm də rayon ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib.

Bu proseslərin bütün məktəbləri əhatə edəcəyini deyən O. Səmədov keçirdikləri "Dini abidələrdə tarixin izi" adlı layihə haqqında da məlumat verərək bildirdi ki, layihə çərçivəsində Azərbaycan ərazisində yerləşən məscidlər, ziyarətgahlar, kilsələr, sinaqoqlar, məbədlər və imamzadələrdə tarixi-elmi tədqiqatlar aparılacaq, abidələr hərtərəfli öyrəniləcək, Azərbaycan tarixi üçün faydalı məqamlar üzə çıxarılacaq, müəyyən bərpa işləri aparılacaq.

Bununla yanaşı, Bilik Fondu "Auditoriya+", "Ustad və şəyird", "Docendo discimus", "Yaradıcılıq fakültələri", "Epizod", "Məscidlərdə kitabxana", "Azərbaycan elmi xaricdə", "Dünya elmi Azərbaycanda" və başqa layihələrə də başlamaq niyyətindədir. Fondun rayonlar üzrə 75 nümayəndəsi təyin olunub və öz fəaliyyətini həmin nümayəndələrlə əlaqəli qurur. İcraçı direktor gələcəkdə fondun yerlərdə filiallarının, xarici ölkələrdə nümayəndəliklərinin açılacağını da dedi: "Yaxın günlərdə fondun bülleteni dərc olunacaq, dövrü mətbu orqanı olan elmi-kütləvi dərgi işıq üzü görəcək".

O.Səmədov habelə gələcəkdə məscidlərdə kitabxanalar yaratmaq və bura gələn insanların dini əsərlərlə yaxından tanış olma imkanı yaradılacağını qeyd elədi. Sonda o, jurnalistlərin suallarını cavablandırdı.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Mübariz Qurbanlı İŞİD-ə qoşulanların olduğunu etiraf etdi

## Ekspert insanların radikal qruplara meyllənməsinin qarşısını necə almağın yolunu göstərdi

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı AzadlıqRadiosuna müsahibəsində Azərbaycanda İŞİD-ə qoşulmaq istəyənlərin statistikasının müvafiq dövlət orqanlarında olduğunu açıqlayıb. O deyib ki, xüsusi xidmət orqanları bununla ciddi məşğul olurlar. Eyni zamanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerli şöbələri bununla məşğuldur: "Həmin şöbələr hüquq-mühafizə orqanı deyil təbii ki. Bizim silahımız sözdür.**

Biz hansısa gəncin bir qrupa qoşulub getməsi və s. haqda məlumat aldıqda profilaktik söhbətə üstünlük veririk. İzah edirik ki, Suriyada baş verənlər din söhbəti deyil, İŞİD din altında pərdələnmiş terrorçu qrupdur. Onun arxasında Qərbdəki bəzi mərkəzlər, geopolitik maraqlar, neft mafiyası, bəzən də dövlətlərin maraqları dayanır, İŞİD İslama zərbədir. Azərbaycandan İŞİD-ə gedən də bilməzlikdən gedir, müəyyən qrupların toruna düşüb və ya macəra axtarır. Saf ürəklə inanıb gedirsə, o bilsin ki, bu, din məsələsi deyil. Bizim idmançımız 23 saniyədə erməninin kürəyini yerə vurub əsgəri salam verdi. Erməniyə bundan böyük ideoloji sillə vurmaq olmazdı. Bizim idmançı çox böyük hərəkət etdi. Mən çox ləzzət aldım bundan. Budur hərəkət. Yoxsa hansısa ölkədə geopolitik mübarizənin qurbanına çevrilirsənsə, sən dindən xəbərsizsən.

İŞİD-ə qoşulmaq istəyənlərlə bağlı statistika var, amma bu, mətbuata açıqlamaq üçün deyil".

M.Qurbanlının fikirlərini şərh edən bir sıra ekspertlər hesab edir ki, komitə sədri bu açıqlama ilə Azərbaycanda İŞİD kimi təhlükəli qruplara qoşulanların olduğunu və bu prosesin getdiyini təsdiqləmiş olub.



Mübariz Qurbanlı

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri Natiq Miri hesab edir ki, bir sıra insanların təhlükəli təriqətlərə, terror təşkilatlarına qoşulması və ya meyllənməsinin səbəblərindən biri ölkədə siyasi azadlıqların, leqal demokratik təşkilatların müxtəlif yollarla sıxışdırılmasıdır. İstənilən ölkədə demokratiyanın bərqərar olması o ölkənin gələcək perspektivini müəyyən edir. Bunu sübut eləyən konkret modellər var. O ölkələrdə ki, siyasi azadlıqların önü kəsilmir, leqal demokratik təşkilatlara, vətəndaş cəmiyyətinə fəaliyyət üçün normal şərait yaradılır, həmin ölkələrdə cəmiyyət, insanlar özünü demokratik sahədə realizə edə bilir, qeyri-leqal, təhlükəli təriqətlərə, qanunsuz yollara meyl edənlərin sayı son dərəcə cüzi olur:** "Hakimiyyətin demokratik seçkilərlə dəyişdirilməsi, seçkili orqanlarda təmsilçiliyin seçkilərlə reallaşmasının mümkünsüzləşməsi sonda cəmiyyətdə alternativ axtarışlarının başlanmasına stimul verir. Bu vəziyyətdən isə din pərdəsi altında fəaliyyət göstərən radikal qruplar, təriqətlər istifadə edirlər və insanları öz tərəflərinə asanlıqla cəlb eləyə bilirlər. Yaxın Şərq ölkələrində bugünkü dəhşətli vəziyyətin kökü məhz illər uzunu bu ölkələrdə antidemokratik rejimlərin demokratik təsisatları sıradan çıxarmasına, siyasi azadlıqların qarşısının tamamilə kəsilməsinə gedib çıxır. Həmin ölkələrdə rejimlərin yanlış siyasəti demokratik institutların yerini radikal, terrora meylli qrupların tutması ilə nəticələnib. Bu gün həmin ölkələrin xalqları və rejimlərin özləri də illərlə yürüdülmüş səhv siyasətin acı nəticələrini dadırlar. Bunu mürəkkəb geosiyasi proseslərin getdiyi regionda yerləşən Azərbaycanın hakimiyyət strukturları bilməlidirlər. Azərbaycan cəmiyyətinin önü açılmalıdır, seçkilərin demokratik keçirilməsi, siyasi təşkilatların fəaliyyətinə normal şərait yaradılması lazımi səviyyədə təmin olunmalıdır. Ölkəni gələcək arzuedilməz proseslərdən xilas etməyin yolu budur".

**Ekspertin fikrincə, insanlara siyasi azadlıqların verilməsi, demokratik seçkilər ölkənin təhlükəsizliyinin təməl prinsiplərindəndir. Odur ki, Azərbaycanda demokratik islahatlara başlanması həyati əhəmiyyət kəsb edir:** "Ölkəmizə kənar düşmən qüvvələrin əlinin çatmamasını demokratik islahatlarla təmin edə bilərik. Azərbaycanda güclü demokratik dövlət, demokratik cəmiyyət, güclü ordu qurmadan bu regionda ayaq üstə durmaq mümkün deyil".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 234 (5943) 19 sentyabr 2014

# “Vertolyotum da var - sonra?!”

Şərurlu İsfəndiyar oğlunun 650 minlik maşına sahib olması haqda “Yeni Müsavat”a açıqlama verdi; tikinti maqnatının oğlu bahalı avtomobilini satır

**Oğlu 650 min manatlıq “Lamborghini”yə sahib olan tikinti maqnatı, “Şərurlu İsfəndiyar” kimi tanınan İsfəndiyar Axundov “Yeni Müsavat”a vertolyota sahib olmasından danışıb. İ.Axundov oğlunun bahalı maşına sahib olması ilə bağlı suala belə cavab verib:**


İsfəndiyar Axundov

“Mənim vertolyotum da var. Bunun kimə nə aidiyyəti var? Həmin maşın oğlumundur. Mənim oğlum neyləyib? Şəhərdə vertolyot sürməyib ki? Maşın sürüb də. Başqa nə iş görüb?” Maraqlıdır ki, bundan əvvəl bizimyol-a verdiyi açıqlamada İ.Axundov oğlunun bahalı maşına sahib olmasını cidd-cəhdlə təkzib etmişdi.

**Sitat:** “Mənim oğlumun elə maşını yoxdur, bu barədə sizdən eşidirəm”.

İsfəndiyar Axundov bildirmişdi ki, internet saytlarında 650 min dollarlıq “Lamborghini” avtomobilinin onun oğluna məxsus olması barədə yazılanlar həqiqətə uyğun deyil.

Ancaq maraqlıdır ki, Allahverdi Axundov İnstaqram səhifəsində həmin maşının fotosunu paylaşaraq, “My new car, lambo#aventador” haştağından istifadə edib.

Qeyd edək ki, məsələ ilə bağlı yayılan məlumatlarda bildirilirdi ki, Dövlət İqtisad Universitetinin yaxınlığında görünən bir avtomobil ərazidə olan şəxslərin diqqətini cəlb edib. Yaxınlıqda olan şəxslər bu maşının universitet tələbələrindən birinə aid olduğunu bildiriblər. “Lamborghini Gallardo” markalı bu avtomobilin qiymətinin 650 min ABŞ dolları olduğu bildirilirdi.

Qeyd olunurdu ki, həmin avtomobil iş adamı İsfəndiyar Axundovun oğlu Allahverdi Axundova məxsusdur.




Daha bir maraqlı fakt; Turbo.az saytında satışa çıxarılan bahalı “Maserati”nin nömrəsi də 10 LN 200-dür.

İnternet resursları 650 minlik avtomobilin fotosunu yayanda aydın görünürdü ki, oğul Axundovun bahalı superkarın dövlət nömrə nişanı 10 LN 200-dür. Onun həmçinin “Maserati”si də sosial şəbəkədəki profilində yer alırdı.

Bu o deməkdir ki, A.Xəlilov “Lamborghini” aldığı üçün öz “Maserati”sini 130 minə satışa çıxarıb... 2 gün əvvəl isə baş nazirin sabiq 1-ci müavini Abbas Abbasovun deputat oğlu Aydın Abbasov özünün motosiklet sürməsinə münasibət bildirərkən “Azərbaycanda elə yüksək vəzifəli şəxslər vardır ki, təyyarə də sürürlər” demişdi. A.Abbasov fikrini konkretləşdirməsə də, bəlli olur ki, İsfəndiyar Axundov kimi vəzifə daşıyıcısı olmayan şəxslər də vertolyota sahibdirlər.

Deputatın təyyarə sürən vəzifəli şəxslər dedikdə kimləri nəzərdə tutmasını da araşdırırıq. Yaxın saylarımızda araşdırmamızın nəticəsini oxucularımıza təqdim edəcəyik.

❑ E.HÜSEYNOV

# “Səni axtarıram”a baxarkən dünyasını dəyişənin hekayəsi aranı qatdı

**Xoşqədəm Hidayətqızı:** “Bu cür informasiyanın yayılması o ailəyə hörmətsizlikdir”

**Sevinc Telmanqızı:** “Jurnalistin bütün xəbərlərin arxasınca düşüb, onu aydınlaşdırma haqqı var”

**Arif Əliyev:** “İstənilən doğru fakt bütün mülahizələrə haqq qazandırır”

**Teleaparıcı Xoşqədəm Hidayətqızı “Səni axtarıram”ı izləyərkən vəfat edən Yusif Əhmədovla bağlı yayılan məlumatlara münasibət bildirib. Xatırladaq ki, “Yeni Müsavat” qəzetinin əməkdaşı 18 sentyabr tarixli sayda Bakıda məskunlaşan Füzuli sakini Y.Əhmədovun ölümü ilə bağlı reportaj hazırlamış, mərhumun yaxınları ilə bu barədə söhbətləşmişdi. Yaxınları bildirmişdi ki, Əhmədov ürək tutmasından dünyasını dəyişib və onların nəslində ürək xəstəliyi genetikdir.**

Yazı ilə bağlı qafqazinfo-ya açıqlamasında xanım aparıcı 68 yaşlı kişinin ölümünə “Səni axtarıram” verilişinin səbəb olmadığını bildirib: “Çox təəssüf edirəm ki, bu cür şayiələr yayırlar. ”Səni axtarıram" verilişi çox populyar və baxımlıdır. Bəziləri dostcasına, bəziləri bilərəkdən bu cür şayiələr yayır. Rəhmətə gedən kişinin ailəsi də deyib ki, bu ölümün mənim verilişimlə əlaqəsi yoxdur və təsadüfdür. Ömrü verən Allahdır. İstənilən vaxt, istənilən yerdə, istənilən an Allah canımızı alacaqsa, bunun kiməsə aidiyyəti yoxdur. Eşidəndə, biləndə ki, bu cür şayiələr, ürəkbulandırıcı informasiyalar yayılıb, həmin ailənin yerinə üzüldüm. İnsanlar yaxınını, doğmasını itiriblər, bu cür informasiyanın yayılması isə o ailəyə hörmətsizlikdir. “Səni axtarıram” verilişi insanlara ancaq sevinc bəxş edir, uzun illər gözü yolda qalan insanların gözlərini yollardan yığır. Verilişdə hüzn də, kədər də ola bilər, amma sonda sevinc bəxş edir. Söz də tapa bilmirəm. Yol, sərhəd, səhər-axşam bilmədən çalışdığımız məqamda belə informasiya yalan da olsa, bizi kədərləndirir. İstəyərəkdən və ya istəməyərəkdən yalan informasiyanı təqdim etməyə ehtiyac yoxdur. Buna heç bir ehtiyac yoxdur. Bu ölümün nə mənim verilişimlə, nə də "Səni axtarıram"la əlaqəsi yoxdur.


Xoşqədəm Hidayətqızı

Qəzetin yazdığına ... ifadəsi ki, Yusif Əhmədovun oğlu haqqında da bilgi də olmalıdır. Kimi şayiə də yoxdur: “Biz fakt əsasında hərəkət etmişik. Bütün qəsəbənin danışdığı bir hadisənin izinə düşmüşük. Bizə deyilib ki, bir nəfər ”Səni axtarıram"a baxanda dünyasını dəyişib. Biz də gedib maraqlanmışıq. Hamı da bunu təsdiqləyib ki, ölüm anı verilişə baxarkən baş verib. Amma ailə üzvləri onun ölümünə ürək xəstəliyinin səbəb olduğunu deyib. Yəni burda yayılmış bir şayiə və onun əsasında aydınlaşdırılma var. Qara “piardan”, hansısa verilişi qaralamadan söhbət gedə bilməz. Jurnalistin bütün xəbərlərin arxasınca düşüb, onu aydınlaşdırma haqqı var. Yazıda balans qorunub, heç kəsə qarşı qərəz yoxdur. Yeri gəlmişkən, biz bu reportajla bağlı Xoşqədəm Hidayətqızından müsahibə almağa cəhd etsək də, o, bizimlə danışmadı. Hesab edək ki, bu da onun seçim hüququdur".

**Media ekspertlərinin də olayla bağlı baxışı maraqlıdır. “Yeni Nəsil” Jurnalistlər Birliyinin sədri Arif Əliyev hesab edir ki, jurnalistikada heç bir mövzuya qadağa qoymaq olmaz:** “Əgər fakt özü baş veribsə, bu mövzu araşdırılmalı, işlənilməlidir. Mülahizələrdə yanlışlıq ola bilər. Əsas odur ki, faktın özündə yanlışlıq yoxdur. Amma sözügedən yazıya, onun müəllifinə qarşı konkret ittiham irəli sürmək üçün birbaşa əsas görmürəm. Birincisi, bunun üçün yazının özünü oxumaq lazımdır. İkincisi, ittiham o zaman əsaslı ola bilər ki, fakt özü yanlış olsun.

Burda ittiham üçün əsas görmürəm. Jurnalistə deyə bilərlər ki, sən səhv düşünürsən. Amma ona demək olmaz ki, sən niyə bu mövzunun arxasınca düşüb onunla maraqlanmısan".

**A.Əliyev dedi ki, əgər reportajda mövqelər arasında balans saxlanılıbsa, orada qara “piar” yoxdur. Onun sözlərinə görə, qara “piar” bir istiqamətdə kimlərisə qaralamaqdır:** “Avropa Məhkəməsində də buna bənzər işlər olub. Orda da nəticə hər zaman belə olub ki, istənilən doğru fakt bütün mülahizələrə haqq qazandırır. Hətta o mülahizələrdə insanları şoka salan fikirlər olsa da”.

❑ SELCAN

# Gicərköyün


Aygün MURADXANLI

**Bakı əhlinin bir sözü var - gicərköyün. Gicərköyün daha çox varlıların... yox, harınların super ərköyün uşaqlarına deyilir. Heç bir istəyinin qarşılığında etiraz eşitməyən bu uşaqların vaxt keçdikcə ciddi psixoloji problemləri yaranır. Onlara elə gəlir ki, hər şey eləyə bilərlər - atalarının pulu çatırsa, deməli, haqları da çatır. “Haqq” sözünü yuxarılara haqq vermək mənasında demədim, söhbət həm hüquqdan, həm də mənəvi kateqoriyadan gedir. İstəklər, imkanlar, ataların başqa harınlarla “mənim balam sənin balanda da bərk gedər” iddiaları böyüdükcə bu uşaqlar çevrədəkilərə loru dillə desək, gic, yəni hərəkətləri üçün cavabdehlik daşımayan ruhi xəstələr - dəlilər kimi görünməyə başlayır. Beləcə, çevrilib olurlar gicərköyün.**

Düzdü, ilk baxışdan “gicərköyün”sözündə bir az təhqir elementi varmış kimi görünür. Ancaq dərinə gedəndə, sözün ünvanının hərəkətlərinə baxanda, görürsən babalar elə düz deyir. Ağlı başında olan adam yüz minlərlə dəyəri olan maşını şəhər küçələrində at kimi səyirdər? Səyirtməz. Hələ birini dedim.

Yaxınlarda dünyanın məşhur gicərköyünlərindən Gülnarə Kərimovanın başına iş gəlib - prezident atası İslam Kərimov onu ev dustağı edib. Özü də 7 aydır. Ağır dərddir. Sözümdə ironiya axtarmayın lütfən, qəti lağ eləmirəm, doğurdan ağırdır. İllərdir 30 milyon insanı zağ-zağ əsdirəsən, ölkəndə müxalifət təşkilatı, azad söz, media nədir, and içməyə bir nəfər belə müxalifətçi qalmasına imkan verməyəsən, Amudərya ilə Sırdəryadakı balıqlar belə az qala sənin verdiyin istiqamətdə üzə, ancaq canından, qanından qızının ipini yığa bilməyəsən. Heç atanın başına gəlməsin deyərdim, ancaq demirəm. Kərimov kimi ataların başına bundan da artığı gəlsin.

Gülnarə Kərimova gah ölkəsinin İspaniyadakı səfiri olurdu, gah dədəsinin xanimanının BMT-də və digər beynəlxalq qurumlardakı təmsilçisinə çevrilirdi, meyli çəkəndə atasına xarici işlər nazirinin müavini olması üçün fərman imzalatdırırdı, gah millətin önünə pop ulduzu qiyafəsində - üryan gəlirdi, gah “Guli” brendinin sahibi, gah mediamaqnat kimi ortaya çıxırdı. Vaxt var idi onunla bircə dəfə şam yeməyi yeməli üçün Hollivudun, dünyanın kino, idman ulduzlarının ayaqlarının altına milyonlar səpələyirdi. Jerar Depardyedən başlayan, ünlü portuqaliyalı futbolçu Kriştian Ronaldo ilə davam edən bu siyahılarda kimlər yoxdur?.. Xətri istəyəndə ulduzlara Avropanın bahalı paytaxtlarında, dəvətlilər ekzotik Şərqlə tanış olmaq istəyəndə Daşkənddə kef məclisləri düzənlənirdi. Əmrlərə müntəzir özəl uçaqlar, dəbdəbəli saraylar, bahalı hədiyyələr də öz yerində.

İngiltərə mediası yazır ki, Gülnarəni atası siyasi səbəblərə görə ev dustağı edib. Bu ingilislər də qəribədir. Gülnarə elə-belə qızdı ki, onu sıradan səbəblərlə ev dustağı eləsinlər? Bəlkə, bu ingilislərə elə gəlir, atası xanım Kərimovanın cibinə nəşə atıb tutdurmalı idi? Ya yolla gedəndə Sevgiləkə adlı birinə çəp baxdığına görə boynuna xırda xuliqanlıq qoyulmalı idi? Yox, cənab ingilislər, siz Şərqi başa düşə bilməzsiniz. Şərq incə məsələdir. Bizdə övlad 18 yaşa çatanda qapını açıb ona “sənə yaxşı yol” komandası vermirlər. Ölənə qədər valideyn övladına sahibdir - yaxşısına da, pisinə də. İndi İslam Kərimov da vaxtı ilə qudurduğu qızına belə sahib çıxıb.

Əslində Gülnarənin ev dustaqlığı məsələsində Qərbin də suç payı var. Ona görə ki, illərdir xanım Kərimova sadə, fağır, məğmın, itaətkar, dilsiz-ağızsız, üstəlik şahsevən özbək xalqının milyardlarını məhz Qərbə yedizdirir. Qərb atasının belə demək mümkünsə, siyasi iradə nümayişinə qədər Gülinin hansı istəyinə yox deyib ki? Avropada dəyəri milyonlarla ölçülən mülklər almaq istəyib, alıb, ünlü brendlərlə işbirliyi qurmaq istəyib, qurub, siyasi tribunalarda görünmək istəyib, görünüb. Özbəkistana gəlmək istəyən şirkətlər ata İslam Kərimovun qapısını qızının əli ilə döyüb. Ortada Qərb şirkətlərinin Gülnarə Kərimovaya verdiyi fantastik məbləğlərdə rüşvət iddiaları var. Özünü dünyaya demokratiyanın qoruyucusu kimi təqdim Qərbə elə gəlməsin ki, Şərqdə bunu düşünən başlar yoxdur.

Sadəcə o başlar başa düşə bilmir ki, niyə Qərb Özbəkistanda Gülnarə Kərimova, Azərbaycanda Anar Məmmədov kimi tiplərlə münasibət qurur. Ayıyeyənsiz?

YENİ MÜSAVAT
N 234 (5943) 19 sentyabr 2014




## Avtobus dairəvi yolda yük maşını ilə toqquşdu

**Bakı dairəvi yolunda növbəti ağır qəza baş verib. Hadisə yerində olan əməkdaşımızın verdiyi xəbərə görə, "Sədərək" yarmarkası istiqamətində irəliləyən sərnişin avtobusu əks tərəfdən gələn yük maşını ilə toqquşub. Çoxlu yaralananlar var.**

Hadisə yerinə təcili yardım maşınları cəlb olunub və onlar yaralıları xəstəxanaya daşıyıblar. Yol bağlanıb.

Qəzanın hansı sürücünün günahı üzündən törənməsi yol polisləri tərəfindən araşdırılır.

Bakı Şəhər Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkiminin müavini Oqtay Şahmalıyevin APA-ya verdiyi məlumata görə, qəza barədə təcili yardıma saat 10.56-da məlumat daxil olub və hadisə yerinə 2 təcili yardım briqadası göndərilib.

O qeyd edib ki, 188 saylı sərnişin avtobusunun yük avtomobili ilə toqquşması nəticəsində 5 nəfər xəsarət alıb. Xəsarət alanların 2-si Respublika Klinik Xəstəxanasına, 3-ü isə Klinik Tibbi Mərkəzə yerləşdirilib.

❑ Musavat.com

## Bakı metrosunda ölüm



**Sentyabrın 18-də səhər saat 08:00 radələrində Bakı Metropolitenində ölüm halı baş verib. Hadisə şahidlərinin verdikləri məlumata görə, metronun "Koroğlu" stansiyasında qatarda 62 yaşlı kişinin halı qəfil pisləşib.**

Dərhal onu platformaya çıxarıblar. Kişinin halı getdikcə pisləşdiyindən hadisə yerinə təcili yardım həkimləri çağırılıb.

Təcili yardım hadisə yerinə çatana qədər kişi dünyasını dəyişib. Hadisə insanların gözü qarşısında baş verib.

İlkin ehtimala görə kişi ürək çatışmazlığından ölüb.


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbəbəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** *(enurez)*
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq borularının keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


## Bakıda Qurban qadağası...

### Virus yayılan kəndlərdən heyvan gətirilməsinin qarşısı alınacaq

**Qurban bayramı ərəfəsində dövlət qurumları Bakı və ətraf qəsəbələrdə reydlərə başlayacaq. ANS PRESS-in məlumatına görə, yoxlamalarda ətin, o cümlədən diri heyvanın qiymətinin süni şəkildə qaldırılmasının və keyfiyyətsiz məhsulların bazarlara çıxarılmasının qarşısı alınacaq.**

Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamentinin rəhbəri Əliabbas Bağırov açıqlamasında bildirib ki, hər il olduğu kimi bu il də Bakıda və ətraf qəsəbələrdə qurbanlıq heyvanlıqların satışı təşkil olunan yarmarkalar keçiriləcək. Yarmarkaların keçirilməsində başlıca məqsəd bayram ərəfəsində ət və ət məhsullarının, eləcə də diri heyvanların qiymətinin artırılmasının qarşısını almaqdır.

"Hansısa satış məntəqələrində qanunsuzluq aşkar olunarsa, cavabdeh şəxslər ciddi şəkildə cəzalandırılacaq", - deyə Əliabbas Bağırov bildirib.

Dövlət nümayəndələri əminliklə bildirirlər ki, Qurban bayramı ərəfəsində ət və ət məhsullarının qiymətində heç bir artım olmayacaq. İqtisadi və Sənaye Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyevin ANS PRESS-ə verdiyi məlumata görə, artıq reydlərə başlanılıb.

Qeyd olunan günlərdə əhalinin müxtəlif ərzaq məhsullarına olan tələbatının artmasını nəzərə alaraq bazarlarda reydlər keçirilir. Nazirlik yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən nəzarət tədbirləri keçirilir. Bazarlarda intensiv olaraq yoxlamalar aparılır. Əgər kimsə süni qiymət artımı halları ilə rastlaşarsa, o zaman nazirliyə məlumat versin", - deyə Abbas Əliyev bildirib.

Qeyd edək ki, hazırda təşkil olunacaq satış yarmarkalarının ünvanları hazırlanır. Yarmarkalar əsasən ötən illər təşkil olunmuş ərazilərdə keçiriləcək. Lakin ola bilər ki, satış yarmarkalarının sayı artırılsın və əlavə məntəqələr təşkil olunsun.

Bazara çıxarılacaq ətin keyfiyyətinə gəlincə, Dövlət Baytarlıq Xidmətindən əminliklə bildirilir ki, bu baxımdan da heç bir problem olmayacaq. Baxmayaraq ki, ötən aydan bəzi rayonlarda iribuynuzlu heyvanlar arasında yoluxucu xəstəlik yayılmışdı. Əsasən Biləsuvar, Ucar, Cəlilabad, Ağdaş, Bərdə, Samux, Laçın, Zərdab rayonlarında heyvanlar arasında "Nodulyar dermatit" adlı xəstəliyə rast gəlinir.

Dövlət Baytarlıq Xidmətinin mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəlinin ANS PRESS-ə verdiyi məlumata görə, həmin rayonlardan gətirilən heyvanlar ciddi şəkildə yoxlanılacaq. Onun sözlərinə görə, hansı kənddə virus aşkar olunubsa, həmin yerlərdən heyvan gətirilməsinin qarşısı alınacaq.

""Nodulyar dermatit" virusu yayılan kəndlərdən heyvan gətirilməsi məhdudlaşdırılacaq. Bundan başqa, satışa çıxarılacaq heyvanlar bir neçə mərhələdə yoxlamalardan keçiriləcək. Heyvanların limfa düyünlərindən nümunələr götürülərək, analiz olunacaq. Bundan başqa, bütün sallaqxanalarda xüsusi yoxlamalar təşkil olunacaq. Heyvanların kəsilmə şəraitinə ciddi şəkildə nəzarət olunacaq", - deyə Yolçu Xanvəli bildirib.





## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34




## Azərbaycanlı dünya çempionu yol qəzasında öldü

**Boks üzrə dəfələrlə dünya çempionu olmuş Mirqasım İsayev yol-nəqliyyat qəzasında həlak olub. Avropa.info-nun milli.az-a istinadən verdiyi məlumata görə, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) Kaluqa şəhərindəki şöbəsinin banilərindən biri, "AMOR-Kaluqa" futbol komandasının qapıçısı, məşqçi, 26 yaşlı M.İsayevlə vida mərasimi dünən keçirilib.**

İki övlad atası doğma yurdunda, İmişli rayonunda dəfn ediləcək.

AMOR M.İsayevin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

Allah rəhmət eləsin!



## Üstündən tapança çıxan vətəndaş: "Nə danışırsan, namaz qılanam"

### "Ziyarətə gedirdim, ayağıma bir şey dəydi, gördüm ki, tapançadır..."

**Sumqayıt Şəhər Baş Polis İdarəsinin 2-ci polis bölməsinin əməkdaşları gecə saat 02 radələrində şəhər sakini Hümbətov Yusif İsrafil oğlunu şübhəli şəxs qismində yaxalayıblar.**

APA TV xəbər verir ki, onun üzərinə baxış keçirilərkən "Makarov" tipli odlu silah, 2 güllə və sandıqca aşkar olunub. Saxlanılan şəxs tapançanı bir ay öncə ziyarətə gedərkən yol kənarından tapdığını bildirib: "Ziyarətə gedirdim, ayağıma paket dəydi. Atdım vedrənin içinə, gizlətdim, sonra getdim Rusiyaya. Ayın 30-da qayıtdım. Fermanın yanından keçəndə yadıma düşdü ki, silah gizlətmişəm. Götürdüm, istədim aparıb 2-ci bölməyə təhvil verim. Kafedə oturmuşdum, çay içirdim, gördüm polis əməkdaşları yaxınlaşdılar. Dedilər, gedək bölməyə, üstündə nə var? Dedim, tapança var, vəssalam".

İdarədə təkrar-təkrar səmimi olduğunu deyən Yusif Hümbətov silahı həqiqətən tapdığını, ondan istifadə etmək niyyətində olmadığını bildirib. Müxbirin "belə çıxır ki, satmaq niyyətiniz olmayıb" sualı saxlanan şəxsin xoşuna gəlməyib: "Nə danışırsan, namaz qılan, Allaha ibadət edən adamam. Bu şey mənə lazımdır?!"

Polisdən isə bildiriblər ki, Yusif Hümbətov əməliyyat məlumatı əsasında saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 228.1 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, satma, daşıma, saxlama, gəzdirmə) və maddəsi ilə cinayət işi başlanıb.


## ORİJİNAL AKSESUARLAR

Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ

Ünvan: 3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza

# Rəsmi Bakının "sülhə də hazırıq, müharibəyə də" mesajı

**Avqustun əvvəllərində cəbhə xəttində yaşanan üç günlük müharibənin beynəlxalq gücləri ciddi narahat etdiyi ilk günlərdən bəlli idi. Həmçinin, ermənilərin təxribatları və atəşkəsi pozması nəticəsində cəbhədə yaranan gərginlik zamanı Azərbaycan ordusunun kifayət qədər güclü olduğunu anlayan Ermənistan da təşvişə düşdüyünü gizlədə bilmədi. Baş verənlərin ardınca prezidentlərin Soçi görüşünün təşkil edilməsi, daha sonra NATO sammiti çərçivəsində Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünün baş tutması, həmçinin Fransa prezidentinin oktyabrda iki ölkə başçısı ilə görüş təyin etməsi bəlli güclərin bu məsələdə hərəkətliliyinin artmasının göstəricisidir. Yəni bu güclər yenidən müharibənin başlaya biləcəyindən narahatdırlar. Onlar əmindirlər ki, sülh danışıqları nəticə verməyəcəyi təqdirdə Azərbaycanın öz torpaqlarını azad etmək üçün hər an döyüşlərə start verəcəyi qaçılmazdır və buna haqqı var.**

## Azərbaycan Qarabağ probleminin həllinə hər iki istiqamətdə səy göstərir; həm danışıqlar prosesi üçün mövqelər gücləndirilir, həm də döyüş hazırlıqları artırılır; **Elmar Məmmədyarov:** "Həmsədr ölkələr tərəfindən də bəyan edildiyi kimi, mövcud "status-kvo" qəbuledilməzdir"



Bu səbəbdən beynəlxalq güclər, həmsədr ölkələr sülh danışıqlarının hansısa bir nəticə verməsi üçün yeni yollar axtarışında olduqlarına dair də açıqlamalar veriblər. Ekspertlər baş verənləri təhlil edərək bildirirlər ki, Qarabağ probleminin çözülməsi üçün danışıqların yeni mərhələsi başlayır. Bu mərhələdə hansı nəticə hasil olacağını hələlik demək mümkün deyil. Amma görünən budur ki, rəsmi Bakı bu mərhələdə haqlı mövqeyinin qəbul olunması və şərtlərin yalnız Azərbaycanın maraqlarına uyğun olması üçün mümkün addımları atır. Azərbaycan tərəfinin həm sülh danışıqlarında mövqelərini gücləndirmək üçün səylərini artırdığı, eyni zamanda sülh danışıqları bu mərhələdə də baş tutmayacağı təqdirdə öz torpaqlarını hərbi yolla azad etmək üçün döyüş hazırlığını gücləndirdiyi müşahidə olunmaqdadır.

Rəsmi Bakı öz haqlı mövqeyinin qəbul olunması üçün beynəlxalq tribunalardan yararlanır. Buna misal olaraq sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə Moldovanın paytaxtı Kişnyovda "Ölkələrin ərazi bütövlüyü və insan haqlarının qorunması" adlı beynəlxalq konfransın keçirilməsini göstərmək olar.

Konfransa Moldova, Azərbaycan, Gürcüstan, Israil, Ukrayna, Qazağıstan, ATƏT və Avropa Birliyindən 100-ə yaxın QHT, media, diplomatik korpus nümayəndəsi, beynəlxalq ekspert qatılıb.

Moldovanın sabiq prezidenti Petru Luçinski (1997-2001) və sabiq ombudsmanı Aurelia Grigoriu çıxışlarında hər zaman ölkələrin ərazi bütövlüyü prinsipinin prioritet kimi götürülməsinin zəruriliyini vurğulayıblar.



Konfransda çıxış edən Moldovanın baş prokurorunun müavini konkret faktlar göstərərək postsovet ölkələrinin ərazilərində ortaya atılmış separatçı qurumların ayrılmaq iddialarının hüquqi bazasının olmadığını və bunun beynəlxalq hüquqla tam ziddiyyət təşkil etdiyini bildirib.

Ukraynanın Moldovadakı səfiri Sergey Pirojkov konfransda çıxışında Ukraynada baş verən son separatçılıq hərəkətlərinin heç bir hüquqa əsaslanmadığını qeyd edərək beynəlxalq ictimaiyyəti ölkələrin ərazi bütövlüyünün qorunması məsələsində fəal olmağa səsləyib.

İsrail təmsilçisi Arye Gut isə Ermənistanın real olmayan, təhlükəli ideyanın arxasınca qaçdığını bildirərək ermənilərin mövcud hakimiyyətləri ilə bağlı həlledici qərar qəbul etməli olduğunu vurğulayıb.

Ölkəmizin Moldovadakı fövqaladə və səlahiyyətli səfiri Namiq Əliyev BMT başda olmaqla, bir çox beynəlxalq təşkilatın qəbul etdiyi qətnamə və bəyannamələrə rəğmən Ermənistanın 20 ildən artıq müddətdə Azərbaycanın suveren ərazilərini işğal altında saxladığını deyib. Səfir Azərbaycanın bütün sahələrdə uğurlu inkişafının dünyada etiraf olunduğunu, Ermənistanın isə korrupsiya və sosial problemlər içərisində çabaladığını deyərək ölkəmizin ərazi bütövlüyü məsələsində birmənalı mövqeyini ifadə edib.

Qeyd edək ki, konfransda şuranın baş məsləhətçisi Mustafa Qurbanlı da iştirak edib.

Bu arada isə xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan Polşa xarici işlər nazirinin müavini Tomaş Orlovskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən maraqlı fikirlər səsləndirib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, görüşdə iki ölkə arasında əlaqələrin mövcud inkişaf səviyyəsindən məmnunluq ifadə olunub.

T. Orlovski Polşa tərəfindən Azərbaycanın Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizliyin təmin olunmasında rolunun yüksək qiymətləndirildiyini qeyd edib. O, beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün NATO əməliyyatlarına verdiyi töhfələrinə görə də Azərbaycana təşəkkürünü ifadə edib.



Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin region üçün əsas təhlükə mənbəyi olduğunu qeyd edərək, ATƏT Minsk Qrupunun həmsədr ölkələri tərəfindən müxtəlif səviyyələrdə bəyan edildiyi kimi, mövcud "status-kvo"nun qəbuledilməzliyini vurğulayıb. E. Məmmədyarov münaqişənin həlli üçün ilk növbədə Ermənistanın silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu diqqətə çatdırıb.

Avropa İttifaqı (Aİ) ilə əlaqələrə dair aparılan müzakirələr əsnasında Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində əməkdaşlığın dövlətlərin imkanları və fərqli maraqları nəzərə alınaraq, inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Həm Moldovadakı tədbirdə səslənən fikirlər, həm də E.Məmmədyarovun açıqlaması dünyaya bir mesajdır ki, danışıqların yeni mərhələsində nəticəyə nail olunması üçün bircə şərt var; Ermənistanın işğalçılıq siyasətindən çəkindirilməsi.

Rəsmi Bakı sülh danışıqlarında maraqlı olduğunu bildirməklə yanaşı, həmçinin burada onun haqlı mövqeyinin nəzərə alınmalı olduğunu qeyd edir və bu yöndə mövqelərini diplomatik qaydada gücləndirmək üçün çalışır.

Bununla paralel olaraq Azərbaycan öz hərbi qüdrətini və döyüş hazırlığını da artırmaqla sülh danışıqları nəticə verməyəcəyi halda, torpaqlarını azad etmək əzmindədir.

Məsələn, bugünlərdə Türkiyənin "Roketsan" şirkəti aldığı sifariş əsasında Azərbaycana "Kasırğa T-300" reaktiv sistemlərini verməyə başlayıb.



Virtualaz.org saytı xəbər verir ki, bu haqda şirkətin rəhbəri Eyup Kaptan TRT kanalına açıqlamasında bildirib.

Eyup Kaptan məlumat verib ki, Azərbaycanın sifariş verdiyi bir diviziyon *(4 kompleks)* "Kasırğa T-300" sistemi ilin sonunadək çatdırılacaq. Hər kompleksin tərkibinə 4 raket daşıya bilən mobil platforma, komanda-nəzarət mərkəzi, hava hücumundan müdafiə sistemi və radar daxildir.

Sistemin komponentlərinin hamısı mobil platforma üzərində yerləşdirilib. Bu da "Kasırğa T-300" sistemlərinin düşmən hədəflərinə dağıdıcı zərbə endirdikdən sonra qısa müddət ərzində öz mövqeyini dəyişdirməsinə, beləliklə, düşmənin cavab zərbələrindən yayınmasına imkan verir.

"Roketsan" şirkəti bundan əvvəl Azərbaycana 122 mm-lik raketlər atan "Sakarya" reaktiv yaylım atəşi sistemlərini də satıb. "Kasırğa T-300" sistemləri isə regionda ən güclü və ən dağıdıcı reaktiv sistemdir. Bu sistem 300 millimetrlik raketlərlə təchiz olunub və 150 kilometr məsafədən hədəfi darmadağın edə bilir.

Öz göstəricilərinə görə "Kasırğa T-300" Rusiya istehsalı olan və son vaxtlara qədər öz sinfində ən güclü silah hesab edilən "Smerç" reakiv yaylım atəşi sistemlərini də üstələyir. Belə ki, "Smerç" sistemləri daha kiçik kalibrli raketlərlə təchiz olunub və raketlərin tipindən asılı olaraq hədəfi 90-150 kilometr məsafədə vurur.

Xatırladaq ki, Azərbaycan Rusiyadan iki divizion *(hər divizionda 18 sistem)* "Smerç" sistemləri alıb.

"Kasırğa T-300" sistemləri isə düşmən nəzarəti altında olan ərazilərin dərinliklərində yerləşən hədəflərə, o cümlədən hərbi bazalara, qoşunların cəmləşdiyi yerlərə, nəqliyyat şəbəkələrinə, inzibati və sənaye obyektlərinə zərbələr endirmək üçündür.

E.Kaptan bildirib ki, sınaqlar zamanı 5-10 "Kasırğa" qurğusundan açılan yaylım atəşi *(bu isə 20-40 arası güclü döyüş başlığı deməkdir)* 1 kilometr radiusda düşmənin bütün canlı qüvvəsini məhv etməyə təminat verir.

"Kasırğa T-300" sistemlərinin alınmasından sonra Azərbaycan keçmiş sovet regionunda ən güclü reaktiv sistemlərə malik olan ölkəyə çevrilir. Belə ki, Azərbaycanın sərəncamında İsraildən alınan "Linx" reaktiv sistemləri, Rusiya istehsalı olan "Uraqan" və "Smerç" sistemləri, Türkiyə istehsalı olan "Sakarya" və "Kasırğa"lar, "Qrad" qurğuları, habelə Pakistandan alınan və hədəfi 1500 kilometr məsafədən vuran ballistik raketlər və s. var.

Bu güclü silah sistemləri ərazilərin işğaldan azad edilməsi əməliyyatı zamanı hələ quru qoşunları və tank birləşmələri döyüşə girmədən düşmən hədəflərini, o cümlədən onun komanda-qərargah mərkəzlərini, dərinliklərdə yerləşən təchizat anbarlarını və kazarmalarını məhv etməyə imkan verir.

Bu arada Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən sentyabrın 13-dən başlayaraq irimiqyaslı təlimlər keçirilir.

Təlimlərdə iştirak edən bütün qoşun növlərinin döyüş hazırlığının səviyyəsi, tapşırıqların daha operativ və səmərəli yerinə yetirilməsi, qarşılıqlı fəaliyyətin və təminatın təşkili, qarşıya qoyulan tapşırıqların icrası yoxlanılıb.

Təlim mərkəzləri və poliqonlarda motoatıcı və tank bölmələrinin, raket və artilleriya qurğularının, zenit-raket komplekslərinin, döyüş təyyarə və helikopterlərinin döyüş atışları icra olunub, praktiki raket buraxılışları və bombalama həyata keçirilib.

Təlim nöqtələri, texniki təminat, təmir-bərpa, səyyar ideoloji məntəqələrə və mobil səhra hospitalına baş çəkən Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimdə fərqlənən hərbi qulluqçuları mükafatlandırıb.

Təlimlərdə iştirak edən quru qoşunlarının birləşmə və hissələri sentyabrın 18-də müxtəlif şəraitlərdə, o cümlədən dağlıq ərazidə hücum əməliyyatının təşkili, yüksək sürətlə və böyük dərinliklərdə aparılması, taktiki hava desantının, reyd və ön dəstələrinin tətbiqi, əməliyyatların hərtərəfli təminatı üzrə tapşırıqları yerinə yetiriblər.

**Təlimlər sentyabrın 20-dək davam edəcək.**



YENİ MÜSAVAT
N 234 (5943) 19 sentyabr 2014




Cümə söhbətləri

# Həyatı düzgün yaşamaq resepti

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Bismilləhir-Rahmənir-Rahim! İnsan həyatının ən ciddi məsələlərindən biri budur ki, onun gərək yaşayışına, baş verənlərə bəsirəti, baxış əhatəsi olsun. Əgər bu olmasa insan çox dar, məhdud, qapalı mövcudiyyətdə olar. Hər durum, vəziyyət, hal üçün çıxış yolları axtarar. Bəzən o çıxış yolları da öz-özlüyündə insana doğru-dürüst görünə bilər. Lakin diqqət edəndə anlayar ki, əslində çox yanlış, səhv yanaşma sərgiləmişdir.**

Bu, həyatın hər bir sahəsinə - istər mənəvi-ibadi məsələlərə, istər fərdi mükəlləfiyyətlə bağlı işlərə, istər iqtisadi məsələlərə, istərsə də ictimai həyata aid məsələlərə aiddir. İnsanın mövcudiyyətinə və həyatına baxışı bu cür olmasa ki, bir neçə il yaşayıb, sonra bu dünya ilə vidalaşır, onun bütün həyata bəsirəti baxışı da olmaz. Yəni bu dünyanın müvəqqəti mahiyyətini qavramayan, diqqətdə saxlamayan insan, özündə həyata düzgün baxış formalaşdıra bilməyəcək, öz həyati prioritetlərini düzgün müəyyən etməkdən məhrum olacaqdır.

## Dünyani doğru yaşamaq bəsirətlilikdən keçir

İnsan öz həyatının bir neçə onillikdən ibarət olduğunu nəzərə alsa, çox şeylərə əhatəli baxa biləcək. Bizim bütün çətinliklərimizin kökündə dayanan budur ki, bu baxışı unuduruq. Nəticədə mükəlləfiyyətimizi bəzən dərk edə bilmirik. Bütün bəşəriyyət bu dünyaya bir gün gəlir və bir gün yetişir ki, həyata əlvida deməli olur. Hər gün nə qədər insan dünyasını dəyişir və nə qədər insan dünyaya gəlir. Hər an, hər dəqiqə bu mütəmadi, təkrar-təkrar baş verir.

Bir də görürsən ki, insan elə bir şeyləri özü üçün bu dünyada dərd edir ki, növbəti on ili üçün o dərdlər gülməli gəlir. On yaşında uşağın özünə dərd etdiklərinə insan iyirmi yaşında güləcək. Amma insanın ümumi baxışı olsa, çox məsələləri bəri başdan qaydasına qoyar. Dediyimiz kimi, bəsirətlilik həyatın bütün sahələrinə aiddir. İnsanlar qırx-əlli yaşında olarkən ailə həyatında başa düşdüklərini iyirmi-otuz yaşında başa düşsəydilər və ya ümumi baxışa sahib olsaydılar, sözsüz ki, daha fərqli həyat tərzləri olardı.

İnsan hər bir məsələyə ümumi deyil, ayrı-ayrılıqda yanaşsa, elə zənn edər ki, olduğu vəziyyət - ən prioritet məsələsidir. Misal üçün, bir insan ağrı hiss edərkən, elə zənn edir ki, dünyada yeganə aktual məsələ - onun ağrısıdır. Bu, bir çox insanlara tanış olan haldır.

Toxunulan mövzu təkcə fərdi müstəviyə aid deyildir. İctimai həyatda da bütün məsələlərə ayrı-ayrılıqda baxılması zərərlidir. Bir il, beş il, on il çərçivəsində bəzən doğru görsənən şeylərin daha çox müddət üçün yanlış olduğu üzə çıxır. Bir ay ərzində düz görsənən məsələlərin beş ay ərzində yanlışlığı ortalığa çıxa bilər. Həqiqət budur ki, hər bir insanın Allah qarşısında öhdəlikləri var. İnsan onları anlasa, həyatına bəsirətli yanaşar. İnsan Yaradan qarşısında missiyasını dərk etsə, tamamilə fərqli həyat yaşayar. İnsanın bəsirətli həyat yaşaması - həyatını ümumilikdə düzgün yaşamasının universal reseptidir.

## Bütün dünya qəmləri bəsirətsizlikdən qaynaqlanır

Həzrət Əmirəlmöminin (ə) buyurur: **“Bəsirətli - eşidərək düşünən, baxaraq görən, ibrətlərdən bəhrələnən, sonra aydın yolları qət edən və beləliklə uçurumlara düşməkdən çəkinən şəxsdir”.** Həzrət (ə) bizlərə bəsirətli insanın formulunu göstərir. Hər kəs eşidir, amma çoxları düşünmür. Hamı baxır, amma adamların çoxu görmür. Hər kəs cürbəcür hadisələrlə qarşılaşır, amma əksəriyyət onlardan ibrət götürmür. Bəsirətli insanın o qədər dərin üfüqləri görmək bacarığı var ki, bilir ki, qarşıda uçurumlar var. Anlayır ki, uçuruma düşsə, məhv olacaq. Ona görə də büdrəyən kimi qalxır və hər şey edir ki, ora düşməsin. Anlaya bilir ki, müvəqqəti qəflətlər insanı uçuruma aparar. Bunun rahat həlli isə ölümü xatırlamaqdan keçir. Bu an ölsə, nə baş verəcək? Nələr onu darıxdıracaq, nələr onu düşündürəcək, içərisindəkilərdən nələr narahatlıq meydana çıxaracaq? Ölümü yada salmaq bütün həyatı qaydasına salır. Bunu təsəvvür etmək, insana bəsirətli dünyagörüşünü verir.

Bütün pessimistliklərin, dünyəvi qəmlənmələrin də dərmanı - bəsirətlilikdir. Bütün dərdlərin çarəsi - geniş baxışa sahib olmaqdadır. Çünki, insan geniş baxmayanda, üfüqləri görməyəndə, hər şeyə bu saniyə ilə yanaşanda, düşünür ki, bu nə həyatdır yaşayır?! Həyatını bütöv görəndə və əhatəli baxanda, başa düşür ki, hər şey bu saniyə ilə müəyyən edilmir. Yalançı xoşhaledici şeylərə də aldanmır. Əksinə, gerçək imtahanların fərqinə vara bilir.

Bizlər çox şeyi eşidirik, çox şeyləri dilimizə gətirik. Gündəlik namazlarımızda dəfələrlə “Yalnız Sənə ibadət edirik, yalnız Səndən yardım istəyirik” deyirik. Amma bunun barədə düşünürükmü? Ümumiyyətlə yalnız Ondanmı istəyirik? Hər gün külli miqdarda ibrət götürülməli məsələlərlə qarşılaşırıq. Onların neçə faizindən ibrət götürürük? Həyatımızda aydın yolları kənara qoyub, mürəkkəb yolları getməyə üstünlük veririk.

Bəsirətli insan o kəsdir ki, uçurumlu yollardan çəkinir. Yəni əhatəli baxış ona imkan verir ki, yolunun üstündəki uçurumları görsün və bu reallığı nəzərə alaraq, həyat yolunu addımlasın.

## Ən bəsirətli insan kimdir?

Həzrət Əmirəlmöminin (ə) insanların ən bəsirətlisinin kim olduğunu açıqlayır: **“İnsanların ən bəsirətlisi - öz eyblərini görən və öz günahlarından əl çəkən şəxsdir”.** Bəsirətli insanın tam baxış əhatəsi var, ona görə də eyblərini görə bilir. Görə bilir ki, çox danışandır, qeybətə meyllidir, günaha meyllidir və s. Bəsirətli insan diqqət edər ki, namazlarına münasibəti necədir. İnsan gərək özünü təftiş etsin, nəzarətdən keçirsin. Bəsən insan düşünür ki, ən ideal vəziyyətdədir, heç bir eybi, qüsuru yoxdur. Bu insanın qətiyyən bəsirəti yoxdur. Bəsirəti olan insan öz durumundan xəcalət çəkər. Necə ki, mütəxəssis, ixtisası olan məsələyə baxanda bütün eybləri görə bilir, eləcə də bəsirəti olan insan öz eyblərini görə bilər. Bizim dünya məsələlərində müəyyən baxışımız var. Amma özümüzə tam, əhatəli baxa bilmirik.

Bəsirətli insanın vəziyyəti elə bir həddə çatar ki, özünü düşünməyi kənara qoyar. Anlayar ki, özü ilə bağlı olan məsələlər nəhayətdə bu dünyada qalacaq. Ancaq digər insanlarla bağlı gördüyü işlər, insanlara etdiyi yaxşılıqlar onun bu dünyada olub-olmamasından asılı olmayaraq, heç bir zaman bu dünyadan getmir. Bundan əlavə həmin etdiyi yaxşılıqların mükafatı da Qiyamətdə ona çatır. Əziz İslam Peyğəmbəri (s) buyurur: **“Hər kim mömini şad edər - məni şad etmişdir. Hər kim məni şad edər - Allahı şad etmişdir”.** Biz hamımız iddialıyıq ki, əziz Rəsulullahı (s) şad edək. Peyğəmbərimizi (s) şad etməyin yolu - möminləri sevindirməkdən keçir. İnsanın daxilinin vəziyyəti çox mühümdür. Bir var ki, insan elə yaşamaq istəyir ki, digər insanlar onun rəftarlarından xoşhal olsun, problemləri aradan getsin, insanların dərdlərini aradan aparsın. Bir də var ki, insan başqalarının problemlərinə, çətinliklərinə sevinir. Belə insan - daxili çürümüş vəziyyətdə olan insandır. Əgər insan bir mömini şadlandırsa, əziz Peyğəmbərini (s) şadlandırmış olar. Peyğəmbəri (s) şadlandıran insan - Allahı şadlandırıb.

Əslində mahiyyət etibarilə bu, Allah bəyənən xətt üzrə davranmaq deməkdir. Başqasının pisliyini istəmək, başqasının halına şərik olmamaq, başqasına laqeyd olmaq bioloji varlıq olmaqdan o yana bir şey deyil. Normal insan başqalarına şəfqətlə, məhəbbətlə, hörmətlə yanaşar. İndi bəşəriyyətin ən çox ehtiyacı olan məsələ budur. Bəşəriyyətin mehribanlığa, hörmətə, qayğıya ehtiyacı var. Bəşəriyyət indi elə bir vəziyyətdədir ki, hamı bir-biri ilə kobudluq edir, hamı bir-birinə əsəb nümayiş etdirir. Bəşəriyyətin bu gün ən böyük ehtiyacı - məhəbbətə, sayğıyadır. Peyğəmbərimizin (s) də mahiyyətcə bütün öz gözəl əxlaqı ilə bu məsələləri öyrədir.

Təbii ki, söhbət bütün bəşəriyyət üçün təhlükəsi olan, fəsad yiyəsi olan, insanlara zülm edənlərə məhəbbət bəsləməkdər getmir. Belə insanlara münasibət bəllidir. Amma adi insanlara münasibət - sevgi, şəfqət, məhəbbətlə olmalıdır. İnsan bunu edəndə düşünsə ki, Peyğəmbərini (s), Rəbbini sevindirir, bunun mükafatı da daha geniş olar.

## Qəlbin tərbiyəsi ilə məşğul olaq

Həzrət Əmirəlmöminin (ə) buyurur: **“Həqiqətən bu qəlblər - bədən kimi iztirablı olar. Ona görə də qəlblərinizin şad olması üçün hikmətli, gözəl sözlər axtarın”.** Necə ki, bədənimizin fiziki hissəsindən muğayat oluruq, qayğısına qalırıq, onun sağlamlığına fikir veririk, xəstələnəndə müalicəsini edirik, davamlı olaraq əzələləri formada saxlayırıq, qəlblərimizlə də gərək məşğul olaq. Çünki qəlblərimizin də durumu bu vəziyyətdədir. Məktəblərdə bədən tərbiyəsi dərsi var, amma qəlb tərbiyəsi dərsi yoxdur. Bədən tərbiyəsi - mühüm, zəruridir. Amma qəlb və ruh tərbiyəsi bundan qat-qat daha önəmlidir. Təəssüflər olsun ki, bəşəriyyətin qəlb tərbiyəsi adında deyəcək bir sözü yoxdur. Bəşəriyyətə uşaqlıqdan bədəninin tərbiyəsi ilə məşğul olmaq öyrədilir. Bədəninin hər bir məsələsinin qaydasında olub-olmamasını nəzarətdə saxlayırlar. Amma biz övladlarımızın qəlbi və ruhi tərbiyəsi ilə məşğul olmuruq. Biz qəlbimizin, ruhiyyəmizin, mənəviyyatımızın tərbiyəsi ilə məşğul olmuruq. Həzrət Əmirəlmöminin (ə) xəstə qəlblərin müalicəsi ilə məşğul olmağın yolunu göstərir. Qəlblərimizin müalicəsi hikmətli gözəl sözlərdədir. Qəlblərimizin dərmanı moizələrdə, xütbələrdə, hikmətli sözlərin mütaliəsindədir.

## Həzrət Əlinin (ə) nəzərində dünya

Həzrət Əli (ə) buyurur: **“Nə deyək o evdən ki, əvvəli çətinlikdir, sonu yoxluqdur. Halalında hesab, haramında cəza vardır. Zəngini fitnəyə, imtahana düçar olar, yoxsulu isə qəmə giriftar olar”.** Bəsirətli insan dünyaya bu istiqamətdən baxar. Bəsirətlilik ustası olan Həzrət Əmirəlmöminin (ə) dünyanın bu sifətlərini bir daha bizə xatırladır. Dünyaya gəldiyimiz gündən çətinliklər bizi əhatəsinə alır. Bu çətinliklərlə həyatı yaşayırıq və bir də ayılırıq ki, artıq getmək vaxtı gəlib. Bu dünyanın sonu - yoxluqdur. Əgər bu dünyada halal ruzi əldə etsək, onun da Qiyamətdə hesab-kitabı olacaq. Bu dünyada qazanılan haramların isə cəzaları var. İmkanı olan insanlar hər zaman fitnə və imtahanlarla qarşılaşacaq. İmkanı olmayan isə qəmə düçar olacaq. Dünyanın mahiyyəti budur.

## Bütün mənəvi xəstəliklərin kökü qəlb tərbiyəsinin olmamasındandır

İnsan öz qəlbinin tərbiyəsi ilə məşğul olmalıdır. Bu gün çox təəssüflər olsun ki, toplumumuzda da yayılan intiharlara meylliliyin səbəbi budur ki, insanlar qəlbinin vəziyyəti ilə, ruhiyyəsi ilə, mənəviyyatı ilə məşğul deyil. İnsan öz Qiyaməti ilə, ölüb-diriləcəyi gün ilə, Məadı ilə məşğul deyil. İnsan bu dünyanı doğru dəyərləndirə bilsə və intiharın yarada biləcəyi faciənin fərqində olsa, heç bir zaman özünü intihara yönəltməz. Yaxşı işlər nümunə yaratdığı kimi, pis işlər də nümunə yaradır. Bəzən bir neçə insan pis işlərə əl atır, toplumda da ona doğru can atmaq yayılır. Bəsirətli, geniş baxışlı insan dünyanın mahiyyətinin elə bu çərçivədə olduğunu dərk edər və bu dünyadan axirətini qazanmaq üçün vasitə kimi istifadə edər. Toplumda buna görə də ruhi, qəlbi tərbiyə olmalıdır. Bu da özümüzə diqqət ayırmaqdan, özümüzün varlığı haqqında, aqibətimiz haqqında düşünməkdən keçir.

**Allahım, bizə geniş, əhatəli baxmaq, bəsirətlilik əta et!**

**Allahım, bizə qəlbimizin durumu ilə məşğul olmaq ləyaqətini nəsib et!**

**Allahım, bizə dünyanın mahiyyətini dərk etməyi nəsib et! Amin!**

Yeni Müsavat
N 234 (5943) 19 sentyabr 2014

**Zaman keçdikcə dövrün tələbləri kimi zövqlər, qaydalar, ictimai tələbat da dəyişir, fərqli məzmun alır. İctimai tələbatın azalması səbəbindən bəzi sənət növləri də get-gedə sıradan çıxır. Məsələn, dərzilik kimi.**
**Bu peşə üçün sözsüz ki, hövsələ və istedad mütləq lazımdır. Bəlkə də elə əziyyətli və çətin iş olduğu üçün çoxları bu sənətin arxasınca getmir. Əvvəllər kimdən soruşsan ki, bu paltarı haradan almısan, deyərdi ki, filan dərziyə tikdirmişəm.**



# “Yüz ölçüb bir biçən”lərin həyata özəl baxışı...

## Əməkdaşımızın öz sənətinin vurğunu olan iki dərzi ilə səmimi söhbəti

Həm kasıb, həm də imkanlı adamlar dərzilərə üz tutardılar. Amma indi hər şey dəyişib. Artıq dərzilərə üz tutanların sayı barmaqla sayılacaq qədər azalıb.

Bəziləri bunun səbəbini geyim mağazalarının sayının artmasında görür, bəziləri isə əvvəllər olduğu kimi yaxşı dərzilərin olmamasında. Dərzilərə üz tutanların sayının az olmasına baxmayaraq işini həvəslə, sevə-sevə yerinə yetirən dərzilər də az deyil. Elə kiçik emalatxanada dərzi işləyən Mətanət xanım kimi.

**Mətanət xanım deyir ki, dərziyə müraciət edənlər əvvəllərdə olduğu kimi çox olmasa da, az da deyil. Uşaqlıqdan bu sənətə həvəsi olduğunu deyən müsahibimiz ilk paltarını da elə özü üçün tikdiyini bildirdi. Daha sonra dərzilik üzrə dərnəyi bitirən Mətanət xanım artıq illərdir paltar tikməklə məşğuldur:** “Tikdiyim paltarları müştərinin bəyəndiyini görəndə daha çox sevinirəm. Hər tikdiyim paltarın gözəlliyini özüm də hiss edirəm. Hazırda mağazalarda satılan paltarları bəyənmirəm. İndiki paltarlar həm çox açıq-saçıqdır, həm də normal bədən ölçülərinə uyğun deyil. Demək olar ki, kim təzə paltar alırsa, onu mütləq dərziyə aparır və müəyyən düzəlişlər etdirir. Düzdür, indi yaxşı dərzilərin də sayı azalıb. Ona görə də dərziyə müraciət edənlər azdır”.

**Mətanət xanım yaxşı dərzi olmaq üçün iki şərti vacib sayır:** “Bundan ötrü bacarıqla yanaşı, rəssamlıq qabiliyyəti də olmalıdır. İndi insanlar daha çox don, kostyum, şalvar tikdirirlər. Dərzilərə müraciət edənlər arasında varlı təbəqənin insanları da kifayət qədərdir. Hərdən müştəri gəlib deyir ki, mən sırf bu modeli istəyirəm. Ancaq mən təxmin edirəm ki, bu model həmin insanda yaxşı qalmayacaq. Ona görə də özümün bildiyim bir modeli ona tövsiyə edirəm”.

**Onu da öyrənirik ki, həmsöhbətimiz bir kostyumu 60-70, bir donu isə 20-50 manat arası qiymətlərə tikir. Həm kişi, həm də qadın paltarları tikən dərzi xanım kişilərin daha çox tək şalvar tikdirməyə üstünlük verdiyini bildirdi:** “Biz paltarlara onun modelinə uyğun olaraq qiymət deyirik. Mənim Yaqut adında bir tarzən müştərim vardı. Onun demək olar ki, əksəriyyət paltarını mən tikmişdim. Sonra nəsə yolumuz uzaq oldu”.



**Dərzinin ölkədə və dünyada baş verənlərə fikrini almaq istədik. Siyasətlə maraqlanmadığını deyən Mətanət xanım Qarabağla bağlı olan bütün xəbərləri daim diqqətində saxladığını söylədi:** “Qarabağ bizim ən yaralı yerimizdi. Torpağımız sülh yolu ilə qaytarılsa, daha yaxşı olar. Amma hər bir vətəndaşın borcudur ki, silahlanıb vətənin müdafiəsinə getsin. Qadın-kişi fərqi yoxdur”.

****

**“İçəri müştəri girəndə üzünə baxıb onun nə fikirdə olduğunu bilirəm”; “Atam məni bu sənətə məcburən gətirib...”**

**Elə söhbətimizin bu yerində bu kiçik emalatxanada Mətanət xanımla birgə fəaliyyət göstərən 25 ilin dərzisi Nofəl İsmayılov içəri daxil oldu. Atasının arzusu ilə dərzilik sənətini seçən Nofəl bəy deyir ki, bu sənətin zirvəsində dayananlardan biri də o olub. Kimin ürəyi hansı tipdə paltar istəyirsə, onu da tikə bildiyini deyən dərzi insanların üzünə baxanda hansı tip paltar istədiyini təxmin edə bildiyini söylədi:** “Rəhmətlik atam mənim dərzi olmağımı çox istəyirdi. O məni bu sənətə məcburən gətirib. Özümə qalsa, başqa sənəti seçərdim. Atam həmişə deyərdi ki, mən istəyirəm ki, oğlum yaxşı dərzi olsun. Mən də onun arzusunu yerinə yetirmişəm və artıq 25 ildir dərziliklə məşğulam. Bir işdə ki, millimetr söhbəti gedir, demək ki, o sənət həddən artıq diqqət tələb edən sənətdir. Bu sənətdə göz ölçüsü olmalıdır. Artıq münəccim kimiyəm. İçəri müştəri girəndə onun üzünə baxıb nə fikirdə olduğunu bilirəm. Mənim 25 il əvvəl müştərilərim necə idisə, indi də elədir. Hərdən müştəriləri geri qaytarıram, vaxtım olmur. Adi kostyumdan tutmuş paltoya kimi tikirəm. Bir sözlə, kimin ürəyi nə istəyir onu da tikirəm. Əvvəllər 4-5 nəfər işçim olub. Sonradan onlar getdikcə bu sənətdən uzaqlaşdılar. Artıq mən də sanki bu işdən yorulmuşam. 25 ildir işləyirəm. İnsan nə qədər işləyər?!”

❑ **Günel MANAFLI**
**!Fotolar müəllifindir**

# “Bütün günüm evdə uşaq saxlamaqla keçir”

## Aqşin Yenisey: “Hələ işə çıxa bilmirəm”


Aqşin Yenisey

**Bir müddət əvvəl ölümdən dönən gənc şair Aqşin Yenisey uzunmüddətli müalicə kursundan sonra hazırda ev şəraitində qalır.**

Şairin özü ilə son durumu, yaradıcılıqla məşğul olub-olmaması barədə danışdıq. Hələ də yüngül fiziki ağrılarının olduğunu söyləyən A.Yenisey gün ərzində məcburi gəzintilər etdiyini dedi:

“Son günlər ev şəraitində yarımçıq qalmış yazılarla və müalicənin yerdə qalan hissəsi ilə məşğulam. Hər şeyə xəstəlikdən əvvəl qaldığım yerdən başlamışam. Yalnız yüngülvari əzələ ağrıları qalıb, həkimlərin göstərişi ilə orqanizmi üçaylıq yataq sükunətindən çıxarmaq üçün məcburi gəzintilər vacibdir. Ağrılar bitib, xəstəliyin əyləncə dönəmi başlayıb”.

**Oğlu İgidayın şairin həyatında hansı dəyişikliklərə səbəb olduğunu soruşduqda bunları söylədi:** “Hələ işə çıxa bilmədiyim üçün bütün günüm evdə uşaq saxlamaqla keçir. Hamı işdə-gücdə olur, İgidayla bütün günü ev-eşiyi dağıdırıq. Bəxtimə xəstəliyin ən ağırı çıxdığı kimi, uşağın da ən dəcəli çıxıb. Televizorda ancaq xəbərlərə baxır, cizgi filmlərindən zəhləsi gedir. Ağlamaqla arası yoxdur. Gözü toxdur, rus kimi əlinə keçəni yox, yəhudi kimi özünə lazım olanı götürür”.

**Mətbuat və ədəbiyyatın son vəziyyətini, hansı kitabları oxuduğunu xəbər aldıqda, şair özünün müdəm oxuduğu mətbu orqan və yazarların olduğunu bildirdi:** “Mütəmadi oxuduğum qəzetlər və saytlar, müəlliflər var, hər gün onları izləyirəm. Alıb evə yığdığım xeyli kitab var, bekarçılıqdan istifadə edib onları oxuyuram. Xəstəlik güzəranı hətta mənə Homerin ”İliada"sını oxutdurdu. Bütün yunan allahlarının adını əzbər bilirəm. Heç vaxt adını belə eşitmədiyim qədim tibb allahı Asklepiosunun özünü belə tanımışam, hətta ona uzun-uzadı bir şeir də yazmışam".

❑ **Fəridə ABDIYEVA**

# “Özümü nazirliyin qarşısında yandıracam”

## Hacıqabul sakini Yalçın Dəmirov: “Vəhşicəsinə döyülmüşəm, Hacıqabul polisi işi ört-basdır etməyə çalışır”

**Hacıqabul rayonu, Qızılburun kənd sakini, 20 Yanvar Cəmiyyətinin üzvü, 2-ci qrup 20 Yanvar əlili Dəmirov Yalçın Səməd oğlu redaksiyamıza müraciət edərək, şikayətini yuxarı orqanlara çatdırmaq üçün “Yeni Müsavat”dan kömək istəyib. O, Hacıqabul Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşlarından şikayətçi olduğunu bildirib.**

Şikayətçi həmkəndlisi, sinif yoldaşı Ruslan Babayev tərəfindən vəhşicəsinə döyüldüyünü və aidiyyəti orqanların buna susduğunu iddia edir. Əlil deyir ki, sentyabrın 14-də günorta saatlarında sinif yoldaşı Ruslan dükana gəlib və siqaret alıb. O, Ruslana idarə etdiyi “KamAZ”ı yavaş sürməsini tövsiyə edib. Ruslana deyib ki, maşını sürətlə sürməsi ucbatından dükanının divarlarında çat yaranıb. Əlil deyir ki, həmin gün axşam saatlarında Ruslan sərxoş vəziyyətdə dükana gəlib, günorta etdikləri söhbətə görə onu döyüb.

**Bundan sonra iş polisə düşüb:** “Baş vermiş hadisə barədə dərhal 102 xidmətinə məlumat verdim. Sahə müvəkkili Rasim müəllimə şikayət etdim. Sahə müvəkkili günahı mənim üstümə atdı. O, cinayətkarı tutmaq əvəzinə mənim qoluma qandal vurub, şöbəyə apardı. Hacıqabul Rayon Polis Şöbəsində baş verənləri olduğu kimi danışdım və izahat yazdım. Polisə şikayət etsəm də, Ruslanın barəsində heç bir tədbir görülmür. Hazırda o, azadlıqdadır”.

**Yalçın Dəmirov əsas şikayətinin Hacıqabul RPŞ-nin əməkdaşlarından olduğunu bildirib:** “Şöbənin təhqiqatçısı Natiq müəllim deyir ki, sən ruhi xəstəsən. Şikayət etdiyimə görə bu adı mənə verirlər. Əslində ruhi xəstə-filan deyiləm. Ruslan mənim üzümə qarşı dedi ki, sənin qiymətin 2 min manatdır. Sonradan aydın oldu ki, o, şöbənin rəhbərliyinə bu qədər "şirinlik" verərək məsuliyyətdən boyun qaçırmağı bacarıb".

**Zərərçəkən Ruslan Babayev tərəfindən ölümlə hədələndiyini də qeyd etdi:** “Açıq şəkildə mənə deyir ki, pul verib işi bağladım. Söhbəti uzatsan, 10 min manat verib, sonra sənin başını kəsəcəm. Özü də narkomandır. Bütün kənd sakinləri bunu bilir. Bir qrup insan Qızılburunda meydan sulayır. Hadisə ilə bağlı əlimdə dəlil-sübutlar var. Amma tədqiqatçı bunları qəbul etmir”.

**Şikayətçi DİN-in qarşısında intihar edəcəyini bildirib:** “Cənab nazir Ramil Usubova müraciət edirəm. Mənə kömək edin, cənab nazir. Sizlərin adından istifadə edərək burada meydan sulayırlar. Korrupsiya baş alıb gedir. Ən azı 500 manatlıq mənə zərər dəyib. Xəstəxanaya getməyə imkanım yoxdur. Cənab nazir, Hacıqabul polisi pul alaraq, cinayətkarı azad edir. Güloğlan adlı məmura məsləhət görərdim ki, bir az insafa gəlsin. Prezidentimizin özü hər zaman məmurların cəmiyyətə nümunə olmasını istəyib. Amma Güloğlan kimi məmurlar dövlətimizin imicinə zərbə vururlar”.

Şikayətçi deyir ki, sağalana kimi problemi həll olunmasa, həmçinin onu döyən şəxs məsuliyyətə cəlb olunmasa, DİN-in qarşısında özünü yandıracaq.





### DİN mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə: “Hər iki tərəf şikayətçidir, işə ədalətli baxılacaq”

**Baş verənlərlə bağlı DİN-in mövqeyini öyrəndik. Nazirliyin mətbuat xidmətinin şöbə rəisi Orxan Mənsurzadə döyülmə faktını təsdiqlədi:** “Biz bununla bağlı dərhal Hacıqabul RPŞ ilə əlaqə saxladıq və hadisəni araşdırdıq. Məlum oldu ki, iki nəfər arasında baş verən münaqişədir. Polis idarəsinin ünvanına səsləndirilən ittihamlar əsassızdır. Həqiqətən Yalçın Dəmirov adlı şəxs tərəfindən idarəyə şikayət ərizəsi daxil olub. Hazırda şöbədə ciddi araşdırma aparılır. Məsələ ilə bağlı hər iki tərəf dindirilib. Ruslan Babayevin özü də ondan şikayətçidir. Yalçın Dəmirov tərəfindən vurulduğunu iddia edir. Hər iki tərəf şikayətçidir. Araşdırma aparılır. Nəticədən asılı olaraq, ədalətli qərar veriləcək”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
Son səhifə
N 234 (5943) 19 sentyabr 2014

# Kosmik taksilər gəlir

NASA amerikalı astronavtların kosmosa gedib-gəlməsi üçün yeni taksilərin hazırlanması haqda qərar verib. 2017-ci ildə kosmosa göndəriləcək kosmik taksilər "Boeing" və "SpaceX" firmaları tərəfindən hazırlanacaq. Beləliklə, NASA daha Rusiyaya bağlı olmayacaq. Kosmik taksilərin hazırlanması üçün 6,8 milyard dollar ayrılıb. Bu pulun 4,2 milyard dollarını CST-100 kosmik taksisini hazırlayacaq "Boeing" firması alacaq. "SpaceX" firması isə Dargon adlı taksi üçün 2,6 milyard dollar alacaq.



Məlumat üçün bildirək ki, son üç ildir amerikalı astronavtları kosmosa Rusiyanın kosmik peykləri daşıyır. Amerika isə hər astronavt üçün Rusiyaya 70 milyon dollar ödəyir.



## İranda xoşbəxt gənclərə cəza

İranlı 3 qızla 3 oğlanın Pharrell Williams'ın "Happy" mahnısını oxuyaraq rəqs etdikləri video sosial mediada izlənmə rekordları qırmışdı. Lakin gənclərin rəqsi həbs edilmələrinə səbəb oldu. Video yayımlandıqdan sonra 6 gənc İran polisi tərəfindən nəzarətə götürülmüşdü. May ayından bəri həbsdə saxlanılan gənclər haqqında şəriət məhkəməsi bugünlərdə qərar çıxarıb. Məhkəmənin qərarına görə, gənclərə 91 qamçı vurulmalı və 6 ay azadlıqdan məhrum edilməlidirlər. Lakin onlar cəzalarını indi çəkməyəcəklər. 3 il polis nəzarəti altında saxlanılacaq gənclər hər hansı bir pis əməl törətməsələr həbs edilməyəcəklər. Amma 6 gəncdən biri bu müddət ərzində yanlış bir addım atarsa, həm qamçılanacaqlar, həm də həbs ediləcəklər.

Məlumat üçün bildirək ki, gənclərin həbs edilməsindən sonra məşhur müğənni Pharrell Williams açıqlama verib. O, açıqlamasında xoşbəxt olan uşaqların həbs qərarına çox üzüldüyünü dilə gətirib.

## Dodaq boyasının zərərləri

İndi az qala hər qadının mütləq istifadə etdiyi bir kosmetika məhsulu olan dodaq boyasının zərərləri aparılan testlər nəticəsində ortaya çıxmışdır. Dünyanın tanınmış markaları üzərində aparılmış təcrübələrə əsasən, dodaq boyasının içində müxtəlif kimyəvi maddələr aşkar edilib. Bu barədə Kanadada nəşr edilmiş hesabatda məlumat verilir.

Dodaq boyasının zərərlərinin səbəbi kimi kimyəvi arsenik, qurğuşun, nikel kimi maddələrin olduğu ortaya çıxıb. Sağlamlığımızı əhəmiyyətli ölçüdə təhdid edən bu kosmetika məhsullarını hər nə qədər istifadə etməməyə çalışsaq da, ondan istifadə ediləcək. Buna görə də heç olmasa bildiyimiz, inandığımız markaların orijinal məhsullarını almağa səy göstərək. Dodaq boyasındakı zərərli maddələrin insan sağlamlığına vurduğu bəzi ziyanlar bunlardır:

1. Saçların tökülməsi
2. Baş ağrısı, baş gicəllənməsi
3. Böyrəklə əlaqədar problemlər
4. Beyinlə əlaqədar problemlər





## 8 yaşlı milyonçu

8 yaşlı uşaq ildə 1,3 milyon dollar qazanaraq hər kəsi təəccübləndirir. Evan adlı oğlan bütün uşaqlar kimi oyuncaqlarıı çox sevir. Bütün vaxtını oyuncaqlarla keçirən Evan, eyni zamanda kompüter və internetlə də yaxından maraqlanır. O, bir müddət əvvəl youtube sosial şəbəkəsində özü üçün xüsusi kanal açıb və adını EvanTubeHD qoyub. 8 yaşlı uşağın açdığı kanal çox keçmədən məşhurlaşıb. Evan ilk vaxtlarda bu kanalda öz oyuncaqları haqda çəkdiyi videoları yayımlayıb. O, atasının çəkdiyi videolarda oyuncaqlarının funksiyaları haqda danışır, özəlliklərini deyir və onları niyə sevdiyini bildirir. Bu videolar qısa müddətdə məşhurlaşdıqdan sonra Evan reklam təklifləri almağa başlayıb. 800 min nəfər təqibçisi olan oğlan indi sosial şəbəkədən aldığı reklam təkliflərindən ildə 1,3 milyon dollar qazanır.




QOÇ - Çağırılmamış ünvanlara qonaq getməyin. Əks təqdirdə məyusluqla qarşılaşacaqsınız. Bu gün təxribata cəlb olunmağınız üçün bir çoxları canfəşanlıq edəcəklər. Təmkinli olun.

BUĞA - İlk növbədə yoluxucu xəstəliklərdən qorunun. Çünki ulduzlar axşam saatlarında orqanizminizin buna həssas olacağını bildirir. Nahar ərəfəsində sevindirici xəbər eşidəcəksiniz.

ƏKİZLƏR - Bütün danışıq və sövdələşmələri təxirə salıb oturaq işlərlə məşğul olun. Əks təqdirdə, təxribat və ya böhtanla üzləşəcəksiniz. Yaxşısı budur, enerjinizi ailə və sevgiyə yönəldəsiniz.

XƏRÇƏNG - Bu təqvimdə ulduzlar daha çox sizin bürcə pul vəd edir. Bu səbəbdən də boş durmağınıza lüzum yoxdur. Büdcənizi artırmaq üçün ağlınıza gələn bütün ünvanlara və adamlara baş çəkin.

ŞİR - Təxminən saat 12-yə qədər bürcünüz üçün bəzi xoşagəlməzliklər mümkündür. Özünüzü gərgin və anlaşılmaz situasiyalara cəlb etməyin. Nahardan sonrasa maraqlı görüş və pul gözlənilir.

QIZ - Astroloji göstəricilər yalnız səfərə çıxmaqla yüksək əhval-ruhiyyəyə yiyələnəcəyinizi proqnozlaşdırır. Bu fürsəti fövtə verməyin. Ulduzlar varlanacağınızdan da xəbər verir.

TƏRƏZİ - Qonaqlıq üçün ideal gündür. Ya hansısa ünvana getməli, ya da ürəyinizə yaxın adamları qonaq çağırmalısınız. Bugünkü söhbətlərin gələcəyiniz üçün əhəmiyyəti böyük olacaq.

ƏQRƏB - Ulduzlar nahara qədər istirahət etməyinizi məsləhət görür. Əgər ciddi işlərə girişsəniz, uğurlu nəticə hasil olmayacaq. Günün ikinci yarısında isə sürpriz gözlənilir. Uzaq yola çıxmayın.

OXATAN - Səhhətinizlə bağlı diqqətli olmağınız vacibdir. İqlimin dəyişkənliyi və ətrafınızda olan insanları qəbul etməməyiniz sinir sisteminizdə mənfi fəsadlar yarada bilər. İstirahətə fikir verin.

OĞLAQ - İmkan daxilində bütün riskli işləri təxirə salın. Əsas vaxtınızı istirahətə həsr etməklə növbəti günlərin planlarını qurun. Aldığınız təklifləri beyin süzgəcindən keçirin.

SUTÖKƏN - İndiki məqamda xilas yolunuz yalnız dost və müttəfiqlərdən asılıdır. Çünki əsaslı dönüş etmək üçün fiziki və psixoloji cəhətdən o qədər də hazır deyilsiniz. Sağlamlığınıza fikir verin.

BALIQLAR - Qərarlarınızda qəti olsanız, heç bir narahatçılıqla üzləşməyəcəksiniz. Bu gün darıxdığınız adamların bir çoxu ilə görüşəcəksiniz. Axşamsa sevindirici hadisələrin şahidi olacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Stresə qarşı yavaş oxuma



Yeni Zelandiyada yaşayan bir qrup gənc özlərinə "Yavaş oxuma klubu" adını verərək ölkədə yeni kampaniyanın başlamasına səbəb olublar. Gənclər həftədə bir dəfə bir kafedə oturaraq yavaş-yavaş kitab oxuyurlar. Qrup üzvləri bu cür oxumağın stresi azaltdığını deyirlər. Alimlərin araşdırmaları da oxumağın insan səhhəti üçün xeyirli olduğunu sübut edir. Ötən il "Science" jurnalında yayımlanan bir məqalədə deyilirdi ki, kitab oxumaq insanların sosial münasibətlər qurmasına kömək edir və yaşlanmağın qarşısını alır.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.600